MÜNDƏRİCAT

3 | ƏLİ HƏSƏNOV: XOCALI SOYQIRIMININ DÜNYADA TANINMASITARİXİ ZƏRURƏTDİR

10 | AZAD CƏFƏROV: TƏBİƏT VƏ CƏMİYYƏTİN QARŞILIQLI ƏLAQƏSİNİN FƏLSƏFİ ASPEKTLƏRİ

14 | MAİS ƏMRAHOV: İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ ERMƏNİLƏRİN AZƏRBAYCAN TARİXİNİ TƏHRİF ETMƏK CƏHDLƏRİ

18 | KAMAL İBRAHİMOV: BÖHRAN ŞƏRAİTİNDƏ SIĞORTA ŞİRKƏTLƏRİNİN MALİYYƏ SABİTLİYİNİN TƏMİN EDİLMƏSİ STRATEGİYASI

23 | VÜQAR RƏHİMZADƏ: YENİ İNFORMASİYA DÖVRÜNDƏ ƏNƏNƏVİ MƏTBUAT VƏ YENİ MEDİA: PERSPEKTİV HANSI SAHƏDƏ OLACAQ?

26 | LALƏ MAHMUDOVA: DÖVLƏTİN İNNOVASİYA SİYASƏTİ VƏ İNNNOVASİYA PROSESLƏRİNİN FORMALAŞMASINA STRATEJİ YANAŞMALAR

30 | VAQİF QASIMOV: TÜRKİYƏ-İSRAİL ARASINDA İQTİSADİ-TİCARƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ VƏ ONUN ƏSAS İSTİQAMƏTLƏRİ

35 | AKİF MƏMMƏDLİ: “BÖYÜK QAFQAZ SƏDDİ”NİN TARİXİ VƏ KATEX ABİDƏLƏRİ

38 | MANSUR MƏDƏTOV: İNSAN KAPİTALININ İQTİSADİ SƏMƏRƏLİLİYİNİN YAXŞILAŞDIRILMASI

42 | FAİQ ƏLİYEV: MİLLİ TƏHLÜKƏSİZLİKDƏ MİLLİ MARAQ VƏ DƏYƏR AMİLİ

46 | ATA BABAYEV: QLOBAL ÇAĞIRIŞLAR BAXIMINDAN NEFT SAHƏSİNDƏ EKOLOJİ-İQTİSADİ SİSTEMİN FORMALAŞMASINA VƏ İDARƏ EDİLMƏSİNƏ STRATEJİ YANAŞMALAR

50 | AYGÜN ƏLİYEVA: MÜSTƏQİL AZƏRBAYCANIN AVROPA MƏKANINA İNTEQRASİYASI VƏ BU PROSESİN TARİXİ ASPEKTLƏRİ

53 | YEGANƏ RƏSULOVA: HEYDƏR ƏLİYEV VƏ DÖVLƏT QURUCULUĞUNDA SOSİAL YADDAŞIN ROLU

60 | YEGANƏ BAXŞIYEVA: CƏNUBİ QAFQAZ ÖLKƏLƏRİNDƏ SU EHTİYATLARININ İNTEQRASİYALI İDARƏ EDİLMƏSİ PROBLEMLƏRİ

65 | ХАТИРА ИБРАГИМОВА: РЕЛИГИОЗНЫЕ И ПОЛИТИЧЕСКИЕ ВЗГЛЯДЫ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

68 | АЙНУР ДАДАШЕВА: ТЕНДЕНЦИИ РАЗВИТИЯ И ПРОБЛЕМЫ В ТУРЕЦКО-ФРАНЦУЗСКИХ ОТНОШЕНИЯХ

73 | AYSEL BAĞIROVA: XX ƏSRİN 90-CI İLLƏRİNDƏ ABŞ-IN CƏNUBİ QAFQAZ MÜNAQİŞƏLƏRİNDƏ MARAQLARININ HÜQUQİ ƏSASLARI



56 | RİYAD RÜSTƏMLİ: MARAQ QRUPLARI VƏ ONLARIN FUNKSİONAL TƏBİƏTİ

"GEOSTRATEGİYA" jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasının dissertasiyaların ***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər*** üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.

GEO STRATEGİYA

Təsisçi:
"Kaspi" Geosiyasi Araşdırmalar Mərkəzi

Baş redaktor:
Əli Həsənov
Redaktor:
İbrahim Əliyev
Redaktor müavini:
İsmayıl Qasımov

Korrektor:
Leyla Binyatova

Dizayner:
İman Hüseynov

Redaksiya heyəti:

Əli Həsənov
Mübariz Qurbanlı
Səlahəddin Xəlilov
Rüstəm Məmmədov
Rasim Musabəyov
Çingiz İsmayılov
Musa Qasımlı
İbrahim Əliyev
Ərəstun Mehdiyev
Cəfər Cəfərov
Elman Nəsirov
Hikmət Məmmədov
Elçin Əhmədov

Ünvan:
Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzinin 4-cü mərtəbəsi.
Tel: (+994 12) 537 16 05
Faks: (+994 12) 537 16 05
E-poçt:
strategiya.az@mail.ru

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunmuşdur.

Sifariş № 0789

Redaksiyanın icazəsi olmadan dərgidəki materiallardan istifadə etmək qadağandır.

Geosiyasət

ƏLİ HƏSƏNOV
Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor

XOCALI SOYQIRIMININ DÜNYADA TANINMASI TARİXİ ZƏRURƏTDİR

Tarixi faktlar göstərir ki, azərbaycanlılar erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinə məruz qalaraq, öz tarixi torpaqlarından didərgin salınmış, qaçqın və məcburi köçkünə çevrilmişlər. "Böyük Ermənistan" ideyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara qarşı terror və soyqırımı həyata keçirməklə etnik təmizləmə siyasəti aparmışlar. Təkcə XX əsrdə azərbaycanlılar 4 dəfə – 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə soyqırımı və etnik təmizləmələrə məruz qalmışlar.

XX əsrin əvvəllərində erməni millətçiləri "Daşnaksütyun" partiyasının proqramında irəli sürülən "böyük Ermənistan" ideyasını reallaşdırmaq istiqamətində fəaliyyətini genişləndirərək öz tarixi torpaqlarında yaşayan azərbaycanlıları planlı surətdə doğma yurdlarından qovmaqla etnik təmizləmə və soyqırımı siyasətini həyata keçirmişlər. Nəticədə 1905-1906-cı illərdə ermənilər Bakıda, Gəncədə, Qarabağda, İrəvanda, Naxçıvanda, Ordubadda, Şərur-Dərələyəzdə, Tiflisdə, Zəngəzurda, Qazaxda və başqa yerlərdə dinc azərbaycanlılara qarşı qırğınlar törətmiş, əhali amansızlıqla qətlə yetirilmiş, şəhər və kəndlər yandırılmış və dağıdılmışdır. Erməni silahlı dəstələri Şuşa, Zəngəzur və Cəbrayıl qəzalarında, İrəvan və Gəncə quberniyalarında azərbaycanlılar yaşayan 200-dən artıq yaşayış məntəqəsini viran qoymuş, on minlərlə soydaşımız öz doğma yurdlarından qaçqın və məcburi köçkün düşmüşdür.

Bu prosesin davamı olaraq, 1917-ci ilin dekabrında Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin edilən S.Şaumyan azərbaycanlıların kütləvi qırğınının təşkilatçısı və rəhbərinə çevrildi. Erməni silahlı qüvvələri tərəfindən 1917-ci ilin əvvəllərindən 1918-ci ilin mart ayına qədər olan dövrdə İrəvan quberniyasında 197, Zəngəzur qəzasında 109, Qarabağda 157 kənd dağıdılmış, digər bölgələrdə 60 yaşayış məskəni məhv edilmiş, yandırılmış və viran qoyulmuşdur.

1918-ci il martın 31-də və aprelin ilk günlərində minlərlə dinc azərbaycanlı yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Həmin günlərdə erməni-bolşevik birləşmələri Bakıda 12 min dinc azərbaycanlını qətlə yetirmişlər. Bu qanlı hadisələr zamanı insanlar evlərində diri-diri yandırılmış, eləcə də xüsusi işgəncələrlə və amansızlıqla öldürülmüşdür.

Ümumilikdə, 1918-1920-ci illərdə ermənilər tərəfindən törədilmiş kütləvi qırğınların Bakı, Quba, Şamaxı, Kürdəmir, Lənkəranla yanaşı, Şuşada, İrəvan quberniyası ərazisində, Zəngəzurda, Naxçıvanda, Şərurda, Ordubadda, Qarsda və başqa bölgələrdə amansız şəkildə davam etdirilməsi nəticəsində on minlərlə azərbaycanlı ən qəddar üsullarla qətlə yetirilmişdir.

1948-1953-cü illərdə Ermənistan SSR-də yaşayan azərbaycanlıların tarixi torpaqlarından, xüsusilə də İrəvan və onun ətraf rayonlarından kütləvi şəkildə deportasiya olunması nəticəsində 150 minə yaxın soydaşımız zorakılıqla Azərbaycanın aran rayonlarına köçürülmüşdür.

XX əsrin 80-ci illərinin ikinci yarısında ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməyi ilə yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər.

1988-ci ildən başlayaraq qonşu Ermənistan dövləti beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq, BMT üzvü olan digər bir suveren ölkəyə - Azərbaycana qarşı ərazi iddiaları qaldıraraq, ölkəmizin Dağlıq Qarabağ Muxtar Vilayətini və ətrafdakı 7 rayonunu işğal etmiş (dövlətin ümumi ərazisinin 20 faizi), bir milyondan artıq dinc əhalini (ölkə əhalisinin hər 8 nəfərindən birini) öz doğma yurd-yuvasından didərgin salmaqla etnik təmizləmə həyata keçirmişdir. Ermənistanın bölgədə apardığı təcavüzkar siyasətin nəticəsi olaraq, 30 ilə yaxındır ki, Cənubi Qafqazda silahlı münaqişə və qanlı toqquşmalar davam edir. Azərbaycanın və beynəlxalq sülhyaratma qurumlarının, ilk növbədə, BMT və ATƏT-in bütün səylərinə baxmayaraq, hələ də Ermənistan işğal etdiyi torpaqlardan geri çəkilmək istəmir və bölgədə dayanıqlı sülhün bərqərar olmasına ciddi maneə törədir. Hazırda Cənubi Qafqazda hər an yeni silahlı toqquşmalar və qanlı müharibələr başlaya bilər ki, bu da yeni-yeni insan fəlakətlərinə səbəb olar.

Davakar erməni millətçiləri son iki əsrə yaxın bir müddətdə dövlət səviyyəsində Cənubi Qafqazdakı tarixi Azərbaycan torpaqları və Türkiyənin Şərqi və Cənub-Şərqi Anadolu ərazilərində mifik "böyük Ermənistan" dövləti yaratmaq ideyasını gerçəkləşdirmək məqsədilə davamlı olaraq Türkiyə

türklərinə və azərbaycanlılara qarşı qanlı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə kimi bəşəri cinayətlər törətməkdə davam edirlər. Onlar yenə də dövlət səviyyəsində rəsmi millətçi-şovinist ideologiya həyata keçirərək, erməni "alim"lərinin əli ilə bölgənin real tarixini saxtalaşdırmış, erməni xalqının bir neçə nəslinə milli müstəsnalıq, türk-müsəlman xalqlarına qarşı düşmənçilik ruhu aşılamış, kəskin mənəvi təcavüz kampaniyası apararaq indiki Ermənistan ərazisini yerli azərbaycanlılardan tam təmizləmişlər. Cənubi Qafqazda yaşanan və beynəlxalq hüquqa zidd bütün belə proseslər, insanlığa sığmayan bütün hadisələr dünyadakı erməni diasporu tərəfindən bilərəkdən təhrif edilmiş, dünya ictimaiyyətinin nəzərində "əzabkeş və məzlum" erməni, "zalım" türk-müsəlman və azərbaycanlı obrazları yaradılmışdır.

XX əsrin 80-ci illərinin ikinci yarısında da ermənilər SSRİ-də yaranmış siyasi vəziyyətdən istifadə edib, dərhal Azərbaycana qarşı açıq ərazi iddiası irəli sürmüş, bir neçə günün içərisində Ermənistanda yaşayan 200 minə qədər azərbaycanlını kütləvi şəkildə deportasiyaya məruz qoymuş, ardınca Dağlıq Qarabağın azərbaycanlı icmasına qarşı kütləvi terror və qırğınlar həyata keçirməyə başlamışlar. Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi barədə hüquqazidd qərar qəbul etmiş və bununla da Dağlıq Qarabağ probleminin əsl mahiyyətinin Azərbaycana qarşı əsassız ərazi iddialarından ibarət olduğunu nümayiş etdirmişdir. Eyni federativ dövlətdə birləşən bir respublikanın digər respublikaya qarşı ərazi iddiasına heç bir hüquqi reaksiya verilməmiş, əksinə, Sovet İttifaqının o zamankı rəhbərliyinin ermənipərəst siyasəti mövcud vəziyyətin getdikcə kəskinləşməsinə, DQMV ərazisində və Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrində ermənilər tərəfindən azərbaycanlılara qarşı terror, kütləvi qırğın və etnik təmizləmə cəhdlərinin geniş miqyas almasına təkan vermişdir. Qeyd etmək lazımdır ki, Ermənistan Ali Sovetinin həmin qərarı sonra da ləğv edilməmiş, Robert Köçəryan 1989-cu ildə Ermənistan parlamentinin deputatı, 1998-ci ildə isə Ermənistan prezidenti seçilərkən həmin qərarın ona tamhüquqlu Ermənistan vətəndaşlığı verməsi "faktı"na istinad etmişdir. Eyni "hüquq"dan sonradan onun varisi olan Serj Sarkisyan da bəhrələnmişdir.

1992-ci ilin əvvəllərindən Ermənistan silahlı qüvvələri öz təcavüzkar siyasətlərini genişləndirərək Dağlıq Qarabağ və ətraf ərazilərdəki azərbaycanlılar yaşayan bütün yaşayış məntəqələrini bir-birinin ardınca işğal etməyə başlamışdır. Qısa zaman kəsiyində Xocavənd, Cəmilli, Meşəli, İmarət-Qərvənd, Kərkicahan, Malıbəyli, Quşçular, Qaradağlı və digər kəndlər zəbt olunmuş, əhalinin bir qismi əsir götürülmüş, onların əmlakı və mal-qarası mənimsənilmişdir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan dövlətinin nizami hərbi birləşmələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə aylarla mühasirədə saxlanılan Xocalı şəhərinə hücuma keçərək, bir gecənin içində onu yerlə-yeksan etmişlər. Bu qanlı aksiya zamanı dinc əhaliyə amansızlıqla divan tutulmuş, 613 nəfər qətlə yetirilmiş, meyitlər təhqir olunmuş, 1275 nəfər girov götürülmüşdür. Onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Qətlə yetirilənlərin 63 nəfəri uşaq, 106 nəfəri qadın və 70 nəfəri qoca idi. Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilmişdir.

Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıdaraq onun suverenlik əzmini qırmaq, ərazi bütövlüyü uğrunda apardığı mübarizədən çəkindirmək və torpaqlarını zorla ələ keçirmək idi. XX əsrin sonunda dünyanın gözü qarşısında baş verən, qəddarlığı və amansızlığı

ilə xüsusi fərqlənən Xocalı soyqırımı təcavüzkar erməni siyasətinin ən qanlı səhifəsidir. Bu ağır cinayətə görə siyasi-hüquqi məsuliyyət birbaşa Ermənistanın o zamankı və sonrakı rəhbərliyinin, həmçinin Dağlıq Qarabağdakı separatçı rejimin üzərinə düşür.

Ermənistan Xocalı faciəsini törətdikdən sonra Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirmiş, Dağlıq Qarabağın hüdudlarından kənara çıxaraq daha 7 rayonu işğal etmiş, bir milyona yaxın azərbaycanlını öz doğma ev-eşiyindən didərgin salaraq qaçqın və məcburi köçkünə çevirmişdir.

Azərbaycan dövləti başda ümummilli lider Heydər Əliyev olmaqla, sonrakı 15 ildə isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Xocalı soyqırımının dünyada tanıdılması, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, təcavüzkarın ifşası və işğal edilmiş torpaqlarımızın azad olunması üçün bütün zəruri addımları atıb və atmaqdadır. Azərbaycan dövləti belə taleyüklü məsələnin həlli ilə bağlı bütün milli resursların, o cümlədən diaspor qurumlarının imkanlarından həmişə istifadə etmiş, bu istiqamətdə irəli sürülən əksər ictimai təşəbbüsləri dəstəkləmişdir. Son illərdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə dünyada geniş vüsət almış "Xocalıya ədalət!" (Justice for Khojaly) beynəlxalq kampaniyasına Azərbaycanda və xaricdə fəaliyyət göstərən çoxsaylı vətəndaş cəmiyyəti institutları da qoşularaq, ayrı-ayrı ölkələrin dövlət qurumlarını və ictimaiyyətini, beynəlxalq təşkilatları bu faciəyə adekvat qiymət verməyə çağırırlar.

Hazırda:

• dünyanın 13 ölkəsi parlament səviyyəsində,

• ABŞ-ın 22 ştatı parlament səviyyəsində,

• İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını rəsmən tanımışdır.

• Avropa İnsan Haqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qırılmasını "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" kimi müəyyən etmişdir.

Bundan başqa, Azərbaycanın ərazi bütövlüyü məsələsi və Ermənistanın işğalçı dövlət olması faktı:

• BMT Təhlükəsizik Şurasının 1993-cü il aprel-noyabr aylarında qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrində,

• ATƏT-in 1996-cı il Lissabon Sammitinin qərarında,

• BMT Baş Assambleyasının 60-cı (2006) və 62-ci (2008) sessiyalarının çıxardığı "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamələrində,

• AŞPA-nın (2005) qərarında,

• Avropa Parlamentinin (2010) qətnaməsində,

• Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Sammitinin Bəyannaməsində (2017),

• Avropa İttifaqı-Azərbaycan "Tərəfdaşlıq Prioritetləri" razılaşmasında (2018),

• Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının XVI (Tehran, 2012) və XVII (Marqarita, 2016) sammitlərinin qərarlarında,

• İslam Əməkdaşlıq Təşkilatının (İƏT) dövlət və hökumət başçılarının VII (Mərakeş, 1994), VIII (İran, 1997) və IX konfranslarında (Qətər, 2000) qəbul edilmiş qətnamələrdə, XI (Seneqal, 2008) və XII (Misir, 2013) zirvə toplantılarının yekun sənədlərində, eləcə də İƏT Xarici İşlər Nazirləri Şurasının müxtəlif konfranslarında qəbul edilmiş çoxsaylı qətnamə və yekun sənədlərində,

• ECO-nun 13-cü Sammitinin (İslamabad, 2017) yekun bəyanatında və s. beynəlxalq qurumların qərarlarında Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət ifadə edilmiş, münaqişənin məhz bu prinsiplər əsasında həllinin vacibliyi qeyd olunmuşdur.

• Eyni zamanda, NATO-nun 2006-cı ildən bəri keçirilən əksər zirvə toplantılarının, o cümlədən Nyuport (2014), Varşava (2016) və Brüssel (2018) sammitlərinin yekun kommunikelərində Cənubi Qafqazdakı münaqişələrin ölkələrin ərazi bütövlüyü, suverenliyi və Helsinki Yekun Aktına əsaslanaraq həlli prinsipinin öz əksini tapması Azərbaycanın mənafeyinə cavab verir.

Bütün bunlara baxmayaraq, hazırda Ermənistan beynəlxalq hüquq normalarını pozaraq öz işğalçılıq siyasətini davam etdirir və Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar olmasına ciddi maneçilik törədir. Həmçinin dünyadakı erməni diasporu və lobbisi Dağlıq Qarabağ problemini, Ermənistan dövlətinin işğalçılıq siyasətini, evindən qovulmuş bir milyona yaxın azərbaycanlının böyük faciəsini, Azərbaycan torpaqlarının işğal altında saxlanması faktını, Xocalı qətliamını və bu qəbildən olan digər qanlı cinayətləri unutdurmaq, diqqətdən kənarda saxlamaq məqsədilə xüsusən də bizim fəallaşdığımız ildönümü tədbirləri zamanı, davamlı olaraq, 1915-ci il hadisələrini gündəmə gətirib qardaş Türkiyəyə qarşı qondarma "erməni soyqırımı" iddiası qaldırırlar.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərlik etdiyi AKP hakimiyyətə gəldikdən sonra ilk atdığı addımlardan biri 1915-ci il hadisələri ətrafında aparılan kampaniyanın qərəzini ifşa etmək olmuş, qardaş ölkə bu yöndə bir çox beynəlxalq tədbirlərin təşəbbüsçüsü və ev sahibi kimi çıxış etmişdir. Təəssüf ki, Prezident Ərdoğanın tarixin obyektiv araşdırılması üçün arxivlərin açılması və birgə komissiyaların təşkili haqqında çağırışları əks tərəfdən dəstək almamışdır. Bu gün Türkiyə və Azərbaycan prezidentləri həm ölkələrimizin daxilində, həm də beynəlxalq müstəvidə türk-müsəlman dünyasının maraqlarının müdafiəsi, problemlərinin həlli naminə nümunəvi birgə fəaliyyət, həmrəylik nümayiş etdirirlər.

Bu həmrəylikdən örnək götürərək həm Azərbaycanın, həm də qardaş Türkiyənin vətəndaş cəmiyyəti təşkilatları, əli

qələm tutan bütün ziyalıları rəsmi dövlət orqanlarının həyata keçirdiyi tədbirlərə hər cür dəstək verməklə Xocalı soyqırımı və Azərbaycan torpaqlarının işğalı, eləcə də 1915-ci il hadisələri ilə bağlı gerçək faktları dünya ictimaiyyətinin diqqətinə çatdırmalı, tarixin obyektiv qavranılmasına və adekvat hüquqi-siyasi qiymətinin almasına çalışmalıdırlar. Ümumiyyətlə, bu işləri daha fəal, davamlı və sistemli şəkildə həyata keçirməklə biz mütləq nəticələr əldə edə bilərik.

Bu məqsədlə Azərbaycan və türk diaspor təşkilatları da öz çevikliyini və mütəşəkkilliyini artırmalı, əlaqələndirilmiş şəkildə fəaliyyət göstərməlidir. 2007-ci ilin noyabrında Türkiyə və Azərbaycan prezidentlərinin birgə təşəbbüsü ilə Bakıda keçirilmiş Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, azərbaycanlılara qarşı erməni işğalçıları tərəfindən törədilmiş soyqırımı, terror aktları və digər cinayətlərin beynəlxalq miqyasda ifşası istiqamətində türkdilli ölkələr və icmalar tərəfindən birgə tədbirlərin görülməsi haqqında tövsiyələrin həyata keçirilməsi ilə bağlı fəaliyyətlərini genişləndirməlidirlər.

Təəssüf ki, bəzi dövlətlər qondarma "erməni soyqırımı" haqqında əsassız qərarlar qəbul ediblər. Biz həmin ölkələrdə də ardıcıl iş aparmalı, onların vətəndaş cəmiyyətləri ilə işləməyin məqbul səmərəli üsullarını tapmalıyıq. Soydaşlarımız yerli və beynəlxalq ənənəvi media, eləcə də sosial şəbəkələr vasitəsilə geniş kampaniyalar təşkil etməli, soyqırımı problemlərini, o cümlədən Xocalı faciəsinə dair real faktları elmi konfranslarda, simpoziumlarda və digər toplantılarda təqdim etməlidirlər.

Məlumdur ki, münaqişənin nizama salınması üçün aparılan danışıqlarda da Ermənistan qeyri-konstruktiv mövqedən çıxış edərək işğalçılıq siyasətindən əl çəkmir. Digər tərəfdən isə, BMT və ATƏT kimi beynəlxalq təşkilatların öz təklif və qətnamələrini həyata keçirmək üçün konkret fəaliyyət göstərməməsi danışıqlar prosesində irəliləyişin əldə olunmasına maneə törədir. Bununla yanaşı, keçən 27 il ərzində ATƏT çərçivəsində yaradılan Minsk qrupu və bu qrupa həmsədrlik edən dövlətlər "ikili standartlar" prinsipindən çıxış edərək, münaqişənin ədalətli həll olunması üçün Ermənistana qarşı heç bir təzyiq göstərmək niyyətində olmamışlar.

Buna baxmayaraq, Azərbaycan dövləti beynəlxalq təşkilatların, xüsusilə də münaqişəni dinc vasitələrlə nizama salmaq üçün fəaliyyət göstərən ATƏT-in sülhyaratma təkliflərinə hörmətlə yanaşaraq onun işində müntəzəm və əməli şəkildə iştirak edir. Bu da münaqişənin nizama salınması istiqamətində aparılan danışıqlarda Azərbaycanın, ilk növbədə, sülh variantına üstünlük verdiyinə sübutdur.

Münaqişənin nizama salınmasında Azərbaycanın tutduğu mövqe birmənalıdır. Yəni, problem yalnız Azərbaycanın ərazi bütövlüyü və ölkəmizin beynəlxalq səviyyədə tanınmış

sərhədləri çərçivəsində həllini tapmalıdır. Bu mövqe beynəlxalq hüququn normaları və prinsipləri, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və münaqişənin nizamlanması istiqamətində qəbul edilmiş çoxsaylı beynəlxalq sənədlərə əsaslanır. Eyni zamanda, münaqişənin dinc vasitələrlə nizama salınması istiqamətində bütün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər Azərbaycanın mövqeyinin bir daha gücləndirilməsi və məsələnin beynəlxalq hüququn prinsipləri əsasında həllinin təsdiqlənməsi deməkdir.

Bu səbəbdən, Qarabağ həqiqətləri haqqında dünya ictimaiyyətinin məlumatlandırılması istiqamətində keçirilən tədbirlərin coğrafiyasını genişləndirməli və Ermənistanın işğalçılıq siyasətinin beynəlxalq aləmdə ifşa edilməsinə nail olmaq üçün bütün qüvvələrimizi birləşdirərək bundan sonra da daha ciddi çalışmalı, Azərbaycan dövlətinin bu istiqamətdə apardığı siyasətə öz töhfəmizi verməliyik.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 26 mart 1998-ci il //"Azərbaycan" qəz.- 1998.- 27 mart.

2. Azərbaycanlıların soyqırımı haqqında (8 dildə).- Bakı, 1998.- 120 s.

3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: İki cilddə.- Bakı, 2004.- Cild I.- 440 s.

4. Azərbaycan Respublikasinin Hərbi Prokurorluğu ermənilər tərəfindən Xocalıda törədilmiş soyqırımı ilə bağlı istintaq əməliyyat tədbirlərini davam etdirir //"Azərbaycan" qəz.- 2010.- 24 fevral.

5. Boran Əziz. Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri.- Bakı, 2008.- 224 s.

6. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011-ci illər).- Bakı, 2012.- 912 s.

7. Həsənov Ə.M.Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri. Bakı: Zərdabi LTD, 2017.- 400 s. (Azərbaycan, türk, rus, ingilis, fransız, alman, ərəb və çin dillərində).

8. Həsənov Ə.M.Xocalı soyqırımı: səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması. Bakı: Zərdabi LTD, 2017.- 464 s. (Azərbaycan, türk, rus, ingilis, fransız, alman, ərəb və çin dillərində).

9. Xocalı - XX əsrin soyqırımı = Khojaly- Genocide of the 20th Century = Ходжалы- геноцид XX века = Chodschali- Völkermord des XX. Jahrhunderts = Khodjaly- Génocide du XXe siècle /layihənin rəh. Ə.Həsənov, A.Aslanov.- Bakı: Şərq-Qərb, 2012.- 131 s.- Azərbaycan, ingilis, alman, fransız və ərəb dillərində.

10. Xocalı - 1992 = Khojaly - 1992 = Khodjaly - 1992 = Ходжалы - 1992 /Heydər Əliyev İrsini Araşdırma Mərkəzi.- Bakı: CBS, 2012.- 211 s.- Azərbaycan, ingilis, fransız və rus dillərində.

11. Qasımlı M. Ermənistanın sovetləşməsindən Azərbaycan ərazilərinin işğalınadək ermənı iddiaları: tarix - olduğu kimi (1920-1994-cü illər).- Bakı, 2016.- 520 s.

12. Mahmudov Y., Şükürov K. Qarabağ. Real tarix, faktlar, sənədlər.- Bakı, 2005.- 380 s.

13. Mehdiyev R.Ə. Gorus – 2010: absurd teatrı mövsümü.- Bakı, 2010.- 96 s.

14. Mehdiyev R.Ə. Azərbaycanlılara qarşı soyqırımı gerçəklikləri.- Bakı, 2010.- 204 s. (Azərbaycan, rus və ingilis dillərində).

15. Məmmədov X., Məmmədov N. Türkiyədə və Azərbaycanda ermənı millətçilərinin cinayətləri.- Bakı, 2006.- 215 s.

16. Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi (qısa tarixi oçerk).- Bakı, 1992.- 72 s.

17. Məmmədov N. Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal: XX yüzillik.- Bakı: Təhsil, 2009.- 272 s.

18. Мамедова Х. Ходжалы: шехиды и шахиды: армянский терроризм как составная часть международного терроризма.- Баку, 2005.- 248 с.

19. Мехтиев Р.Э. Нагорный Карабах: история, прочитанная по источникам.- Москва: Аквариус, 2014.- 280 с.

20. Пашаев А. Геноцид, депортации и территориальные претензии армян к Азербайджанскому народу: XIX-XX вв.- Баку, 2013.- 152 с.

21. Помпеев Ю. Карабахский дневник.- Москва, 2010.- 416 с.: ил.

22. Помпеев Ю. Кровавый омут Карабаха.- Баку, 1992.- 208 с.

23. Постановление Совета Министров СССР № 4083 от 23 декабря 1947 года "О переселении колхозников и другого азербайджанского населения из Армянской ССР в Кура-Араксинскую низменность Азербайджанской ССР".- Архив ЦСИ МИД АР.

24. Постановление Совета Министров СССР № 754 от 10 марта 1948 года "О мероприятиях по переселению колхозников и другого азербайджанского населения из Армянской ССР в Кура-Араксинскую низменность Азербайджанской ССР".- Архив ЦСИ МИД АР.

25. Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XXI вв.).- Баку, 2002.- 395 с.

26. События вокруг НКАО в кривом зеркале фальсификаторов (Сборник материалов).- Баку, 1989.- 92 с.

27. Ходжалинский геноцид /Фонд Гейдара Алиева: фото (Карабахские реалии).- Баку, 2006.- 12 с.

28. Ходжалы. Хроника геноцида.- Баку, 1993.- 144 с.

29. Трагедия виновников который невозможно оправдать /Доклад Московского правозащитного центра Мемориал о массовых нарушениях прав человека, связанных с занятием населенного пункта Ходжалы в ноц с 25 на 26 февраля 1992 г. вооруженными формированиями.- Баку, 1992.- 16 с.

30. Brief information of the history of Garabagh. Heydar Aliyev Foundation presents. The series of "The true facts about Garabagh".- Baku, 2005.- 12 p.

31. Consequences of Armenian aggression against Azerbaijan. Heydar Aliyev Foundation presents. The series of "The true facts about Garabagh".- Baku, 2005.- 12 p.

32. The beginning of the Garabagh conflict. Heydar Aliyev Foundation presents. The series of "The true facts about Garabagh".- Baku, 2005.-12 p.

33. Hasanov A.M. Armenian policy of ethnic cleansing and genocide against the Azerbaijanis in the 20 century //Политика двойных стандартов в разрешении территориальных конфликтов. Материалы Международной научно-практической конференции (Кишинэу, Республика Молдава, 25 февраля 2016 г.).- Кишинэу, 2016.- С.13-24.

34. The Khojaly Genoside. Heydar Aliyev Foundation presents. The series of "The true facts about Garabagh".- Baku, 2005.- 12 p.

35. UN General Assembly Resolution A/RES/3/260. "Prevention and Punishment of the Crime of Genocide". 9 December 1948 - http://www.un-documents.net/a3r260.htm.

İnternet resursları

36. http://president.az
37. http://meclis.gov.az
38. http://mfa.gov.az
39. http://heydar-aliyev-foundation.org
40. http://aliyev-heritage.org
41. http://azerbaijan.az
42. http://justiceforkhojaly.com
43. http://refugees-idps-comittee.gov.az
44. http://preslib.az
45. http://khojaly.preslib.az
46. http://anl.az
47. http://anl.az/xocali
48. http://history.az
49. http://31mart.wordpress.com
50. http://iravan.com
51. http://virtualkarabakh.az
52. http://azertag.com

Açar sözlər: *Ermənistanın Azərbaycana təcavüzü, etnik təmizləmə, terror, soyqırımı, işğal*

Ключевые слова: *Агрессия Армении против Азербайджана, этнические чистки, террор, геноцид, оккупация.*

Keywords: *Aggression of Armenia against Azerbaijan, territorial claims, ethnic cleansing, terror, genocide, occupation.*

РЕЗЮМЕ

В статье на основании научных источников исследуются территориальные притязания и захватническая политика Армении против Азербайджана, начиная со второй половины 80-х годов XX века, в том числе политика этнической чистки, государственного терроризма и геноцида против азербайджанцев в 1988-1993 годах. В частности, на основании зарубежных источников широко анализируются преступления, совершенные 26 февраля 1992 года во время оккупации города армянскими вооруженными силами, а также учиненные против мирного населения акты вандализма.

Кроме того, совершенный армянами в конце XX столетия в Ходжалы акт геноцида расценивается в статье как одно из самых тяжких преступлений, направленных против всего человечества и человечности. Одновременно в статье уделяется внимание истории этой стратегически важной территории, расположенной в Нагорно-Карабахском регионе Азербайджана, указываются причины, повышающие значение города Ходжалы. Вместе с тем, широко исследуются работа, проводимая в области доведения до мира Ходжалинского геноцида, дачи ему политико-правовой оценки, а также вопросы международного признания Ходжалинской трагедии как акта геноцида.

SUMMARY

The territorial claims and occupation of Armenia against Azerbaijan from the second half of the 80s of the XX century, including ethnic cleansing against Azerbaijanis in 1988-1993, state terrorism and genocide policy are studied according to the scientific sources. Especially, crimes committed during the occupation of Khojaly by Armenian armed forces on February 26, 1992, as well as the acts of vandalism against civilians are widely analyzed according to the foreign sources.

In addition, the genocide committed by Armenians in Khojaly at the end of the XX century is regarded as one of the most serious crimes against humanity. Also, the article examines the history of this strategically important area in the Nagorno-Karabakh region of Azerbaijan and indicates the reasons of the importance of Khojaly. In addition, informing world community about Khojaly genocide, the activites for getting political and legal assessment for it , as well as the recognition of Khojaly tragedy as genocide in the international arena are widely studied in the article.

Fəlsəfə

TƏBİƏT VƏ CƏMİYYƏTİN QARŞILIQLI ƏLAQƏSİNİN FƏLSƏFİ ASPEKTLƏRİ

AZAD CƏFƏROV
ADNSU
Fəlsəfə doktoru, dosent

Fəlsəfə elmində varlıq mövzusunda varlığın əsas formalarını qeyd edərkən, təbiətin varlığı xüsusi qeyd edilir. Deməli təbiət-cəmiyyət münasibətlərində hər zaman fəlsəfi təhlil, elm mövcud olandan bu günə qədər öz aktuallığını saxlamağa müvəffəq olmuşdur. Bu da ondan irəli gəlmişdir ki, insanın mövcudluğunu şərti kimi əsas cəhət, qeyd edilən münasibətlərlə bilavasitə bağlı olmuşdur. Tarixin müxtəlif zamanlarında təbiət anlayışına verilən məna fərqli olmuşdur. Hər millətin danışıq dilindən tutmuş, qavramasına qədər təbiət-cəmiyyət münasibətləri özünə-məxsusluğu ilə seçilmişdi. Belə ki, mikro, makro, meqa aləmdə mövcud olan cisimlər təbiətin əsası kimi başa düşülürdü. Digər tərəfdən təbiəti dar mənada, yəni insanın yaşadığı cəmiyyətdəki fəaliyyətinin mühiti kimi də başa düşülür. Cəmiyyətin olması, insanın bu mühitdə sosial münasi-bətlərə malik olması kontekstində qəbul edilir. Yəni sosial fəaliyyətin təbii mühitə aid olması irəli sürülür. Bu da öz növbəsində insan həyatının mövcudluğunu və mənasını səciyələndirir. Həyatın mövcudluğu və mənası, insan yaranandan təbiətlə təmasda və ünsiyyətdə olması ilə xarakterizə olunur. Təbiətlə insanın münasibətinin tarixən dəyişməsi məhz bu mahiyyətdən irəli gəlir. Yəni təbiətin bir hissəsi olmaqdan başlayaraq, təbiəti dəyişdirməyə və tamamilə məhv etməyə qədər yüksəlməsini nəzərdə tutur. Məhz belə münasibətin, təbiətin fəlsəfi düşüncə obyekti olmasını şərtləndirir. Təbiətsiz insanı, insansız təbiəti başa düşmək olmadığı kimi, insansız cəmiyyəti, cəmiyyətsiz insanı başa düşmək olmaz. Təbiətə olan münasibətlə cəmiyyətin inkişafı kontekstində məsələyə baxılması fəlsəfəsini özündə ehtiva edir. Cəmiyyətin inkişafı məhz bu məsələnin qavramasından irəli gəlir. Burada ziddiyyətin olması əsas məsələ kimi təbiət-cəmiyyət münasibətlərinin tənzimlənməsini nəzərdə tutur. Nəticədə insan nə qədər təbiəti dərk edirsə, bir o qədər cəmiyyətin inkişafına təkan vermiş olur. İnsanlar təbiəti istismar edərkən təbiətdəki proseslərə nə qədər müdaxilə etmələri və dəyişdirərkən bu qanunauyğunluqları təsirə məruz qoymaqları, cəmiyyətin inkişafına öz mənfi və ya müsbət töhvəsini vermiş olurlar.

Təbiət varlığın elə formasıdır ki, orada baş verənlər təbiət qanunları nəticəsində özünü büruzə verir. Cəmiyyətdə isə insanlar belə münasibətləri özləri yaradıb tənzimləyirlər. Cəmiyyətdə insanlar tərəfindən yaradılan münasibətlər təbiətin əksinə olmamalıdır. Təbiətin mövcud olmasını və bu mövcudluğun qorunmasına məhz insanlar və cəmiyyətlər məsuliyyət daşıyır.

Deməli təbiət-cəmiyyət, təbiət –insan münasibətləridə belə münasibətlərə yalnız insan öz tovhəsini verməlidir. Elə mədəniyyət anlayışının mənası ondadır ki, təbiətdə olanı insan, öz həyatı üçün onu dəyişməlidir. Amma təbii prosesdə, belə dəyişmələr mövcud olan həlqənin qırılmasına deyil, istismar zamanı təbiətdə iştirak edən bütün varlıqların mövcudluğunun, qorunmasına, bərpasına və qayğısına yönəlməlidir.

Məsələyə fəlsəfi yanaşma ona görə əhəmiyyətlidir ki, istənilən cəmiyyətin inkişafı bilavasitə təbiətə münasibətlə ölçülür. Qloballaşan dünyada hansısa cəmiyyətin belə münasibətlərə elmi-fəlsəfi yanaşma təhlili yoxdursa və nəticələr həmən cəmiyyətdə tətbiq edilmirsə, sonunda insanlara dəyən ziyan yüz dəfələrlə ölçülür. Yüksək texnologiyaların da inkişafı geriyə dönməz bir prosesdir. Təbiətin, cəmiyyətin, insanın fəlsəfəsi onlar arasında olan münasibətdən irəli gəlir. Deməli, istənilən halda qeyd olunan ekoloji münasibətlərin fəlsəfəsi təbiət-insan münasibiətləri fəlsəfəsiylə vəhdətdə olmaqla uyğunluq təşkil etməlidir. Təbiəti dəyişdirərkən və ya mədəniləş-dirərkən onların münasibətinə fəlsəfi yanaşma məsələnin həllində mühüm rol oynayır. Yəni tarixin elə mərhələləri olmuşdur ki, təbiətə münasibət kortəbii xarakter daşıyırdı. Sanki insanlar təbiətə münasibətdə, təbiəti ram etməkdən ötəri yarışa girmişdir. Artıq elə bir zamanda yaşayırıq ki, Yer planetində baş verənlər sivlizasiyaları təbiətə münasibəti dəyişməyə sövq edir. Qlobal istiləşmədən tutmuş, təbiətə cəmiyyətlərin münasibətinin dəyişməsinə qədər təfəkkür tərzinin, düşüncə və yanaşma tərzinin dəyişməsini labüd edir. Təbiət və cəmiyyət qanunlarının mövcudluğunun olmasını bilən insan, artıq bunlara olan münasibətlərinə, zamanın tələbinə olan tərzdə uyğunlaşması tələb olunur.

Maddələr mübadiləsini təmin edən insan və təbiət hər biri ayrı ayrılıqda özünə məxsus qanunlara tabedirlər. Bu prizmadan yanaşanda hər birinin inkişafı bu qanunları insanın rifahına yönəldib, ortaq nöqtəni tapmaqla cəmiyyətin inkişafını təmin etmək deməkdir. Təbiidir ki, insanlar təbiətdə olmayan nələrisə yaratmağa cəhd göstərirlər. Vəhşi heyvanların əhliləşməsi, seleksiya yolu ilə yeni orqanizm və bitkilərin yaranması, şəhər, platina, yeni yaşayış məskənləri, fabrik və zavodlar, su hövzələri və s. yaradırlar. Bəzi mənbələrdə buna ikinci mühit, bəzilərində isə süni mühit deyirlər. Bu cürə hallar insanın təbiətə olan münasibətindən yan keçmir. Belə ki, təbiətdə baş verən dəyişikliklərin, cəmiyyətin mədəni inkişaf səviyyəsindən aşlı olaraq münasibətlərdə özünü büruzə verir. Bütün baş verənlər istənilən halda həm insanın özünə həm də onun istehsal etdiyi maddi və mənəvi nemətlərə təsir göstərir. O da öz növbəsində, insanın maddi və mənəvi inkişafına öz töhvəsini verir. İnsanın əməyi nəticəsində istehsal olunan məhsullarda və sosial keyfiyyətin səviyyəsində öz təsirini göstərir. Təbiət insanın mövcudluğunu təmin etməklə bərabər, həmçinin insanın fəaliyyətindəki keyfiyyət və kəmiyyət dəyişməsinə səbəb olur. Təbii resursların zənginliyi və ya qıtlığı, insanların bu nemətləri istehsal etməsinə, bu və ya digər formada təsirsiz ötüşmür. Təbii resurslar, bu və ya digər cəmiyyətlərin sərvətidir. Təbii resursların çox və ya az olması cəmiyyətin inkişafına təsir etməsinə görə müxtəlif fəlsəfi nəzəriyyələr vardır. Bunlardan texnokratiya və texnofobiya nəzəriyyələrinin irəli sürdükləri məsələləri insan-təbiət, təbiət-cəmiyyət, cəmiyyət-təbiət münasibətlərinə şamil etmək olar. Bir sıra filosoflar tərəfindən cəmiyyətin mövcudluğuna, inkişafa, demoqrafik proseslərə və s. ətraf mühitin təsirinin olduğu qeyd edilir. Bununla bərabər insanların həyat fəaliyyətinin formalaşmasına və ixtisaslaşmasına təsir göstərir. Hətta ekologiya, şəxsiyyətin cəmiyyətdə formalaşmasına, əhval-ruhiyyənin yaranmasına, dünyagörüşünə, dünyabaxışına, zövqün səviyyəsinə, insanın tərbiyəsinə, psixoloji durumuna, bir söznən, insanın həyat fəaliyyətinə birbaşa təsir edir. İnsanın bir-birinə olan qayğısının meyarı kimi, məhz təbiət çıxış edir. Elmdə olan bütün kəşflərin hamısının hərəkətverici qüvvəsi və mənbəyi simasında təbiət çıxış edir.

Fəlsəfə tarixinə nəzər yetirsək görərik ki, filosoflar təbiət anlayışına, özünəməxsus tərzdə münasibət bildirmişlər. Antik filosoflar insanı təbiətlə vəhdətdə təsəvvür edirdilər. Və ya aləmin və kosmosun bir hissəsi sayırdılar. Digərləri təbiəti insandan ayırır, və ya insanın idealı kimi qəbul edilirdi. Avropanın antiq fəlsəfəsinin tərənnüm etdiyi fəlsəfi məktəb olan Milet də təbiətin hər bir elementini dünyanın substansiyası və ya substratı kimi qəbul edilirdi. Buna görə də onları sadəlövh materializmin nümayəndələri hesab edirdilər. Efesli Heraklitin ərsiyə gətirdiyi “ Təbiət haqqında” əsərində təbiətdə mövcud olan hadisələrin, birbaşa insanın mövcud olmasıyla əlaqəsi, diqqətə çatdırılır. Təbiət hadisələri, təbiətdə olan elementlər “ Loqos”-la (yəni əql, qanun, söz) hərəkət nəticəsində münasibət yaradır, sonra bu münasibət ziddiyyətə çevrilir ki, nəticədə mübarizə baş verir. Məhz bu mübarizə sayəsində aləm mövcud olur. Eleya məktəbinin tanınmış nümayəndələrində təfəkkürün varlığa olan münasibəti və varlığın vəhdəti qeyd edilir. Empedokl təbiətin substansiyasının (yəni ilkin səbəbin) təbiətin dörd elementindən, yəni, hava, od, torpaq, su, olması fikrini sübuta yetirir. Ksenofonun deməyinə görə hər şeyin torpaqdan yaranması, hər şey son nəticədə torpağa qayıdması, bir daha bu məktəbin təbiətə olan münasibətini ifadə edir. Anaksaqorun yazdığı “ Təbiət haqqında ” əsərində bütün şeylərin əsasında şeylərin toxumu “ homeomeriya ” –nın olması nəticəsində harmoniya sisteminin mövcudluğu qeyd edilir. Sofistlər məktəbinin görkəmli nümayəndəsi Qorqi “ Təbiət haqqında ” əsərində üç şərtin olmasını aşağıdakı qaydada izah edir; heç bir şey mövcud deyil, əyər mövcuddursa dərk edilməzdir, əyər dərk edilirsə də onu izah və ifadə etmək olmur. Orta əsrlərdə təbiət, daha çox mütəfəkkirlər tərəfindən dini dünyagörüşə əsaslanan, Allahın yaratdığı amil kimi başa düşülürdü. Onların irəli sürdükləri fikirlərə görə insanla təbiətin fərqinin yalnız ruhdan ibarət olması (Qədim dövrdə hətta daşların, qayaların və bitkilərin də ruha malik olması fikirləri mövcud idi) imkan verir ki, yer üzərində yeganə Allah və peyğəmbərdən sonra ağıllı canlının insan olması diqqəti çəkir. Beləliklə demək olar ki, o dövrün bütün filosofları bir mənalı olaraq ruhla təbiət arasında mövcud ziddiyyəti araşdırmaqdan ibarət olmuşdur. Onlar arasında mübarizə gedir, təbii ki, bu mübarizədə təbiət yox ruh qalib gəlir. Təbiət şər qüvvəsi, ruh isə xeyir qüvvəsi sayılırdı. Bu fikirlər daha çox Qərb filosoflarının düşüncələrində öz əksini tapmışdır. Keçid dövrünün Şərq fəlsəfəsində isə daha çox Allahlar arasında gedən mübarizə kimi qələmə verilirdi. İntibah və yeni dövr filosoflarının dünyagörüşlərində, öz sələflərindən fərqli olaraq, təbiət bir fiziki hadisə olaraq mövcud olduğunu və demək olar ki, müxtəlif fəlsəfi cərəyan mövqeyindən, o dövr üçün xarakterik hesab edilən istiqamətdə çıxış etmişlər. Frensis Bekonun (“ idollar”-ında), yəni kabuslarında, təbiətdə olanın, insan şüuru üçün meyar olmasını, konkret misallarla sübuta yetirir. Mağara mühitindən çıxan insanın, mağarada qazandığı təfəkkür və düşüncə tərzini, yerini dəyişdiyi zaman əksər hallarda cəhd göstərərək, mühitə israrla tətbiq olunmasını müşahidə edirik. İnsan xarakterinin təbiətdə olan təbii mühitdə formalaşdığını və cəmiyyətə nümunə kimi sırıdığını, filosof bizim diqqətimizə çatdırmaq istəmişdir. Belə olan təqdirdə azad cəmiyyətdə, azad insan obrazının aktuallığı məsələsini elmə gətirmişdir. İctimai proseslər nəticəsində cəmiyyətdə baş verən dəyişikliklər fonunda Avropa elmində bir sıra yeniliklər , elmdən və romantizmdən də yan keçmədi. Belə tərzdə inkişaf edən cəmiyyətdə sonralar, belə qənaətə gəlindi ki, təbiətin insana bəlli olmayan tərəflərini öyrənib elmi şəkildə araşdırmaq vacibdir. Alman filosofu Hegel öz fəlsəfəsinin təbiət hissəsində qeyd edir ki, insan təbiətdə mövcud olmaq üçün öz mühitinin hərarətini dəyişməyə məcburdur. Bunun üçün o özünə süni mühit yaratmağa məhkumdur. Bununla o

demək istəmişdir ki, cəmiyyət inkişaf etdikcə insan özünə daha çox təbii olmayan mühit yaratmağa çalışır. Beləliklə insan təbiətdən uzaq düşdükcə, təbiət də ondan uzaqlaşır. Onun deməyinə görə əgər insan özünün ağası ola bilmirsə, təbiətin də ağası ola bilməz. Azərbaycan maarifçilərinin parlaq nümayəndəsi Həsən bəy Zərdabi " Torpaq, su və hava " əsərində insanı təbiətin bir hissəsi kimi qəbul edirdi. Onunla həmfikir olan maarifçi Mirzə Fətəli Axundov bütün kainatın bir vahid, eyni zamanda qadir, kamil və geniş varlıqdan ibarət olması fikrini irəli sürür.

Nəhayət XX-XXI-ci əsrlərdə elm və müasir texnologiyalar həddən artıq, çox böyük sürətlə inkişaf etməyə başladı ki, bu da öz növbəsində insanın, təbiətə olan münasibətini dəyişdirdi. Belə ki, təbii resurslardan səmərəli istifadə etmək üçün, elmin bir sıra nailiyətlərini istiqamətləndirirlər. Təbiətin istismarında ekologiyaya az zərər verən yeni texnologiyaların yaranmasına diqqət artırıldı. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, inkişafda olan və inkişafa qədəm qoyan ölkələrdə təbiətə olan qayğı və münasibət, inkişaf edən ölkələrlə bir çərçivəyə sığmır. Təbiətə olan münasibəti köklü olaraq dəyişmək, təbii resursların istismarına ehtiyatla yanaşmaq, təbiətlə insanın münasibətinə yenidən baxıb, fərqli tərzdə diqqət və təxirəsalınmaz tədbirlərin həyata keçməsini təmin etməyi nəzərdə tutur. Bunun nəticəsi olaraq ekologiya elminin inkişafını qeyd etmək olar. Bu elmin müxtəlif sahələrinin yaranması və bu sahələrdə yeni nailiyyətlərin, cəmiyyətə tətbiq edilməsidir. Təbii mühit anlayışı bu qəbildən olan istiqamətin tədqiq olmasıdır. Buna yaxın olan təbii şərait, coğrafi mühit, biosfer anlayışlarına fəlsəfi yanaşıb fərqləndirmək lazımdı. Təbii mühit, bir sözlə insan müdaxiləsi olmadığı və dəyişdirmədiyi təbiət başa düşülür. Təbii şərait cəmiyyəti əhatə edən təbiət başa düşülür. Atmosferin bir hissəsinə biosfer deyilir. Burada biosfer insan və cəmiyyətin, canlıların yaşamasını şərtləndirən sahədir. Biosfer bizi əhatə edən əlverişli mürəkkəb bir sistemdir. " Təbii mühit " cəmiyyətin inkişafının tarixi boyu, müxtəlif mərhələlərdə, cəmiyyətin mövcudluğunu təmin edən ətraf şərait başa düşülür. Əvvəlki dövrlərdən fərqli olaraq bu məfhuma bir az da geniş məzmun verilmişdi. İlk növbədə yeni texnologiyalar vasitəsi ilə insan və cəmiyyətin günəş sistemində, həmçinin elmə məlum olan digər sistemlərdə mövcud olan təbii şərait nəzərdə tutulur. Məlumdur ki, cəmiyyət təbii mühit, təbii şərait, coğrafi mühit, biosfer olmadan yaşaya bilməz. Biosfer canlı orqanizmlərin mövcudluğunu təmin etməklə bərabər, həm də onların həyat fəaliyyətini şərtləndirən amildir, əsasdır. Biosfer atmosferin müəyyən bir hissəsini təşkil etməklə bərabər, digər təbəqələrlə müqayisədə (hidrosfer, litosfer və s.) , mürəkkəb struktura malikdir. Bununla belə biosfer digər təbəqələr olmadan mövcud ola bilməz. Bizi əhatə edən aləmdə, hələ ki elmə məlum olan günəş sistemində təbii mühitin, cəmiyyət üçün ən əlverişlisi, hal-hazırda yaşadığımız Yer planetidir. Biosferdə gedən proseslər, bu proseslərin qanunauyğun xarakter daşıması, cəmiyyət üçün hələ uzun müddət tədqiqat obyekti olacaqdır. Elmlərin istənilən sahədə nəyəsə nail olması, cəmiyyət fəaliyyətini təmin etmək və dinamikliyin mövcud olmasını dərk edərək münasibətlərin tənzimlənməsinə sövq edir. Biosferə, cəmiyyətin intensiv müdaxiləsi, təbii mühitdə bəzi dəyişikliklərin baş verməsinə mahiyyət və keyfiyyət baxımından yanaşmanı aktual edir. Mövcud problemin həlli, təbii ki onu dərk etməkdən keçir. Bu istiqamətdə filosoflar həqiqətin meyarının insanın təbiətə münasibəti ilə ölçməsini qeyd edirlər. Bu ona dəlalət edir ki, təbiət, tam olaraq insan düşüncəsinin bir mövcudluq formasıdır. Biosfer insanın özünü həm bioloji, həm də sosial edir. Bu özü-özlüyündə dəqiq, nizamlı olan hərəkətdir, cəmiyyətlə təbiət münasibətini tənzimləyən, insan ağlına sığmayan bir mühitidir, qanunauyğunluqdur. Biosfer tərkibindəki elementlərin müəyyən xassə və xüsusiyyətlərinin bir-birini əvəz edərək tamamlanmasını, filosoflar orqanizmlərin həyat fəaliyyətinin harmoniyası kimi qələmə verirlər. Bu harmoniyaya hər bir elm, və ya həyat sahəsi öz tövhəsini verir. Məsələ ondadır ki, nəticədə insan öz həyatını təbiətin hesabına dəyişdirir, yaxşılaşdırır. Bu isə cəmiyyətin mövcud inkişafını stimullaşdırır. Əgər cəmiyyət, elm-texnoloji vasitələrlə təbiətin mövcudluğunu stimullaşdırırsa onda, bioloji olan mühitin daralmasının, azalmasının, qarşısının almasını müşahidə edərik.

Təbiət-cəmiyyət münasibətlərini müxtəlif istiqamətlərdə araşdırmaq olar. Bu münasibətlər çox şaxəlidir. Təbiət insan üçün öncə təbii şəraitdir. İnsan, təbiət üçün digər canlı orqanizmlər kimi onun bir hissəsidir. Digər canlılardan fərqli olaraq sosial varlıqdır. Deməli canlı və sosial varlıqdır. Sosial varlıq olaraq insan üçün təbiət, onun fəaliyyətinin məkan sahəsini təşkil edir. Burada birinci məsələ insanın bu məkanda mövcudluğunun əsası olmaqla yanaşı, fəaliyyətinin məzmunudur. Belə yanaşma daha genişdir. İkinci yanaşma isə fəaliyyətin konkret münasibətini xarakterizə edir. Burada insanın təbiətlə münasibəti idrakı səviyyədə baş verir. İnsan hər vəchlə təbiəti daha dərindən və yaxından tanımağa başlayır. Bu istiqamətdə öz fəaliyyətini tənzimləyir. Fəlsəfənin əsas mövzusu məhz təbiətdir və təbiətdə baş verən hadisələrdir. Təbiəti araşdırmağa çalışan insan həyatın bütün sahələrində irəliləyişə və elmin inkişafına nail olur. Bununla insan təbiət vasitəsilə bir tərəfdən dünyanı dərk etməyə, digər tərəfdən, həyatını mənalı etmək üçün addımlar atır. Beləliklə insan öz münasibətini qeyd olunan maraqlar üzərində qurur. Üçüncü yanaşmada insan, artıq həyatda atılan bütün addımların meyarı kimi təbiəti seçir. İnsanlar arasında, insanın təbiətə olan münasibətində mövqe qeyri-adi, fövqəltəbii və ya onlar üçün, təbii qanunauyğun xarakter daşıyır. İstənilən mövzuda təbiətin füsunkarlığı və əlçatmazlığı qeyd edilir və sübuta yetirmək üçün təşəbbüs göstərilir. Mənəviyyat zənginliyi üçün mənbə rolunu oynayır. Dördüncü yanaşmada, insan təbiət münasibətlərində, təbiətin əbədi olması əvvəllər qeyd edilsə də, artıq təbii mühiti, zaman keçdikcə tükənə biləcəyinə dair fikirlər formalaşmağa başlayır. Burada insandan təbiətlə münasibətdə, daha çox məsuliyyət və diqqət tələb edilir. Bu münasibət insanın təkcə bioloji varlıq olaraq mövcudluğunu deyil, həmçinin , mənəviyyat kasadlığını dəf etməkdən ötəri həyati məsələdir. Gələcəyə nikbin baxmaq üçün arxı-vacib bir məsələdir. Ənənəyə hörmət, gələcəyə zəmin yaratmaq zəruriyyətindən irəli gələn bir vacib məsələ və borcdur. Dünya dəyişir və bu dəyişikliyə uyğun olaraq insanların və cəmiyyətlərin münasibəti də, müasir dövrün tələblərinə uyğun olaraq təbiət-cəmiyyət münasibətlərdəki məsələyə, korrektə etməyi özündə əks etdirir.

Elmi ədəbiyyatın təhlili və cəmiyyət-təbiət münasibətlərinin

müasir vəziyyəti təbii mühitin mühafizənin əsas prinsiplərini yerinə yetirilməsini zəruri edir:

1. Regional xüsusiyyətlərin nəzərə alınması prinsipi. təbii resusrslardan istifadə zamanı regional qaydaların nəzərə alınmaması təbii ehtiyyatların azalmasına səbəb olur. Deməli, insan-təbiət münasibətlərində yerli şərait, müəyyən bö lgədə təbii ehtiyatların konkret ehtiyatı, daha dəqiq desək, regional xüsusiyyətləri diqqətdə olmalıdır.

2. Komplekslilik prinsipi. Məsələn, hidrosferin çirklənmədən mühafizəsii həmin hövzələrdə yaşayan müxtəlif canlıların da mühafizə edilməsi deməkdir. Meşələrin yaranması ilə hidroloji rejimin sabit saxlanması, eyni zamanda su eroziyasından torpağın qorunması və həmin torpaqlardan mineral duzların yuyulmasının qarşısının alınması deməkdir. Yaxud, bəzi meşə quşlarının və həşərat yeyən quşların mühafizəsi meşələrin ziyanvericilərdən müəyyən dərəcədə qorunması deməkdir.

3. İqtisadi maraqların ekoloji maraqlarla uzlaşdırılması prinsipi. Tropik arealda ekoloji zəncir haqda bilgilər, yırtıcı heyvanlarla onların qurbanları arasındakı dinamikanın qanunauyğunlu dərk edilməsi, təbii obyekti başqa bir təbii obyekt ilə mühafizə etmək ilə müəyyən tədbirlərin həyata keçirilməsinə şərait yaradır. Bir təbii obyektin mühafizəsi digər təbii obyektin təsərrüfat maraqları ilə ziddiyətə səbəb olur. Məs. Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin çəkilməsi bəzi insanların təsərrüfat maraqları ilə ziddiyətə səbəb olub. Bu zaman hər hansı bir təbii obyektin mühafizəsi digər obyektin təsərrüfat maraqları ilə uzlaşdırılmalı və bu cəmiyyət-təbiət münasibətləri əsas götürülməlidir. Cəmiyyət-təbiət münasibətlərinə mövzu və hadisələr arasındakı çoxcəhətli əlaqələri inkar edən sahə maraqları baxımından yanaşma, həm hüquqi, həm də mənəvi cəhətdən düzgün deyil. Cəmiyyət-təbiət münasibətləri təbii mühitdən istifadə və təbiəti mühafizə insanın iki əsas fəaliyyətini özündə etiva edir.

Cəmiyyət-təbiət münasibətlərinin ekoloji hüquqi statusunun formalaşması - təbiətdən istifadə və ətraf mühitin mühafizənsinə nail olmaqdan ibarətdir. Cəmiyyət-təbiət münasibətlərinin ekoloji-hüquqi statusunun formalaşmasında tələbat və adaptasiya əsas rol oynayır. Ətraf mühitlə əlaqə prosesində insanın əsas xüsusiyyətlərinin öyrənilməsində antropoloji və sosial-ekoloji tədqiqatlar əsas rol oynayır. Tədqiqatçılardan L. V. Maksimova insanın xarakterik xüsusiyyəti - tələbat və adaptasiya qabiliyyətinə baxmışdır. Tələbat - insanın fəaliyyəti və inkişafı zamanı zəruri olan hansısa ehtiyacları əhatə edir. İnsanın təbii mühitin vəziyyətindən asılılığını əks etdirən tələbat ehtiyaclan, ətraf mühitə münasibətdə insanın fəallığının mənbəyi, onun davranışının tənzimləyicisi olan təfəkkürünün hiss, iradəni əsas götürür. İnsanının ehtiyacı müxtəlif məsələlərdən asılı olaraq öz funksiyasına görə müxtəlif səviyyəyə bölünür. İnsan tələbatı –ehtiyacı özünəməxsus ierarxiya təşkil edir. Cəmiyyətin bioloji tələbatı zamanı canlıların bioloji tələbatı ilə oxşarlıq eynilik təşkil edir. Ətraf mühitə insanın adaptasiyasında onun irsiyyət və dəyişkənlik keyfiyyəti mühüm rol oynayır. İnsanın təbii mühitə adaptasiyasında, ətraf mühitin yaşayış üçün ekoloji cəhətdən, lazımi şərait mühüm rol oynayir. İnsanın ətraf təbii mühitə adaptasiyası əsasdır. Bəşər tarixində insanlar öz fəaliyyətləri ilə təbiətə göstərdikləri təsirin mənfi nəticələri ilə həmişə qarşılaşmalı olmuşlar. Lakin, onlar təbiətlə öz münasibətlərini nizamlamağın zəruri olduğunu başa düşənədək uzun bir tarixi yol keçmişlər. Daha doğrusu insan-təbiət münasibətlərinin ekoloji - hüquqi statusunun formalaşması və bu statusun insanlar tərəfindən dərk edilməsi, uzun bir tarixi dövrün məhsuludur.

ƏDƏBİYYAT

1. Ağayev T.D. Əhmədov Ş.Ə. Xəlilov T.A..Ekoloji təhlükəsizlik. Sumqayıt.2013

2. Abduləzimova A.F. Məktəbəqədər müəssisələrdə yaş dərəcələri üzrə aparılan tərbiyə işinin məzmunu, forma və metodları. Azerbaijan State Pedagogical University (ASPU) (İKT Mərkəzi)

3. Məmmədəliyeva S. Məmmədov N. Mədəniyyət. Ekologiya və təhsil.Bakı.1999.

4. Məmmədəliyeva S. Məmmədov N. Ekologiya və texnika. Bakı.1998.

5. Mustafayeva G.E.Davamlı ekoloji-iqtisadi inkişafın təbii resurs faktorunun azərbaycan modeli. Azerbaijan State University of Economics (UNEC) (Ətraf mühitin mühafizəsi və iqtisadiyyatı)

6. Əhmədova S.Z.Qlobal ekoloji problemlər və proqnozlaşdırma Ganja State University (GSU) (Deanery)

7. Xəlilov T. Zeynalova M. Qlobal Ekoloji problemlər. Bakı. 2014

8.Горелов А.А. Социальная екология. М.2008

9. Чередничко А.В. Возобновляемые источники энергии. Рудний 2004

10. Баранов Н.Н. Нетрадиционные источники и методы преоброзований енергии. М.2012 Издательство МГУ

11.Данило Маркович. Социальная екология. М.1997.

Açar sözlər: *coğrafi mühit, təbiət və cəmiyyət, insan faktoru və ekologiyanın fəlsəfi təhlili, ekologiyanın fəlsəfəsi.*

Философские аспекты взаимосвязи природы и общества.

РЕЗЮМЕ

Азад Джафаров

В данной статье предоставлен обобщённый анализ различных философских знаний. Научно-философские мысли в социальной экологии направлены на решение существующих проблем общества. Даётся философское разъяснение понятий биосферы, техносферы и ноосферы во взаимосвязи природы и общества. Исследуется существующее влияние новых технологий на отношения человек-общество, человек-природа, общество-природа в сфере философии экологии в современном мире. Объясняется человеческий фактор в естественной среде, а также роль географической среды в развитии общества.

Philosophical aspects of the relationship between nature and society.

SUMMARY

Azad Jafarov

This article is about overall analysis of various philosophical knowledge. Scientific philosophical thoughts in social ecology are directed at the solution of the existing problems of society. There is a philosophical explanation of the concepts of the biosphere, the techno sphere and the noosphere in the relationship between nature and society. In the modern world the existing influence of new technologies on the relations man-society, man-nature, society-nature in the sphere of ecology philosophy is investigated. The role of the human factor in the natural environment as well as the geographical environment in the development of society is explained.

Tarix

İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ ERMƏNİLƏRİN AZƏRBAYCAN TARİXİNİ TƏHRİF ETMƏK CƏHDLƏRİ

MAİS ƏMRAHOV
Tarix üzrə elmlər doktoru, professor

XALİDƏ İBRAHİMOVA

Tarixçilər təmsil etdikləri dövrün, sinfin, qrupun nümayəndələri olduğundan tarixi hadisələrə münasibət həmişə müxtəlif olub və olacaqdır. Bu baxımdan yazılan tarixdə tarixçinin mövzunu araşdırmağa başladığı zaman seçilmiş mövzu və kökləndiyi ideyalar, mühüm rol oynayır. Lakin elə mövzular vardır ki, onlar xalqı milli yaşam tərzi, dövlətçilik ənənələri ilə bir başa bağlı olduğundan baş vermiş hadisələrə biganə qalmaq mümkün deyildir. Belə tarixlərdən biri Azərbaycan xalqının şərəf tarixi olan 1941-1945-ci illər müharibəsində iştirakı tarixidir. Digər tərəfdən Ermənistan tərəfindən təcavüzə məruz qalmış, torpaqlarının 20 faizdən çoxu işğal olunmuş xalqımızın tarixi təcrübəsinin öyrənilməsi, səhvlərin aradan qaldırılmasına yönələn tədqiqatlara ehtiyac bu tarixin daha dərindən araşdırılması, dostların və düşmənlərin müəyyən edilməsi olduqca vacibdir.

Tarixi keçmişin öyrənilməsinə diqqətin artırılması.

Müharibənin başlanması ilə ideoloji iş sahəsində qarşıda duran vəzifələr də dəyişdi. SSRİ XKC və ÜİK(b) P MK-nın 29 iyun 1941-ci il tarixli Direktivində deyilirdi ki, "Bu hücumun məqsədi sovet quruluşunu məhv etmək, sovet torpaqlarını işğal etmək, Sovet İttifaqı xalqlarının birliyini parçalamaq və dağıtmaq, ölkəmizi qarət etməkdir. Faşist Almaniyası ilə cəlb olunduğumuz

müharibədə Sovet dövlətinin olum və ya ölüm məsələsi həll olunur".

Müharibə şəraitinə uyğun olaraq ictimai elmlər, ədəbiyyat və incəsənət, kütləvi informasiya vasitələri, bədii müəssisələr, mədəni-maarif ideoloji işin mərkəzlərinə çevrildilər. Müharibə başlanandan keçən 2 ay müddətində SSRİ EA Azərbaycan filialının humanitar elmlər institutlarının tematik planına yenidən baxıldı və ölkənin müdafiə problemlərinə dair mövzulara üstünlük verildi. Nizami adına Ədəbiyyat və Dil institutu ağır müharibə şəraitinə baxmayaraq iki cildlik "Azərbaycan ədəbiyyatı tarixi"ni, dörd cildlik rusca - azərbaycanca lüğət tərtib edib nəşr etdirdi, xalqımızın qəhrəman tarixi keçmişinə, işğalçılara qarşı mübarizəsinə dair populyar broşyuraların nəşri planlaşdırıldı.

Azərbaycan K(b)P MK-nın "Böyük Vətən müharibəsi cəbhələrində döyüşən Azərbaycan xalqının oğulları haqqında materialların toplanılması, saxlanılması və nəşr edilməsi haqqında" 1941-ci il 27 dekabr tarixli qərarına müvafiq olaraq cəbhələrdə qəhrəmanlıq göstərən Azərbaycan oğullarının igidliyinə dair əsərlər yazılmağa başlandı. 1944-cü il yanvarın 3-də Azərbaycan K(b)P MK-nın bürosu "Azərbaycan Böyük Vətən müharibəsində" adlı kitabın yazılıb çap edilməsi haqqında qərar qəbul etdi. Qərara görə kitabın 10-12 çap vərəqi həcmində 10 min nüsxə Azərbaycan dilində, 5 min nüsxə rus dilində nəşri nəzərdə tutulurdu.

Tarixçi alimlər Azərbaycan xalqının qəhrəmanlıq tarixinə və vətən-pərvərliyinə həsr edilmiş 100-dən çox elmi-kütləvi broşyuralar və məqalələr yazdılar. "Azərbaycan tarixi ən qədim dövrlərdən XIX əsrədək" kitabı çapa hazırlandı. "Azərbaycan tarixinin qısa oçerki“ rus və Azərbaycan dillərində nəşr olundu (2, v.21-28).“Azərbaycan xalq musiqisinin əsasları", "Azərbaycan arxitekturasının oçerkləri (Nizami əsri)" nəşrə təqdim edildi. (2, v.28)

Azərbaycan ziyalılarının, xüsusilə mədəniyyət işçlərinin uğurları məkrli qonşuları yeni təxribatlara əl atmağa məcbur etdi. 1941-ci ildə müharibə başlayanda ermənilər məkrli planlarını həyata keçirmək üçün fürsət yarandığını fikirləşərək "gələcək gün üçün" 1919-cu ildə daşnak hökumətinin başçısı olmuş Xatisyanı (5) tapıb Hitlerə təqdim etdilər. Azərbaycana qarşı erməni təxribatları antiazərbaycan məzmunlu əsərlərin yayılmasında özünü biruzə verdi.

Ermənilərin Azərbaycan tarixini təhrif etmək cəhdləri.

Məlumdur ki, 1941-ci ildə böyük Azərbaycan şair Nizami Gəncəvinin anadan olmasının 800 illiyi münasibətilə hazırlıqlar aparılmağa başlanmışdır. Hazırlıqlar çərçivəsində bir sıra əsərlərin nəşri nəzərdə tutulurdu. Belələrindən biri Marietta Şaginyanın "Nizami Gəncəvi" əsəridir. Əsərin əlyazması Azərbaycan K (b) P MK-a göndərilir və əlyazmaya Tarix İnstitutunun direktoru İsmayıl Hüseynov rəy hazırlayır. İsmayıl Hüseynovun 15 fevral 1941-ci il tarixli rəyindən məlum olur ki, M Şaginyan əsərində Nizami yaradıcılığını milli Azərbaycan təzahürü kimi deyil, Şərq, ümummüsəlman təzahürü kimi təqdim etmiş, ana dilinin milli xüsusiyyətləri, milli-psixoloji xarakter arxa plana keçirilmişdir (4). Əslində Nizaminin milli mənsubiyyətini tamamlanmamış verməklə M.Şaginyan Nizami Gəncəvini azərbaycanlı saymır. Bu fakt erməni xislətinin parlaq ifadəsi və Moskvanın Azərbaycana qarşı milli siyasətindəki nöqsanlardan biri hesab olunmalıdır. Çünki Moskvada Nizami Gəncəvinin Azərbaycan şairi olduğunu yaxşı bilirdilər və Bertels, M.Rəfili, H.Araslı bu barədə dəfələrlə yazmışlar.


İsmayıl Hüseynov
Tarix İnstitutunun direktoru

ARPİİSSA-də 1941-1945-ci illərdə SSRİ-nin milli siyasətində Azərbaycanın yerinə dair materiallar üzərində işləyərkən SSRİ EA üzrə bir sərəncam diqqətimi cəlb etdi. 1943-cü il 4 oktyabr tarixli 503 №li sərəncamda deyilirdi ki, SSRİ EA Azərbaycan filialının istehsalatdan ayrılmadan doktorantı Mosesov Petros Baqdasaroviç 01 oktyabr 1943-cü ildən 06 aprel 1944-cü il müddətinədək SSRİ EA Böyük Vətən Müharibəsi komissiyası üzrə əsas doktorantı keçirilir və ***"Azərbaycanda 1917-1920-ci illərdə vətəndaş müharibəsi"*** mövzusu üzrə doktorant P.B.Mosesova SSRİ EA müxbir üzvü İ.İ.Mints elmi məsləhətçi təsdiq edilir. Sərəncamı SSRİ EA-nın vitse prezidenti Baykov A.A və SSRİ EA akademik katibi N.Q. Bruyeviç (1,v.32) imzalamışlar.

Sərəncamla əlaqədar araşdırmalardan məlum oldu ki, SSRİ EA-nın müxbir üzvləri İ.İ.Mints və A. M.Pankratova Azərbaycan K(b)P MK katibi M.C.Bağırova 11 fevral 1944-cü il tarixli (№ 1517ob) məktub göndərərək bildirmişlər ki, SSRİ EA doktorantı P.B Mosesov tarix elmləri doktoru elmi dərəcəsi almaq üçün "Azərbaycanda vətəndaş müharibəsi (1917-1920-ci illər)" mövzusunda dissertasiyası üzərində işləyərkən Azərbaycanın dövlət arxivlərində və Mərkəzi arxivlərdə olan və əvvəllər dərc olunayan materialları tədiiqata cəlb etmiş, ümumilikdə ölkədə, həmçinin Qafqazda baş verən hadisələrin fonunda Azərbaycanda vətəndaş müharibəsi tarixini yazmışdır.

Məktubun sonunda dissertasiya işi haqqında fikir və mülahizələrin bildirilməsi xahiş olunur.

Vətəndaş müharibəsi Baş redaksiyası katibliyinin də M.C.Bağırova ünvanlanmış 11 fevral 1944-cü il tarixli 1517/OV № li məktubunda da Mosesovun monoqrafiyasının böyük elmi maraq və siyasi əhəmiyyət daşıdığı qeyd olunmaqla başa çatması bildirilirdi. (1,v.44)

Araşdırmalar göstərdi ki, Mosesovun doktorantura müddəti aprelin 1-də başa çatdığından dissertasiyanın müdafiəsi 1944-cü il martın ortalarına nəzərdə tutulmuşdur. SSRİ EA müxbir üzvləri İ.İ.Mints, A.M.Pankratova və tarix elmləri doktoru, professor İ.M. Rozqan rəsmi opponent təyin olunmuşlar. (1,v.30)

Doktorant P.B. Mosesovun "1917-1920-ci illərdə Azərbaycanda vətəndaş müharibəsi" mövzusunda doktorluq dissertasiyasına SSRİ EA müxbir üzvü İ.İ.Mints (1,v.42) və professor Pankratovanın rəylərində bildirilir ki, Mosesovun işi həcminə görə sanballı və yerinə yetirilməsinə görə ciddi monoqrafiyadır, müəllif Azərbaycanın siyasi tarixinin ən mühüm dövrlərindən birini açmağa nail olmuşdur. Professor İ.Rozqan da rəyində əsəri xeyli tərifləyir və Pankratovadan fərqli olaraq işdə 1917-ci ildə Qafqaz cəbhəsinin rolunun zəif işləndiyini qeyd edir. Rəydə, həmçinin Bakıdakı əsgər və zabit deputatları sovetlərinin fəaliyyəti haqında çox az qeydlər olduğu, neft sənayesinin vəziyyəti və

neftçilərin sahibkarlarla mübarizəsi, Bakı neft müəssisələrinə fəhlə nəzarətinin elementlərinin göstərmədiyi qeyd olunur.

Rozqanın fikrincə, Azərbaycan zəhmətkeşlərinin mübarizəsinin geniş mənzərəsi yaradılmamışdır. Nəhayət, rəyçi fəsillərin yerləşdirilməsi haqqında məsləhətlər verir. Təbii ki, Rozqan da öz həmkarları kimi göstərilən nöqsanların işin əhəmiyyətini azaltmadığını bildirir və işin həcminin 20 çap vərəqinədək azaldılmasını məqsədəuyğun hesab edir. (1,v.49-51)

Göndərilən rəyləri və Mərkəzi Komitəyə ünvanlanmış məktubu bir kənara qoyaraq Mosesovun dissertasiyasının mündəricatına nəzər salaq. P.B.Mosesovun dissertasiyası 14 fəsildən ibarətdir. Birinci fəsil Azərbaycanın Birinci dünya müharibəsi və Rusiyada 1917-ci il Fevral-burjua demokratik inqilabı dövrünə həsr edilmişdir.

İkinci və üçüncü fəsillər Azərbaycanda Böyük Oktyabr Sosialist inqilabına hazırlıq və keçirilməsi, Bakıda sovet hakimiyyətinin elan olunması və Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizəyə həsr olunub.

4 və 5-ci fəsillərdə Bakıda sovet hakimiyyətinin qələbəsi, Bakı kommunasının yaranması və XKS təşkili, Bakı XKS-nin fəaliyyəti, Zaqafqaziya xalq-larının və Bakı proletariatının almantürk işğalçılarına qarşı mübarizəsinə kütlələrin təşkili, 6-çı fəsildə Bakıda sovet hakimiyətinin müvəqqəti yıxılması və 26 Bakı komissarlarının məhvi, 7-12-ci fəsillərdə Müsavatın hökmranlığı dövrü və Azərbaycan zəhmətkeşlərinin bolşeviklərin rəhbərliyi altında müsavatçılara və xarici müdaxiləçilərə qarşı mübarizəsi araşdırılmışdır.

Dissertasiyada Muğanda sovet hakimiyyətinə (8-ci fəsil), fəhlə konfransının (9-cu fəsil), Azərbaycan bolşeviklərinin gizli işinə və xalqın sılahlı üsyana hazırlığına (10-cu fəsil) ayrıca fəsillər həsr edilmişdir.

Dissertasiyanın son iki fəslində-13-cü və 14-cü fəsillərdə 1920-ci il aprelin 28-də Azərbaycanda Böyük Oktyabr sosialist inqilabının qələbəsindən və sovet hakimyyətinin ilk addımlarından bəhs olunur. Dissertasiyanın sonunda Bakıda və Azərbaycanda 1917-1920-ci illərində baş verən mühüm hadisələrinin xronologiyası verilmişdir. (1,v.35-36)

Dissertasiayanın mahiyyətini anlamaq üçün arxiv materiallarına müraciət etdim. Qeyd edim ki, ARPİİSSA-də P.B.Mosesovun "Azərbaycanda vətəndaş müharibəsi (1917-1920-ci illər)" mövzusunda doktorluq dissertasiysı (dissertasiya 593 makina səhifəsi həcmindədir), S.Şaumyan adına Partiya Tarixi

İnstitutunun elmi hissə üzrə müavini Petrosyan, tarix elmləri namizədləri İsmayıl Hüseyenov və Zülfəli İbrahimovun yazdığı 5 aprel 1944-cü il tarixli rəy saxlanılır. (1,v.8-29)

Mosesovun dissertasiyası ilə tanışlıqdan aydın oldu ki, Mints, Pankratova və Rozqanın rəyləri işin məzmununa uyğun deyil və onun haqqında düzgün olmayan təsəvvür yaradılmasına cəhd göstərilmişdir. Mosesovun işi nəinki Azərbaycanda 1917-1920-ci illər vətəndaş müharibəsi dövrü haqqında dərin elmi tədqiqatdır, əksinə işdə Azərbaycan xalqının sovet hakimiyyəti uğrunda mübarizəsinin həqiqi tarixi təhrif olunmuşdur. (1,v.5)

Müəllif əsasən dövrü mətbuatdakı, Bakının və Moskvanın arxivlərində saxlanılan bəzi sənədlərdəki faktlari tədqiqata cəlb etsə də (1,v.8), qəzet mate-rialları elmi cəhətdən təhlil edilməyib, əsər qəzet materiallarından ibarət hadisələr xronika xarakteri daşıyan kataloq təsirini bağışlayır. Müəllif Azərbaycanın XX əsr tarixini, o cümlədən 1917-1920-ci illər tarixini zəif bildiyindən materialları başdansovdu müəyyənləşdirmişdir. İşdə proletariatın, burjuaziyanın və mülkədarların siyasi orqanlarının yaranması, funksiyası və ləğvi dolaşıq salınmış, məsələlər bir-biri ilə qarışdırılmış (1,v.8-9), bilərəkdən işdə düşmən ideyalarının (ən böyük düşmən daşnaklardır-X.İ.) təbliğinə yol verilmişdir. (1,v.9)

Mosesovun işində azərbaycanlı fəhlə və kəndlilər digər millətlərdən olan fəhlə və kəndlilərlərlə müqayisədə geridə qalmış formada təqdim olunur və bu fikir dissertasiayda qırmızı xətlə keçir. İşdə erməni burjuaziyası və onların "Daşnaksütyun" partiyasında əksinqilabı rolu məqsədyönlü şəkildə kiçildilir. (1,v.10)

Təhlil göstərir ki, Mosesov Azərbaycanın zəhmətkeş kəndlilərinin hakim sinfə və xarici imperialistlərə qarşı bəhs olunan dövrdə mübarizəsini, vətəndaş müharibəsinin öz istismarçılarına və xarici müdaxiləçilərə qarşı azadlıq mübarizəsi olduğunu başa düşməmşdir. (1,v.11)

Müəllifin eyni xislətli dindaşı Androniki "yaxşı tanımasına" baxmayaraq sovet hakimiyyəti tərəfdarı kimi göstərməsi ermənilinin "zirvəsi" hesab oluna bilər. (1,v.18)

Mosesovun daşnaqlara sətiraltı haqq qazandırması da təəccüb doğurmur. Bizə elə gəlir ki, Mosesov "Daşnaksütyun" partiyasının roluna "erməni kimi" qiymət vermişdir. (1,v.19)

Mosesov **Zaqafqaziyada milli münaqişələrin kökünü, azərbaycanlı-erməni münasibətlərini düzgün işıqlandırmamışdır. Müəllif Zaqafqaziya xalq kütlələrini boğan və xarici imperialst kökənli olan burjua-millətlçi əks-inqilabi partiyaların, xüsusilə "Daşnaksütyun" partiyasının, Bakının qəhrəman müdafiəsi günlərində Avetisovun və digər daşnak başçılarının satqınlığını "unutmuş", 1918-ci ildə ingilislərin Bakıya dəvəti məsələsi haqqında "Daşnaksütyun" partiyasının rolu müəmmalı qalmışdır.**

Dissertasiyada Azərbaycan fəhlə və kəndlilərinin müdaxiləçilərə qarşı silahlı mübarizəsindən sükutla keçilib (1,v.6), ***məşhur daşnak qulduru Andronik sovet hakimiyyətinin tərəfdarı kimi verilmişdir.*** (1,v.6-7)

Dissertasiyada Azərbaycan xalqının XX əsr tarixi ciddi təhrif olunub, Azərbaycan xalqının inqilabi hərəkatda roluna və yerinə yalançı baxış formalaşdırılıb. "Azərbaycan fəhlə və kəndliləri Bakı mədən fəhlələridir və əsas hissəsini azərbaycanlılar təşkil edir"

kimi ifadələrin rəyçilər tərəfindən yüksək qiymətləndirilməsi milli siyasətdə əyintilərin təzahürü hesab olunmalıdır.

Xalqımızın qəhrəmanlıq tarixini təhrif edən əsərlərdən birinin müəllifi Partiya Tarixi İnstitutunun işçisi T.İ. Ter-Qriqoryandır. 1942-ci ilin əvvəllərində Partiya tarixi institutunun işçisi T.İ.Ter-Qriqoryanın nəşr etdirdiyi "IX əsrdə Artsaxın ərəb işğalçıları ilə mübarizəsi" kitabçasında Babəki satqın-lıqla ələ verən Səhl ibn Sumbat müsbət qəhrəman kimi qələmə verilmişdir. Kitabçada Zaqafqaziya xalqlarının birgə mübarizəsi inkar edilir. Azərbaycan K(b) P MK bu kitabçaya sərt reaksiya vermiş və kitabçanı Zaqafqaziya xalqlarının tarixinə dair məsələlərin öyrənilməsində zərərli hesab etmişdir. (3, s.174)

Göründüyü kimi, Azərbaycan xalqı üç cəbhədə vuruşurdu. Birinci cəhbə döyüş bölgəsi idi. Azərbaycan oğulları ön cəbhədə faşistlərə qarşı mərdliklə döyüşür, əsil qəhrəmanlıq nümunələri nümayiş edirirdilər. **İkinci cəbhə** arxa cəbhə idi. İnsanlar gecə-gündüz işləyərək cəbhəni silah-surat və ərzaqla təmin etmək üçün əmək nümunələri göstərirdilər. Üçüncü cəbhə daha ağır və məsuliyyətli idi. Ziyalılarımız Mərkəzin antiazərbaycan milli siyasətindən yararlanan erməni təxribatlarına qarşı mübarizə aparmalı olurdu. Ermənilər isə bütün sahələrdə xalqımıza ziyan vurmağa, milli birliyi pozmağa cəhd edir, antiazərbaycan ruhlu əsərlərlə cəmiyyəti parçalamağa, sosial partlayışa çan atırdılar.

Türklərə, azərbaycanlılara qarşı düşmənçlik hissi bəsləyən ermənilər tarixən çox yaltaq və ikiüzlü olub, özlərinə mövqe qazanmaq, məkrli planlarını həyata keçirmək üçün üzdə özlərini dost kimi göstərmiş, imkan düşən kimi xəyanət etmişlər. Acınacaqlı orasıdır ki, ermənilər belə məsələlərdə ruslardan istifadə etmiş, planlarını həmizə Mərkəzin əli ilə həyata keçirməyə can atmışlar.

ƏDƏBİYYAT

1. ARPİİSSA,f.1, siy.29, sax.vah.197
2. AR MDA, f.411, siy.8, iş 214
3. Əmrahov M.İ. Azərbaycan mədəniyyəti İkinci dünya müharibəsi illərində Bakı,
2004
4. ."Nəbz" qəzeti, 2001, 19 oktyabr-2 noyabr
5.http://wikipedia/orq|wiki

Açar sözlər: *Müharibə, faşizm, ermənilər, Azərbacan tarixi, caxtakarlıq*

Ключевые слова: *война, фашизм, армяне, История Азербайджана, фальсификация*

Key words: *War, faschism, armenians, history of Azerbaijan, falsification*

Попытки искажения армянами истории Азербайджана в годы Второй мировой войны

РЕЗЮМЕ

В статье краткое внимание уделено деятельности армянских лидеров А. Хатисяна, Д. Канаяна и Гарегина Нжде накануне Второй мировой воны и на основе фактов, а также архивной документации разоблачены попытки армянских авторов М. Шагиняна, П. Мосесова и тер - Григоряна по поводу фальсификации истории Азербайджана, а также якобы дружеская позиция, но предательство, проявленная армянами ради осуществления коварства армянами, которые всегда питали вражду против тюрков, и в том числе против азербайджанцев.

Efforts of armenians to distort the history of Azerbaijan in the Second World War years

SUMMARY

Activities of armenian leaders А.Khатисйан, Д.Канайан and Эараэин Нжден in the eve of Second World War have briefly been considered and showing by armenians, nourishing the sense of hostility against Turks and as well as Azerbaijanians, as a friend in the face and betraying in the first opportunity and efforts of armenian authors M.Shaэинйан, З.Мосесов and Тер- Gpиgойан to falsify of the history of Azerbaijan have been exposed on the basis of facts and archive documents in this article.

İqtisadiyyat

KAMAL İBRAHİMOV
İqtisad üzrə fəlsəfə doktoru

BÖHRAN ŞƏRAİTİNDƏ SIĞORTA ŞİRKƏTLƏRİNİN MALİYYƏ SABİTLİYİNİN TƏMİN EDİLMƏSİ STRATEGİYASI

Son on il ərzində dünya iqtisadi proseslərində baş verən transformasiyalar, xüsusilə 2008-ci ilin sonlarından başlayan maliyyə böhranı ilə bağlı neqativ tendesniyalar, maliyyə çətinlikləri, şübhəsiz dünya sığorta bazarına da əhəmiyyətli təsir göstərmişdir. Bir çox dünya sığorta şirkətləri ciddi çətinliklərlə üzləşmiş, bunlar isə öz növbəsində böhran şəraitində yeni və yaxud daha çox təkmilləşdirilmiş sığorta fəaliyyəti mexanizmlərinin hazırlanması və tətbiqi proseslərinin bir zərurət kimi ortaya çıxarmışdır. Bu proseslərdə xüsusi önəm kəsb edən və strateji əhəmiyyət daşıyan məsələlərdən biri kimi böhran şəraitində sığorta şirkətlərində maliyyə sabitliyinin təmin edilməsi üzrə strategiyanın hazırlanması və reallaşdırılması problemləri daha çox diqqət çəkmişdir. Məsələ burasındadır ki, strateji yanaşma olmadan spesifik xüsusiyyətlərə malik sığorta kompaniyalarının uğurlu fəaliyətini uzunmüddətli dövr üçün proqnozlaşdırmaq və təşkil etmək o qədər də asan məsələ deyildir. Strateji yanaşmaların və strateji mexanizmlərin mövcudluğu şəraitində sığorta şirkətlərinin fəaliyyətinin modelləşdirilməsi, böhran şəraitində onların maliyyə sabitliyinin təmin edilməsi imkanları daha çox mümkünləşir. Başqa sözlə, starteji yanaşmalar və kompleks şəkildə baxılaraq hazırlanmış mexanizmlər sığorta kompaniyasının sığorta bazarında rəqabət qabiliyyətliliyini təmin etməyə imkan verir və sığorta xidmətlərinin keyfiyyətini yüksəltməyə, strukturunu təkmilləşdirməyə, əsasən sığorta portfelinin diversifikasiyalaşdırılmasına imkanlar yaradır. Sığorta şirkətinin ən mühüm vəzifələrindən biri maliyyə sabitliyinin təmin edilməsi üçün özününü maliyyə resurslarının formalaşdırılması və onun mənbələrinin diversifikasiyalaşdırılmasını təmin edilməsidir [1]. Digər tərəfdən, böhran elementlərinin genişləndiyi bir şəritdə sığorta şirkətinin maliyyə sabitliyinin mövcud mexanizmlərinin və praktiki alətlərinin dayanıqlılığının təmin edilməsi tədbirlərinin

gecikdirilmədən həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, sığorta xidmətləri bazar münasibətlərinin genişləndirilməsinə və işgüzar fəallığının yüksəlməsinə, həmçinin investisiya mühitinin yaxşılaşdırılmasına xidmət edir. Bu baxımdan, sığorta şirkətinin maliyyə sabitliyinin olması vacib şərtlərdən biri kimi çıxış edir və müştərilər arasında inamın yüksək səviyyədə saxlanmasınma imkan verir. Sığorta şirkətinin maliyyə sabitliyinin təmin edilməsi üçün onun sabit şəkildə gəlirlilik səviyyəsi olmalı və reallaşdırılmalıdır. Gəlirlik səviyyəsinin sabitliyi isə ığorta şirkətinin investisiya cəlbedicilyinin artırılması üçün əsas şərtlərdən biri hesab olunur [2]. Sığorta şirkəti öz fəaliyyətində əldə etdiyi gəlir səviyyəsinin sabitliyini qorumaqla bərabər, sığorta haqlarının yeni mənəblərini müəyyənləşdirməli, müştəri dairəsini genişləndirməli, uzunmüddətli sığorta müqavilələrinin sayının artırılmasına nail olmalı, sığorta tariflərinin işləkliyinə və cəlbediciliyinə xüsusi inam verilməlidir. Sığorta təşkilatı sığorta bazarında özünün rəqabət qabiliyyətliliyini təmin edən biləcək meyarlar və prinsiplərə məsuliyyətlə yanaşmalı, öz öhdəliklərini vaxtında yerinə yetirməlidir [3]. Bundan əlavə, sığorta şirkətləri özlərinin xidmət səviyyəsinin yüksəldilməsi, maliyyə dayanıqlılığının təmin edilməsi məqsədilə praktiki fəaliyət prinsiplərinə daha ciddi və kompleks şəkildə yanaşmalı, tətbiq olunan metodların və alətlərin optimallığına səy göstərməlidirlər. Digər tərəfdən, sığorta şirkətinin rəqabət qabiliyyətləliliyinin gücləndirilməsi və maliyyə sabitliyinin təmin edilməsi strategiyasının formalaşdırılması üçün, şirkətin maddi-texniki bazasının yenilənməsi, fəaliyyət potensialının artırılması və sığorta portfelinin diversifikasiyalaşdırılması vacib məsələlər kimi diqqət çəkir. Belə olduğu təqdirdə, şirkətin maliyyə sabitliyi strategiyası praktiki tətbiq proseslərində özünü daha çox doğrulda bilər [4, s.52]. Eyni zamanda, kompaniyasının maliyyə dayanıqlılığının təmin edilməsi üçün bir sıra məsələlərə xüsusi önəm verilməlidir. İlk növbədə, ölkədə dövlət orqanları ilə sığorta bazarı iştirakçıları arasında əməkdaşlıq münasibətlərinin yüksəldilməsi və sığorta bazarında sağlam rəqabət mühitinin formalaşdırılması təmin edilməlidir. Sığorta şirkətləri özlərinin müştəri dairəsi ilə əlaqələrini və münasibətlərini uzunmüddətli dövrü əhatə edən strateji yanaşmalar səviyyəsinə qaldırmalıdır. Belə olduğu təqdirdə sığorta şirkətinin maliyyə sabitliyinin təmin edilməsi imkanları daha da artar [5]. Digər tərəfdən, ölkədə ümumi maliyyə bazarı komponentləri sırasında sığorta xidmətlərinin rolunun vacibliyi nəzərə alınmaqla, sığorta şirkətlərinin analoji bazarlarda maliyə sabitliyinin qiymətləndirilməsi aparılmalı və bunun üçün göstəricilər sistemi hazırlanmalıdır. Sığorta şirkətlərinin maliyyə sabitliyinin təmin edilməsi göstəriciləri obyektiv reallığı əks etdirməlidir [6].

Məlumdur ki, sığorta fəaliyyəti ilə bağlı proseslərdə risklər heç də az deyildir və onların sistemli şəkildə baxılması, minimuma endirilməsi məsələsi kifayət qədər aktualdır. Maliyyə bazarı iştirakçıları, ümumilikdə milli iqtisadiyyatın istənilən sahəsində fəaliyyət göstərən işgüzar dairənin subyektləri öz fəaliyyətlərini gözlənilməz hadisələrdən, həmçinin təbii fəlakətlərdən və fövqəladə hallardan qorumaqda kifayət qədər maraqlıdırlar. Buna görə də, sığorta bazarının fəallaşdırılması və onun əsas mexanizmlərinin təkmilləşdirilməsi vacib əhəmiyyət kəsb edir. Sığorta şirkəti özünün məcmu aktivi ilə qəbul etdiyi sığorta öhdəlikləri arasındakı münasibətlərin adekvatlığına, bununla bağlı normativlərin mütləq şəkildə qorunmasına ciddi fikir verməlidir. Belə ki, debutor və kreditor borcları arasındakı münasibətlər ciddi təhlil olunmalı, sığorta ehtiyatları ilə bağlı məsələlər daim strateji planda baxılmalıdır. Bütün bunlar sığorta şirkətinin maliyyə sabitliyinin təmin edilməsi üçün vacib şərtlər kimi diqqət mərkəzində saxlanılmalıdır [7]. Strateji yanaşmalar sırasında hər bir maliyyə komponentinin yeri və əhəmiyyəti təhlil olunmalı və obyektiv reallıqlar nəzərə alınmaqla qiymətləndirilməlidir. Şirkətin gəlirlərinin daimi və etibarlı mənbələrinin formalaşdırılması, bununla bərabər çəkilən xərclərin optimallaşdırılması üçün əlavə tədbirlərin görülməsi təmin edilməlidir. Maliyyə vəsaitlərinin istifadəsi və onların hərəkətinin daxili tənzimləmə mexanizmləri üzrə nəzarət rıçaqları olmalıdır. Sığorta şirkətinin menecer heyətinin peşəkarlığı və bacarıq səviyyəsi də diqqət mərkəzində saxlanılmalıdır. Ümumilikdə sığorta şirkətinin maliyyə strategiyası ilə bağlı məsələlər çoxplanlı və çoxfunskiyaları vəzifələri özündə birləşdirməlidir [8]. Maliyyə resurslarının hərəkəti, istifadəsi, maliyyə ehtiyatlarının formalaşdırlması, maliyyə mənbələrinin diversifikasiyalaşdırılması və s. bu kimi amillər üzrə işlək fəaliyyət mexanizmləri hazırlanmalı vəı fəal şəkildə reallaşdırılmalıdır. Maliyyə sabitliyinin güclənməsinə imkan verən alternativ maliyyə resursları mənbələrinin formalaşdırılması da diqqət mərkəzində saxlanılmalıdır. Maliyyə vəziyyətinin daimi olaraq təhlil edilməsi, bu istiqamətdə planlaşdırma işlərinin aparılması, proqnozların hazırlanması, uçot və nəzarət mexanizmlərinin dürüst şəkildə həyata keçirilməsi vacib şərtlərdəndir. Strateji planda mühüm məsələlərdən biri də sığorta şirkətinin əsas aktivlərinin və passivlərinin optimallaşdırılması və əldə olunan gəlirin maksimum səmərəli bölüşdürülməsidir. Maliyyə strategiyası ümumilikdə şirkətin əsas strateji fəaliyyət prinsiplərinə və istiqamətlərinə əhəmiyyətli səviyyədə təsir göstərmək imkanına malikdir. Buna görə də, maliyyə planlaşdırılması zamanı sığorta şirkətinin mühüm göstəriciləri və onun inkişafı ilə bağlı əsas fəaliyyət istiqamətləri üzrə strateji məsələlər, prioritet vəzifələr uyğunlaşdırılmalı və tarazlaşdırılmalıdır. Maliyyə strategiyasının optimallığının yüksəldilməsində maliyyə marketinqi mexanizminin səmərəliliyinin təmin edilməsi də mühüm əhəmiyyət kəsb edir. Bunun üçün sığorta şirkətinin strateji hədəfləri və missiyaları, fəaliyyət prinsipləri, inkişaf prioritetləri birlikdə təhlil olunaraq baxılmalı, sığorta bazarında rəqiblərin və ümumilikdə bazar iştirakçılarının davranışları, fəaliyyəti kompleks təhlil olunmalı, təklif olunan sığorta xidmətlərinin rəqabət qabiliyyətlilik səviyyəsi qiymətləndirilməli, sığorta bazarının konyunkturası və müxtəlif bazar seqmentləri əhatəli şəkildə araşdırılmalı, öyrənilməli və adekvat tədbirlər görülməlidir [9;10;11]. Sığorta bazarında mövcud vəziyyətin təhlili və uzunmüddətli dövr üçün bazarın inkişaf tendensiyaları kompleks şəkildə baxılaraq, sığota şirkətinin strateji fəaliyyət proqramı və bazar strategiyası müəyyənləşdirilməlidir. Yaxşı olardı ki, sığorta şirkətinin ən azından yaxın 5 il üçün strateji maliyyə sabitliyi və maliyyə fəaliyyəti planları müəyyənləşdirilsin və proqnozlar hazırlansın. Bunun üçün sığorta şirkətinin maliyyə-statsitik təhlil göstəriciləri sistemi formalaşdırılmalı və analitik informasiya bazası yaradılmalıdır. Maliyyə sabitliyi üzrə mühüm göstəricilərin təhlili və proqnozlaşdırılması meyarları və prinsipləri müəyyənləşdirilməlidir. Ümumilikdə, sığorta şirkətinin maliyyə sabitliyinin təmin edilməsinə imkan verə biləcək göstəricilər sisteminin təşkili və onların əsas meyarlarının hazırlanması maliyyə strategiyasının daha uğurlu şəkildə reallaşdırılmasına imkan verərdi. Sığorta şirkətinin maliyyə sabitliyinin təmin edilməsinə ciddi təsir göstərən daxili və xarici amillərin təsir dairəsinin öyrənilməsi və qiymətləndirilməsi də vacib şərtlərdəndir. Əvvəldə qeyd etdiymiz kimi, ən mühüm məsələlərdən biri də sığorta portfelinin fəaliyyətinin optimallaşdırılması və bununla bağlı kompleks tədbirlərin

görülməsidir.

Sığorta portfelinin səmərəliliyinin yüksəldilməsi üçün ilk növbədə bu portfelin əsas komponentlərinin balanslaşdırılması və onun investisiya cəlbediciliyinin yüksəldilməsinin təmin edilməsidir. Sığorta portfeli ümumilikdə sığorta şirkətinin öhdəliklərinin tam şəkildə yerinə yetirilməsinə, həmçinin proqnozlaşdırılan gəlir səviyyəsinin çıxılmasına və bunlarla bərabər, sığorta ehtiyatlarının formalaşdırılmasına, nəticədə maliyyə sabitliyi üçün əsaslı zəmin yaradılmasına imkan verməlidir [12]. Qeyd olunan strateji vəzifələrin və yanaşmaların kompleks və sistemli şəkildə reallaşdırılması üçün dəqiq nəzarət sisteminin təmin edilməsi vacib amil hesab olunur. Bunun üçün bir çox vasitələrdən, o cümlədən reytinq qiymətləndirilməsindən, yaxud monitorinq metodundan istifadə oluna bilər. Bütün hallarda nəzarət funksiyaları aydın və səmərəli olmalı, sığorta şirkətinin ümumi fəaliyyətinin ahəngdarlığını təmin etməli, yol veilmiş nöqsanları üzə çıxarmalı, risklərin müəyyənləşdirilməsinə imkan verməli və adekvat tədbirlər görülməsi üçün zəruri informasiyaların əldə edilməsi təmin edilməlidir. Məşhur "Standart & Poor's" kompaniyasının metodikası əsasında sığorta şirkətinin maliyyə sabitliyi reytinqinin müəyyənləşdirilməsi dünya praktikasında daha çox istifadə olunur. Burada iki mühüm diapazon, yəni mütləq şəkildə zəif maliyyə dayanıqlılığı (CC), yaxud mütləq şəkildə yüksək maliyyə dayanıqlılığı diapazonları (AAA) müəyyənləşdirilir və bütün bunlar qruplaşdırılmış formada 9 aspekt üzrə reytinq təhlili metodologiyası əsasında aparılır. Bunlara sığorta şirkətinin likvidliyi, kapitallaşma səviyyəsi, ölkə sığorta bazarı üzrə risklər, rəqabət qabiliyyətliliyi, menecment və korporativ strategiyasının səviyyəsi, əməliyyat göstəriciləri, investisiya fəaliyyəti, maliyyə səviyyəsi və risk-menecment korporativ sistemi aiddirlər [13]. Ümumilikdə götürdükd, şübhəsiz bu amillərin hər biri vacibdir və onlar üzrə reytinqlərin müəyyənləşdirilməsi sığorta şirkətinin fəaliyyətinin gücləndirilməsinə əlavə stimul verə bilər. Bununla belə, hesab edirik ki, hər bir sığorta şirkəti ümumi qiymətləndirmə və reytinq yanaşmalarından istifadə etməklə özünün qiymətləndirmə sistemini və mexanizmini formalaşdırmalı, şirkətin spesifik fəaliyyəti ilə bağlı məsələləri nəzərə almalıdır. Praktiki fəaliyyət prinsiplərindən yanaşdıqda, sığorta şirkəti iqtisadi-maliyyə amilləri ilə bağlı konyunkturanı əsas götürməklə özünün təsərrüfat və investisiya fəaliyyəti üzrə strategiyasının fəaliyyət istiqamətləri üzrə müəyyənləşdirməlidir. Sığorta şirkəti strateji maliyyə mexanizmlərinin hazırlanması və maliyyə sabitliyinin təmin edilməsi üzrə ümumi strategiyanın formalaşdırılması üçün sığorta bazarında mövcud tendensiyaları, sığorta xidmətlərinin çeşidi və strukturu ilə bağlı məsələləri, sığorta bazarında tələb və təklif arasında proporsional asılılıq səviyyəsi, bazar iştirakçıları ilə bağlı zəruri informasiyaları təhlil edərək strateji qərarlar verməli və əsaslandırılmış tədbirlər həyata keçirilməlidir. Sığorta bazarının spesifik xüsusiyyətləri ilə bağlı olaraq, sığorta şirkətinin maliyyə sabitliyinin gücləndirilməsi səviyyəsi qiymətləndirilməli və reallaşdırılmalıdır [14]. Sığorta şirkətində gözlənilən risklər və arzuolunmaz hallar üzrə xəbərdarlıq edilməsi sistemi və mexanizmi yaradılmalıdır. Şirkətin fəaliyyətinə mənfi təsir göstərə biləcək hər bir amil və elementin mənfi fəsadlarının vaxtında müəyyənləşdirilməsi və aradan qaldırlması tədbirlərinin görülməsi təmin edilməlidir. Məsələn, iqtisadi qeyri-sabitlik şəraitində sığorta xidmətlərinin strukturunun yenilənməsi və bu xidmətlərinin dinamikliyinin, çevikliyinin təmin olunması vacib şərtlərdəndir. Belə ki, qeyri-sabit iqtisadi proseslər şəraitidə sığorta xidmətləri vətəndaşların və sahibkarlıq fəaliyyəti subyektlərinin maraqlarının qorunması, onların iqtsadi təhlükəsizliyinin və sabit fəaliyyəinin təmin edilməsi üçün rolu böyükdür. Bu baxımdan, sığorta xidmətləri qeyd olunan subyektlər üçün əlçatan və səmərəli olmalıdır. Müştərilər arasında sığorta şirkətinə və sığorta xidmətlərinə inam yüksək səviyyədə olmalı və onların maraqlarının qorunması prinsipləri mütləq şəkildə nəzərə alınmalıdır. Belə olduğu təqdirdə sığorta şirkəti ilə müştərilər arasında qarşılıqlı əlaqələrin əhatəsi və xidmətlərin həcmi artır, bununla da sığorta şirkətinin daha məhsuldar yeni maliyyə mənbələri formalaşır, maliyyə sabitliyinin təminatı üçün potensial güclənir və ümumilikdə sığorta şirkətinin maliyyə sabitliyi təmin edilmiş olur. Digər mühüm bir amil isə sığorta şirkətinin müasir texnologiyalar əsasında fəaliyyətinin modernləşdirilməsi, elektron xidmətlərin çeşidinin genişləndirilməsi və sığorta xidmətlərinin əlçatanlığının təmin olunmasıdır.

Qeyd edək ki, böhran şəraitində sığorta şirkətlərinin maliyyə sabitliyinin təmin edilməsində idarəetmə personalının, yəni ali menecment heyətinin rolu kifayət qədər böyükdür. Yüksək peşəkarlığa malik menecment heyətinin fəaliyyətindən və çevikliyindən

sığorta şirkətinin strateji fəaliyyət istiqamətlərinin daha səmərəli planlaşdırılması və idarə edilməsi təmin olunur [15]. Vaxtında verilmiş strateji idarəetmə qərarları yüksək səmərə verməklə bərabər, sığorta şirkətinin strateji hədəflərinin yerinə yetirilməsi istiqamətində zəruri tədbirlərin görülməsi üçün əhəmiyyətli zəmin kimi çıxış edir və sığorta şirkətinin kollektivinin fəaliyətini tənzimləyir, stimullaşdırır, səfərbər edir. Bundan əlavə, menecment heyətinin çevik fəaliyyəti nəticəsində daha səmərəli və məhsuldar sığorta mexanizmlərinin reallaşdırılması, sığorta portfelinin səmərəliliyinin təmin edilməsi, son nəticədə maliyə sabitliyinin gücləndirilməsinə əlavə imkanlar yaradır. Bu baxımdan, sığorta şirkətinin maliyyə menecmentinin rolu və əhəmiyyəti, ilk növbədə şirkətin maliyyə sabitliyi strategiyasının hansı səviyyədə reallaşdırılması ilə qiymətləndirilir [16]. Hər bir sığorta şirkətinin maliyyə strategiyasının əsasında bir sıra mühüm funksiyalar, əsasən stimullaşdırıcı, nəzarətedici, adaptivlilik və antiböhran xarakterli fəaliyyət istiqamətləri, funksiyaları dayanır. Praktiki fəaliyyət proseslərinə nəzər salsaq görmək olar ki, bir qrup postsovet respublikalarında fəaliyyət göstərən sığorta şirkətlərinin əsas missiyaları və strateji fəaliyyət istiqamətləri, o cümlədən strateji maliyyə yanaşmaları ilk növbədə ölkə vətəndaşlarının və sahibkarlıq-biznes subyektlərinin maraqlarının qorunması, sığorta xidmətləri vasitəsi ilə onların sosial-iqtisadi fəallığının gücləndirilməsi, əmlak maraqlarının müdafiə edilməsi məqsədi ilə sığorta şirkətinin sabit fəaliyyətinin yüksək texnologiyalar əsasında və müasir yanaşmalarla təmin edilməsi, şirkətin investisiya cəlbedicildiyinin yüksəldilməsi, sığorta portfelinin diversifikasiyalaşdırılması, sığorta xidmətlərinin peşəkar səviyyədə yerinə yetirilməsi və şirkətin maliyyə sabitliyinin təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi üzrə strateji yanaşmalar daha çox diqqət çəkir [17;18;19].

Şəkil 1-də böhran şəraitində sığorta şirkətlərinin maliyyə sabitliyinin təmin edilməsi strategiyasının əsas prinsiplərinin və meyarlarının blok-sxemi verilmişdir.

Şəkil 1. Böhran şəraitində sığorta şirkətlərinin maliyyə sabitliyinin təmin edilməsi strategiyasının əsas prinsiplərinin və meyarlarının blok-sxemi (müəllif tərəfindən hazırlanmışdır).



Şəkil 1-ə diqqətlə nəzər salsaq görmək olar ki, böhran şəraitində sığorta şirkətlərinin maliyyə sabitliyinin təmin edilməsi strategiyasının prinsipləri və meyarları sırasında -ölkədə sığorta fəaliyyəti üzrə qanunvericilik bazasının və sığorta bazarının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, sığorta bazarının investisiya cəlbediciliyinin artırılması, sığorta bazarı iştirakçıları arasında sağlam rəqabət mühitinin təmin edilməsi və sığorta portfelinin səmərəliliyinin yüksəldilməsi üçün strateji yanaşmaların kompleks və sistemli şəkildə həyata keçirilməsi daha çox diqqət çəkirlər.

Qeyd edək ki, ölkədə maliyyə xidmətlərinin inkişf etdirilməsi istiqamətində son illərdə önəmli addımlar atılmaqdadır. Uzun müddətdir ki, Azərbaycanda sığortanın inkişaf konsepsiyasının hazırlanması və sığorta strategiyasının tətbiq edilməsi ilə bağlı proseslər gedir [20;21]. Ayrı-ayrı milli sığorta şirkətləri öz fəaliyyətlərində strateji yanaşmaların gücləndirilməsinə, o cümlədən maliyyə sabitliyinin təmin edilməsi üçün maliyyə strategiyasının etibarlı mexanizmlərinin hazırlanmasına daha çox diqqət yetirməkdədirlər. Məsələn, Paşa Həyat sığorta şirkətinin strateji yanaşmalarında daha çox mühüm məsələlər kimi ölkə əhalisi və müəssisələrlə əməkdaşlığın gücləndirilməsi, şirkətin işçilərinin bilik və peşəkərliq səviyyəsinin artırılması, maliyyə sabitliyinin gücləndirilməsi xüsusi diqqət mərkəzindədir [22]. Bundan əlavə, ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsində qeyd edilmişdir ki, sığorta bazarının genişlənməsi əhalinin sığorta təminatı almayan hissəsinin sığorta məhsulları ilə əhatə olunması, maliyyə xidmətlərinə çıxışın artırılması və iqtisadiyyatın şaxələndirilməsinin dəstəklənməsi məqsədi ilə yeni sığorta məhsullarının yaradılmasına ehtiyac vardır [23, s.23]. Bütün bunlar yaxın perspektivdə ölkəmizin sığorta şirkətlərinin maliyyə sabitliyinin gücləndirilməsini tələb edir və bu baxımdan maliyyə sabitliyinin təmin edilməsi strategiyasının vacibliyini şərtləndirir.

Beləliklə, milli sığorta şirkətlərinin maliyyə sabitliyinin təmin edilməsi strategiyasının hazırlanması və daha geniş formada tətbiqi üçüb tələb olunan mühüm tədbirlər kimi, yaxın illərdə ölkəmizdə sığorta fəaliyyətinin dünya təcrübəsinə adekvatlığının təmin edilməsi, sığorta şirkətlərinin dünya sığorta bazarına çıxışının daha çox stimullaşdırılması, sığorta xidmətlərinin strukturunun genişləndirilməsi və sığorta şirkətlərinin öz maliyyə resurslarının mənbələrinin diversifikasiyalaşdırılmasına xüsusi önəmin verilməsi tədbirləri həyata keçirilməlidir və s.

ƏDƏBİYYAT:

1. Аземша Е.А. Стратегия финансовой устойчивости в страховых организациях // Научное сообщество студентов XXI столетия. Экономические Науки: сб. ст. по мат. XX междунар. студ. науч.-практ. конф. № 5(20). URL: http://sibac.info/archive/economy/5(20).pdf. (дата обращения: 04.07.2018).

2. Наминова К.А. Условия обеспечения финансовой устойчивости страховых организаций. https://cyberleninka.ru/article/n/usloviya-obespecheniya-finansovoy-ustoychivosti-strahovyh-organizatsiy.

3. Верезубова Т.А. Финансовая стратегия развития страховой организации. http://bseu.by.

4. Куликов С.В. Обеспечение финансовой устойчивости страховой организации: методы и инструментарий. Дисс. канд.

экон. наук. Новосибирск, 2003.- 176 с.

5. Исаева Ш.М. Условия обеспечения финансовой устойчивости страховых организаций. https://www.science-education.ru/pdf/2015/2-3/196.pdf.

6. Понятие и показатели оценки финансовой устойчивости страховой организации. http://finbook.news/strahovanie-book/ponyatie-pokazateli-openki-finansovoy.html.

7. Особенности управления финансовой устойчивостью страховых организаций. http://www.insur-info.ru.

8. Основы формирования финансовой стратегии страховой компании. https://bizbook.online/finance/osnovyi-formirovaniya-finansovoy-strategii.html.

9. Колесникова Т. В. Взаимосвязь финансовой устойчивости и конкурентоспособности страховой организации / Т. В. Колесникова // Известия Иркутской государственной экономической академии (Байкальский государственный университет экономики и права). — 2015. — Т. 6, № 3.

10. Колесникова Т. В. Обеспечение финансовой устойчивости и конкурентоспособности страховой организации с использованием инструментов страхового маркетинга: дис. канд. экон. наук: 08.00.10 / Т. В. Колесникова. - Иркутск, 2011. - 281 с.

11. Удинцова Е.С. Роль финансовой стратегии в обеспечении конкурентоспособности страховых компаний. https://moluch.ru.

12. Иманова М. Г. Теоретические аспекты поддержания финансовой устойчивости страховых организаций // Научно-методический электронный журнал «Концепт». – 2016. – Т. 15. – С. 711–715.

13. Гринева Татьяна. Анализ финансовой устойчивости страховой компании. http://www.ininfo.ru/mag/2007/2007-01(02)/2007-01(02)-006.html.

14. Луконин С.В. Методы оценки и повышения финансовой устойчивости страховых компаний: Дис. канд. экон. наук: 08.00.13, 08.00.10: Москва, 2003.- 171 с.

15. Журавлев П. В. Основы страхового менеджмента / П. В. Журавлев, В. В. Владимиров, С. А. Банников. - М. : Экономика, 2007. - 404 с.

16. Никулина Н. Н. Финансовый менеджмент страховой организации : учеб. пособие / Н. Н. Никулина, С. В. Березина. - М. : Юнити-Дана, 2008. - 480 с.

17. Миссия и стратегия. РНПК. https://www.rnrc.ru.

18. Стратегия компании. Страховая компания. «Проминстрах». https://prominstrah/ru.

19. Стратегия развития АО «Страховая компания Кафолат» на 2016 - 2022 годы г. Ташкент. Утверждено решением годового общего собрания акционеров АО «Страховая компания Кафолат» От «28» июня 2016 года (протокол №1).-23 с. http://www.kafolat.uz.

20. Azərbaycanda 2020-ci ilədək sığortanın inkişafı konsepsiyası hazırlanır. https://az.trend.az.

21. 2020-ci ilədək Azərbaycanda sığorta strategiyası tətbiq olunacaq. http://banco.az.

22. "Paşa Həyat" sığorta şirkətinin yeni strategiyası təsdiqlənib. http://apa.az.

23. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016.- 59 s.

Açar sözlər: *sığorta şirkətləri, böhran şəraitində sığorta şirkətlərinin maliyyə sabitliyi, sığorta şirkətlərinin maliyyə sabitliyi strategiyası, qlobal çağırışlara adekvat sığorta şirkətlərinin maliyyə strategiyası, sığorta şirkətlərinin maliyyə strategiyasının əsas prinsipləri.*

Ключевые слова: *страховые компании, финансовая стабильность страховых компаний в условиях кризиса, стратегия финансовой устойчивости страховых компаний, финансовая стратегия страховых компаний в контексте глобальных вызовов, основные принципы финансовой стратегии страховых компаний.*

Key words: *insurance companies, the financial stability of insurance companies in crisis conditions, the strategy of financial stability of insurance companies, the financial strategy of insurance companies in the context of global challenges, the basic principles of the financial strategy of insurance companies.*

РЕЗЮМЕ

СТРАТЕГИЯ ОБЕСПЕЧЕНИЯ ФИНАНСОВОЙ СТАБИЛЬНОСТИ СТРАХОВЫХ КОМПАНИЙ В УСЛОВИЯХ КРИЗИСА

В статье исследованы проблемы формирования и реализации стратегии обеспечения финансовой стабильности страховых компаний в условиях кризиса. С этой целью анализированы основные механизмы и принципы по формированию и обеспечению финансовой стабильности в страховых компаниях. Обоснована важность обеспечения стратегических подходов и принципов в деятельности страховых компаний по выполнения своих страховых обязательств. Подготовлена блок-схема основных принципов и критерий стратегии обеспечения финансовой стабильности страховых компаний в условиях кризиса. Отмечены приоритетность диверсификации портфеля страхований по усилению финансовой стабильности и конкурентоспособности страховых компаний. Подготовлены рекомендации и даны предложении по обеспечению стратегии обеспечения финансовой стабильности страховых компаний в условиях кризиса.

SUMMARY

STRATEGY FOR SECURING THE FINANCIAL STABILITY OF INSURANCE COMPANIES IN CRISIS CONDITIONS

The problems of formation and implementation of a strategy for ensuring the financial stability of insurance companies in a crisis are explored in the article. The main mechanisms and principles for forming and ensuring financial stability in insurance companies are analyzed with this purpose. The importance of ensuring strategic approaches and principles in the activity of insurance companies in fulfilling their insurance obligations is substantiated. A block diagram of the main principles and criteria of the strategy for ensuring the financial stability of insurance companies under crisis conditions is prepared. Priority of the diversification of the insurance portfolio in terms of strengthening financial stability and competitiveness of insurance companies is noted. Recommendations and proposals to provide a strategy for ensuring the financial stability of insurance companies in a crisis are prepared.

Media

YENİ İNFORMASİYA DÖVRÜNDƏ ƏNƏNƏVİ MƏTBUAT VƏ YENİ MEDİA: PERSPEKTİV HANSI SAHƏDƏ OLACAQ?

VÜQAR RƏHİMZADƏ
Siyasi elmlər üzrə fəlsəfə doktoru,
BSU-nun professoru

Qlobal transformasiya və inteqrasiya proseslərinin cərəyan etdiyi müasir dünyada sivilizasiyanın inkişafının yeni mərhələsi ilə qarşılaşmaqdayıq. Sənaye cəmiyyətinin dəyişməsi üçün zəmin formalaşdırmış yeni ictimai-iqtisadi formasiyanın determinantları və indikatorları üzrə çıxır ki, o, "informasiya cəmiyyəti" adlandırılır. Artıq bu günün də reallığı olan postindustrial cəmiyyət konsepsiyasının əsas resursunu da informasiya təşkil edir. Hələ XX əsrdə "informasiya" anlayışı bir çox elmi sahələrdə inkişafın əsas faktoru kimi xüsusi əhəmiyyət kəsb etməyə başlamışdı. Postindustrial cəmiyyət konsepsiyasının banilərindən sayılan D.Bell informasiya dedikdə iqtisadiyyatda və sosiumda axtarılan, emal edilən və qorunan, yayılan aprior resursu nəzərdə tuturdu.[1]

İnformasiya - kommunikasiya texnologiyalarının sürətlə inkişaf etməsi, ondan iqtisadiyyatda və cəmiyyətin həyatında daha geniş istifadə edilməsi həqiqi mənada sosiumun yeni inkişaf konsepsiyasının meydana çıxdığını əminliklə deməyə əsas yaradır. Bu da birmənalı olaraq "informasiya cəmiyyətidir".

Piter Draker "Postkapitalist cəmiyyəti" kitabında yazır ki, cəmiyyət kapital, torpaq və fiziki əmək üzərində qurulmuş cəmiyyətin daha üstün forması olan "informasiya cəmiyyəti"nə daxil olur. O təsdiqləyir ki, cəmiyyətin bu tipi ümumi iqtisadiyyatın vəziyyətinə, biznesin idarəedilməsinə, təhsilin roluna güclü təsir edir və bütün sistemin fasiləsiz işləməsini şərtləndirir. Bu cəmiyyətdə insan həyatının bütün konstruksiyası dəyişir, dəyərlər sistemini fərqli rakursda inkişaf etdirir. Sənaye cəmiyyətindən fərqli olaraq "informasiya cəmiyyətində" maddi məhsulların istehsalı və istehlakı deyil, burada intellekt, bilik istehsal olunur və istehlak edilir. [2]

Yeni ictimai-iqtisadi formasiya daxilində dövlət idarəçiliyindən tutmuş iqtisadiyyat, sosial həyat, elm və təhsil, hüquq mühafizə sistemi, bütövlükdə insan həyatının bütün sahələri informasiya-kommunikasiya texnologiyaları əsasında realizə edilir. Yəni, ana tezis ondan ibarətdir ki, "informasiya cəmiyyətində" sosium informasiya istehsal edən İKT vasitəsilə idarə olunur. "E-hökumət" layihəsinin də meydana gəlməsi birbaşa olaraq bu tip cəmiyyətin tələbindən irəli gəlir.

İnformasiya cəmiyyəti – bu, cəmiyyətin hərtərəfli informasiyalaşdırılmasını xarakterizə edən sivilizasiyanın postindustrial inkişaf mərhələsində formalaşır və postsənaye

dövrünü əvəzləyir. Bu cəmiyyətdə informasiyanın strateji resurs kimi rolu kütləni və ictimai şüuru manipulyasiya edən elektron kütləvi informasiya vasitələrinin inkişafı ilə yüksəlir. "İnsan intellektinin imkanlarını dəfələrlə artıran yeni sənaye inqilabı" dövründə kommunikasiya - informasiya texnologiyaları əsas qüvvəyə çevrilirlər. Bu gün bütün aparıcı ölkələr informasiya texnologiyalarından milli maraqlar naminə istifadə etməklə, qlobal informasiya cəmiyyətinə daxil olmaq üçün dövlət proqramları hazırlayır və həyata keçirirlər. [4]

İnformasiya cəmiyyətində İKT-nin inkişafı və geniş tətbiqi, informasiya texnologiyalarının cəmiyyətin bütün həyat sferalarını əhatə etməsi ictimai istehsalatda, sosial qrupların fəaliyyətində, fərdlərin tərbiyə edilməsində, həmçinin sosiumun sosial strukturunda iqtisadi və siyasi əlaqələrin inkişafında mühüm rol oynayır. Bununla da insan cəmiyyətin siyasi, iqtisadi, dövlət, təhsil, ictimai həyatında aktivlik nümayiş etdirə bilir. İnformasiya cəmiyyətində sosiumun iki sinfə bölünməsi industrial cəmiyyətdən daha tez baş verir. Burada biliklərin (informasiyanın) daşıyıcısı olan intellektuallar və informasiya iqtisadiyyatına daxil olmayanlar sinfi ortaya çıxır. [5] İnformasiya cəmiyyətində insanların həyat şəraiti, sosial qrupların dəyərlər sistemi dəyişir, beləliklə də maddiliyə münasibətdə informasiya dəyərlərinin əhəmiyyəti yüksəlir. Bu mənada E.Toffler qeyd edib ki, informasiya cəmiyyətinin bərqərar olması sosiumda, istehsal sahəsində özü ilə birgə məcburən gətirəcəyi sosial yeniliklər ruhunda radikal dəyişikliklər baş verəcək. [3]

İnformasiya cəmiyyətinin xarakterik xüsusiyyətləri kimi informasiya böhranının aradan qalxmasını, informasiya axını və informasiya "qıtlığı" arasındakı ziddiyyətin həll olunmasını, informasiya - kommunikasiya texnologiyalarından istifadənin kütləvi hal alması, sosial və iqtisadi fəaliyyətin yeni formalarının yaranmasını, İKT vasitəsilə hər bir insanın bütün sivilizasiyaların informasiya resurslarına sərbəst çıxışının reallaşmasını göstərmək olar.

İnformasiyanın, ölkədə və dünyada baş verən hadisələrin cəmiyyətə çatdırılmasında kütləvi informasiya vasitələrinin (KİV) rolu danılmazdır. KİV mürəkkəb proseslərdə müşahidəçi və iştirakçı rolunu oynamaqla informasiyanın cəmiyyətə çatdırılmasını təmin edir. Elə KİV-in funksiyaları – məlumatlandırmaq, maarifləndirmək, əyləndirmək onların cəmiyyətin inkişafındakı rolunu sübut etməyə yetərlidir. Cəmiyyətin informasiya ilə təmin olunmasında isə KİV özünəməxsus şəkildə sözünü deyir. Müasir dövrdə KİV dedikdə radio, televiziya, ənənəvi mətbuat (qəzet, jurnal) və İnternet nəzərdə tutulur. KİV-lər ictimai həyatı əks etdirir və İKT insanlar, dövlət orqanları və ümumilikdə, cəmiyyətin ünsiyyət qurması üçün bir vasitəyə çevrilir. Cəmiyyətin "güzgüsü" kimi, KİV eyni zamanda, demokratiya, siyasi proseslər, identiklik məsələsi, həmçinin ictimaiyyət və mədəniyyət problemlərində vacib faktor rolunu oynayır. Müasir dünyada KİV daha çox təbliğat və maarifləndirmə vasitəsi olmaqla, ictimai-siyasi və sosial-iqtisadi proseslərin idarə edilməsində də əhəmiyyətli yer tutur. Xüsusilə də bu sahədə xüsusi aktuallığını qoruyub saxlayan ənənəvi media vasitələri – qəzet, jurnal və s. ictimai fikrin formalaşdırılması və idarə edilməsində öz sözünü deyir.

Amerikalı sosioloq E.Tofflerin informasiya cəmiyyətinin bərqərar olması ilə KİV-lə əlaqədar ortaya qoyduğu futuroloji fikirlər müəyyən mənada bu gün özünü doğrultmur. Toffler iddia edirdi ki, yeni cəmiyyətdə KİV-lər kütləvisizləşmə prosesi ilə üzləşəcək. O, qeyd edir ki, yeni nəsil media və İKT vasitələrinin yaranması ilə xüsusilə də ənənəvi mətbuat oxucu auditoriyasını itirməklə, əvvəlki rolundan məhrum olacaq. [3]

Lakin bu gün qloballaşma və transformasiya proseslərinin sürətlə getməsi və milli dövlətlərin ümumi sosio-mədəni identiklik prosesinə dirənməsi ənənəvi media vasitələrinin rolunun əvvəlki səviyyədə qalmasına əsas yaradır. Doğrudur, qəzet və jurnalların tirajlanmasında zəifləmə prosesi müşahidə olunsa da, onların ictimai fikrə təsiretmə gücü daha da yüksəlib.

Radio, televiziya, sonda isə İnternet yarandıqdan sonra ənənəvi media digər KİV-lə rəqabətdə uduzmamaq üçün yeniliklərdən istifadə etməyə başladı. Belə ki, qəzet hadisə baş verəndən çox sonra bu barədə oxucuya informasiya verə bilir. Ona görə qəzetdə çalışan müxbirlər radioya məxsus olan canlı ünsiyyəti təmin etmək üçün reportaj janrından istifadəyə başladılar. Qəzetdə reportaj yazan jurnalist çox vaxt felin indiki zaman forması ilə danışaraq oxucunu hadisələrin iştirakçısına çevirməyə çalışdı. Jurnalistlər nə qədər maraqlı, operativ analitik yazılar yaza bilsələr, yeni janrlar, formalar tapa bilsələr, oxucunu bu vasitələrlə nə qədər çox cəlb etsələr çap mediası o qədər də uzunömürlü olacaq.

Televiziya ilə rəqabətdə isə qəzetlər KİV-in bir sıra məhdudiyyətlərindən istifadə edərək uğur qazana bilərlər. Birincisi, televiziya yalnız kadrlar göstərə bildiyi hadisələrlə işləyir. O, vizual

təsvirlərlə təchiz olunmamış materialla işləyə bilməz. Qəzetlərdə isə bəzən şəkil belə vermədən hər hansı hadisə haqqında informativ və ya analitik yazı vermək mümkündür. İkincisi, televiziyanın yarım saatlıq xəbər buraxılışını mətnə köçürsək bu qəzetin bir səhifəsini tuta bilər. Qəzet isə informasiyanı geniş və əhatəli şəkildə oxucuya çatdırmaq imkanına malikdir.

İnternetlə rəqabətdə isə mətbuat heç də ondan geri qalmır. İnternetin imkanlarından istifadə edən bir çox qəzetlər özlərinin İnternet variantlarını da yaradıblar. Beləliklə də, əldə etdikləri məlumatları daha geniş auditoriyaya və daha operativ təqdim etmək imkanı əldə ediblər. Eyni zamanda, internet portalları yalnız xəbər yaydığı və baş verən hadisənin əsl mahiyyətini açıb göstərə bilmədiyi üçün yenidən analitik yük qəzetlərin üzərinə düşür.

Qəzet mediasına meyil ənənəsi cəmiyyətdə hələ də davam edir və özünəməxsus keyfiyyətlərinə görə çap mediası elektron mediaya uduzursa, bunun əksi olaraq, elektron media da bəzi xüsusiyyətlərinə görə çap mediasından geri qalır. Arxivləşdirmə və intellektual keyfiyyətlərinə görə də çap mediası yeni nəsil mətbuatdan daha etibarlıdır. Yəni, qəzetdə araşdırmaya, maraqlı publisist yazılarına yer ayrılırsa, xəbər özünəməxsus formada işlənib ictimaiyyətə çatdırılırsa, geniş ictimai müzakirələrə yer verilirsə, çap mediasının vaxtının keçməsi barədə danışmaq hələ tezdir. Elektron mediadakı rəqabət qəzetlə deyil, xəbərin operativ çatdırılmasına görə xəbər saytları arasında kimin qabağa düşməsi uğrunda gedən rəqabətdir. Bəzən elə olur ki, saytlarda yazılan xəbər operativ olsa da, birmənalı şəkildə "şok" effektə hesablanır, balans pozulur, qərəzli alınır.

Göründüyü kimi, informasiya cəmiyyətində medianın rolu danılmazdır və sosium inkişaf etdikcə KİV-in əhəmiyyəti, ictimai-siyasi proseslərə təsiri və ictimai fikrin formalaşdırılmasında əhəmiyyəti getdikcə artır. Müasir İKT vasitələrinin meydana gəlməsi ilə yeni nəsil mətbuat vasitələrinin yaranması da yeni cəmiyyətin əsas indikatoru olan informasiyanın istehsalı, emalı və ötürülməsi işində KİV-lərin, xüsusilə də ənənəvi medianın rolunu nəinki azaltmayacaq, əksinə, bu proses keyfiyyətcə yeni yüksəliş dövrü yaşayacaq.

ƏDƏBİYYAT

1. Белл Д. Наступление постиндустриального общества. Опыт социального прогноза. Москва, «Экзамен», 1973, стр. 118.

2. Дракер П. Посткапиталистическое общество. Новая постиндустриальная волна на Западе. Антология . под ред. В.Л.Иноземцева. Москва, «Academia», 1999. стр. 168

3. Тоффлер Э. Шок будущего. Москва, «АСТ», 2001. стр. 560

4. Масуда Е. Информационное общество как постиндустриальное общество. Москва, "ЭКСМО ПРЕСС", 2003. стр. 448

5. Кастельс М. Информационная эпоха. Экономика, общество и культура, Москва, ГУ ВШЭ, 2000. стр.608

Açar sözlər: *İnformasiya, informasiya cəmiyyəti, kommunikasiya, qlobal transformasiya, sivilizasiya, sənaye cəmiyyəti, postindustrial cəmiyyət*

Ключевые слова: *Информация, информационное общество, коммуникация, глобальная трансформация, цивилизация, индустриальное общество, постиндустриальное общество.*

Keywords: *information, information society,communication, global transformation, civilization, industrial society, postindustrial society*

Рагимзаде Вугар Гянджали оглы,
Доктор философии по политическим наукам,
профессор БСУ

Традиционные медиа и новые медиа в течение нового информационного периода: в какой области будет перспектива?

РЕЗЮМЕ

Быстрое развитие информационных и коммуникационных технологий (ИКТ) и более широкое их использование в экономике и в жизни общества в реальном смысле позволяют с уверенностью утверждать проявление новой концепции развития социума. Это однозначно «информационное общество».

В новых социально-экономических рамках все аспекты экономики, социальной жизни, науки и образования, правоохранительной деятельности и, в целом, всех аспектов человеческой жизни реализуются на основе информационных и коммуникационных технологий. Это значит что основной тезис заключается в том, что в «информационном обществе» социальность контролируется ИКТ, которая производит информацию. Появление проекта «Электронное правительство» напрямую связано от требования общества.

Rahimzadeh Vugar Ganjali
PhD in political sciences,
professor of Baku Slavic University

Traditional press and new media during the new information period:
In which field will the perspective be?

SUMMARY

The rapid development of information and communication technologies (ICT), and its wide use in the economy and in the life of society makes it possible to say with certainty that a new concept of development of the socium has emerged. This is unambiguously "information society".

Within the framework of the new socio-economic formation, from the state administration to the economy, social life, science and education, law enforcement, entirely all areas of human life are realized on the basis of information and communication technologies. So, the main thesis is that in the "information society" the socium is controlled by ICT, which produces information. The emergence of the "E-government" project is directly related to the demand of this type of society.

İqtisadiyyat

DÖVLƏTİN İNNOVASİYA SİYASƏTİ VƏ İNNNOVASİYA PROSESLƏRİNİN FORMALAŞMASINA STRATEJİ YANAŞMALAR

LALƏ MAHMUDOVA
İqtisad üzrə fəlsəfə doktoru

Qlobal iqtisadi çağırışlar şəraitində ölkə iqtisadiyyatının inkişafının sürətləndirilməsi və qlobal iqtisadi təhdidlərə qarşı güclü immunitet nümayiş etdirmək iqtidarında olan iqtisadi mexanizmlərin formalaşdırılması vacib şərtlərdəndir. Dünya ölkələrinin əksəriyyətində bu məqsədlə əsas etibarı ilə iqtisadi proseslərin innovasiyalaşdırılmasına və bununla əlaqədar olaraq dövlətin innovasiya siyasətinin əhəmiyyətli səviyyədə təkmilləşdirilməsinə geniş yer verirlər. Bu heç də asan məsələ deyildir və hazırda iqtisadi cəhətdən inkişaf etmiş ölkələr belə bir səviyyəyə çatmaq üçün uzun bir dövr keçmişlər, eyni zamanda iqtisadiyyat sahələrinin innovasiyalaşdırılması, mövcud mexanizmlərin yenilənməsi, yüksək texnologiyalar əsaslı iqtisadiyyat sahələrinin formalaşdırılması külli məbləğdə və davamlı şəkildə investisiyaların yatırılmasını şərtləndirir. Amma bütün hallarda, ölkə iqtisadiyyatının dinamik və davamlı inkişafının təmin olunması xeyli dərəcədə dövlətin investisiya siyasətindən asılıdır.

Dövlətin investisiya siyasəti ölkənin davamlı iqtisadi artımına, yeni iş yerlərinin yaradılmasına, sənaye və kənd təsərrüfatında yeni texnologiyalar əsasında dərin struktur dəyişikliklərinin əldə edilməsinə, bir sözlə, milli iqtisadiyyatın möhkəm dayaqlar üzərində formalaşması və inkişafına yönəldilməlidir [1, s. 14]. Əvvəldə qeyd etdiyimiz kimi müasir şəraitdə dünyanın bir çox ölkələrində elmi-texniki fəaliyyətin davamlı idarəetmə mexanizmləri formalaşmışdır. Bu mexanizmlər elm və istehsalın inteqrasiya prosesinin xüsusiyyətlərini, tədqiqat və işləmələrin bazar tələbatlarına daha çox yönəlməsini, bazar amillərinin təşkilatların strateji mövqelərinin müəyyən edilməsinə təsirinin güclənməsini əks etdirir. Yeni vəzifələr əlaqələr sistemində həm şaquli idarəetmənin bütün səviyyələri arasında, həm də üfiqi elmi-istehsal-satış zəncirinin bölmələri arasında dəyişikliklərə səbəb olub. Hələ, 1980-ci illərdə innovasiya prosesinin ümumi idarəetməyə inteqrasiya edilmiş sistemləri yaranmağa və inkişaf etməyə başlamışdır. Bunlar ənənəvi məhsul istehsalı və buraxılışının ümumi idarəetmə sistemindən ayrılmış sistemlər kimi inkişaf etmişdir. Bunlarla yanaşı, dövlətin innovasiya siyasətinin gücləndirilməsi və innovasiya proseslərinin daha optimal formalaşdırılması, inkişaf etdirilməsi istiqamətində əsas funksiyaları innovasiya menecmenti yerinə yetirir və bununla əlaqədar olaraq innovasiya menecmentinin funksiyalarının, iş prinsiplərinin və fəaliyyət dairəsinin daha da təkmilləşdirilməsi vacib məsələlər kimi diqqət çəkir [2]. İnnovasiya menecmenti kompaniyanı idarəetmə rəhbərliyini ali səviyyəsində həyata keçirilən strateji idarəetmə istiqamətlərindən biri kimi xüsusi əhəmiyyət kəsb edir. İnnovasiya menecmentinin vacib funksiyaları bir sıra sahələrdə, o cümlədən: firmaların elmi-texniki və istehsal fəaliyyətinin əsas istiqamətlərini müəyyən etmək, yeni məhsullar istehsalının mənimsənilməsini işləyib hazırlamaq və tətbiq etmək (innovasiya fəaliyyəti); buraxılan məhsulu modernləşdirmək və təkmilləşdirilmək; ənənəvi məhsul növləri istehsalını daha da inkişaf etdirmək; köhnəlmiş məhsulları istehsalatdan çıxarmaq və s. sahələrdə daha çox tələb olunur. İnnovasiya menecmentində əsas diqqət strategiyanın işlənib hazırlanmasına və onun reallaşdırılmasına istiqamətlənmiş tədbirlərə verilir. Yeni növ məhsulların işlənib hazırlanması və buraxılması firmanın strategiyasının daha üstün istiqamətləri olur. İnnovasiya sahibkarlığı subyektinin innovasiya siyasətinin həyata keçirilməsi üçün bir qrup tədbirlərin - innovasiya fəaliyyətinin plan və proqramının işlənib hazırlanmasını; yeni növ məhsulların işlənib hazırlanması gedişinə və onun tətbiqinə nəzarət edilməsini; yeni növ məhsullar yaradılmasının layihələrinə baxılmasını; vahid innovasiya siyasətinin həyata keçirilməsini, istehsal bölmələrində bu sahənin fəaliyyətinin əlaqələndirilməsini; innovasiya fəaliyyəti proqramının material və maliyyə resursları ilə təmin edilməsini; innovasiya fəaliyyətinin ixtisaslı heyətlə təmin edilməsini; innovasiya problemini ideyadan seriyalı məhsul istehsalına qədər kompleks şəklində həll etmək üçün müvəqqəti qruplar yaradılmasını ardıcıl və sistemli şəkildə reallaşdırılması vacibdir [3, s. 1457]. İri müəssisələrdə tədqiqat işləri və istehsalı vahid prosesdə birləşdirən elmi-texniki kompleks yaradılması innovasiya fəaliyyətinin inkişafının müasir mərhələsinin əsas xüsusiyyətlərindən biri kimi diqqət çəkir və bu proseslərdə "elm-istehsal" tsiklinin bütün mərhələlərində sıx əlaqə olmasını nəzərdə tutulur. Belə ki, bütöv "elm-istehsalat-satış" sisteminin yaradılması obyektiv zərurətdən və müasir dövrün qlobal innovatik çağırışlarından ortaya çıxmışdır, eyni zamanda bütün bunlar elmi-texniki tərəqqinin daha da sürətlənməsi və texnologiyaların mürəkkəbləşməsi ilə bilavasitə bağlıdır. Ölkədə innovasiya fəaliyyətinin modelləşdirilməsi, stimullaşdırılması və bunlarla əlaqədar olaraq praktiki mexanizmlərin işlənib hazırlanması prioritetləri dövlər innovasiya siyasətinin əsasında yer almalıdır. Belə ki, innovasiyanın inkişafı olduqca mürəkkəb, texniki proseslərin və intellektual potensialın inkişafı ilə üzvi sürətdə bağlıdır. Bunlar isə öz növbəsində innovasiyanın inkişafın sistemli, əlaqələ və kompleks yanaşmağı tələb

edir [4, s.6]. İnnovasiya proseslərinin idarə edilməsinin daha çevik və kompleks sisteminin yaradılması, dövlət innovasiya siyasətinin təkmilləşdirilməsi və daha çox stimullaşdırıcı mexanizmlərin tətbiq edilməsi perspektiv məhsulun işlənməsinə, idarəetmənin təşkilati forma və funksiyalarının yenidən qurulmasına yönəlmiş və tətbiqinə təkan verir, innovasiya prosesinin yaranmasından həyata keçirilməsinədək onun hərtərəfli idarə olunmasını asanlaşdırır və innovasiya proseslərinin uğurlu şəkildə başa çatdırılmasını təmin edir.

Qeyd edək ki, dövlət tərəfindən investisiya fəaliyyətinin tənzimlənməsinin ən səmərəli metodlarından biri də vergi mexanizmidir. Bu məqsədlə əlverişli mühit yaratmaq üçün vergilərin strukturunda dəyişikliklərin edilməsi zəruridir. Bunun nəticəsində isə uzunmüddətli kapital qoyuluşunun həyata keçirilməsinə, daha çox gəlir gətirən sahələrə kapital yönəldilməsinə şərait yaradılmış olur. İnvestisiya qoyuluşlarının dövlət tənzimlənməsinin mühüm istiqamətlərinə isə bunları aid etmək olar: sosial və istehsal infrastrukturuna sərmayələrin yönəldilməsi; qiymətlərin tənzimlənməsi; dövlət mülkiyyətinin özəlləşdirilməsinin tənzimlənməsi; kreditlər üzrə faiz dərəcələrinin tənzimlənməsi və pul kütləsinin tənzimlənməsi. Bütün bunlarla yanaşı, dövlət investisiya fəaliyyətinin tənzimlənməsində iqtisadi mexanizmlərdən daha səmərəli istifadə edilməsi məqsədəmüvafiq hesab olunur və bu mexanizmlər sırasında bunlar daha çox fərqlənirlər:

✓ vergitutma obyektlərinin və subyektlərinin, vergi dərəcələrinin və vergi güzəştlərinin fərqləndirildiyi vergi sisteminin tətbiqi;

✓ amortizasiya-kredit siyasətinin həyata keçirilməsi;

✓ ayrı-ayrı region, sahə və istehsalatların inkişafı üçün subvensiya və subsidiyaların verilməsi;

✓ dövlət norma və standartlarının təkmilləşdirilməsi;

✓ antiinhisar tədbirlərinin görülməsi;

✓ təbii ehtiyatlardan istifadə şərtlərinin müəyyənləşdirilməsi;

✓ qiymətqoyma siyasətinin həyata keçirilməsi;

✓ investisiya layihələrinin ekspertiza meyarlarının yenilənməsi və təkmilləşdirilməsi.

İnnovasiya-investisiya siyasətinin birinci dərəcəli vəzifəsi resurs hasil edən emal və istehlak edən sahələrlə əsaslı vəsait qoyuluşları arasındakı nisbəti yaxşılaşdırmaqdan, vəsaiti elmi-texniki tərəqqinin sürətləndirilməsini təmin edən sahələrin xeyrinə yenidən bölüşdürməkdən ibarətdir [5]. İnnovasiya-investisiya siyasəti kapital qoyuluşlarının xeyli payının öz-özünə maliyyələşdirmə, maddi-texniki resurslar, bazar mexanizmlərinin və infrastrukturunun inkişafı innovasiya-investisiya prosesinin iştirakçıları arasında müqavilə və qaytarma sistemi prinsiplərinə əsaslanmalı olsa da bir sıra bütöv proqramlar dövlət köməyi tələb edir. Ona görə də, innovasiya-investisiya siyasəti dövlətin bilavasitə iştirakı ilə səmərəli qurulmalı və daha güclü formada əməli olaraq reallaşdırılmalıdır. Ümumiyyətlə, müasir iqtisadi anlamda innovasiya-innvestisiya iqtisadi inkişafa nail olmaq və milli sərvətin artırılmasını təmin etmək üçün zəruri təsir komponentlərindən hesab olunmaqdadır. Bir çox makroiqtisadi göstəricilərdə baş verən kəmiyyət və keyfiyyət dəyişikliyi bilavasitə reallaşdırılan innovasiya-investisiyanın həcmi və istiqaməti ilə birbaşa əlaqədardır. Təsadüfi deyildir ki, hər bir dövlət əksər hallarda məhz müxtəlif istiqamətlərdə innovasiya-investisiya qoyuluşunu reallaşdırmaqla iqtisadiyyatın strukturunu təkmilləşdirməyə və bununla da sosial-iqtisadi problemlərin həllinə nail olmağa çalışır [6]. Bu baxımdan, dövlət siyasəti proqramları çərçivəsində reallaşdırılmaqla, innovasiya sahibkarlığı subyektləri üçün istehsalın yüksək səmərəliliyi və innovasiyalar-texnologiyalar bazarında özü üçün möhkəm yer tuta biləcək məhsulların istehsalı üzrə tədbirləri də əks etdirməlidir. Bununla belə, sahə proqramları təsərrüfat subyektlərinə öz texnoloji siyasətlərini formalaşdırmaq üçün informasiya rolunu oynayır və həmin proqramlar dövlətin investisiya-innovasiya siyasətinin sahələr üzrə həyata keçirilməsinin tənzimlənməsi aləti rolunu oynayır, müəyyən olunmuş müəssisələr üzrə reallaşdırılır. İnnovasiya-investisiya siyasətinin tənzimlənməsi zamanı dövlət bu siyasətə müdaxilə edir və eyni zamanda, dövlət investisiyalarından səmərəli istifadə olunmasına məsuliyyət daşıyır, bütün bunlar özünü dövlət tərəfindən investisiya fəaliyyətinin tənzimlənməsinin müxtəlif formalarında büruzə verir: maliyyələşdirmə, kredit sistemi və vergi sistemi, amortizasiya ayırmaları norması. Bundan əlavə, dövlət sistemli şəkildə digər tədbirləri də reallaşdırmaqla, ölkədə investisiya-innovasiya fəaliyyətinin intensivliyini təmin edir. Məsələn, innovasiya-investisiya fəaliyyətini tənzimləmək üçün dövlət vergi və kredit dərəcələrinin, texniki-sanitar-gigiyenik normaların, arxitektur normaların dəyişdirilməsini həyata keçirir [7]. Şəkil 1-də dövlətin innovasiya siyasəti və innovasiya proseslərinin formalaşmasına strateji yanaşamaların blok-sxemi verilmişdir.

Şəkil 1. Dövlətin innovasiya siyasəti və innovasiya proseslərinin formalaşmasına strateji yanaşamaların blok-sxemi (tədqiqat materialları üzrə müəllif tərəfindən hazırlanmışdır).

Qeyd edək ki, dövlətin innovasiya siyasətinin formalaşmasına, innovasiya fəaliyyətinin təşkili proseslərinin səmərəliliyinin artırılmasına təsir edən amillərin dərindən təhlil edilməsi, öyrənilməsi və bunlara müvafiq şəkildə strateji yanaşmaların təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Nəzəri və praktiki yanaşamalar, proseslər əsas götürülməklə, innnovasiya prosesi və onun formalaşmasına təsir edən amilləri bu formada ümumiləşdirmək mümkündür:

✓ tələbatın müasir dövrə uyğun və tam şəkildə ödənilməsi;

✓ məhsulun keyfiyyəti üzrə müəssisənin rəqabətqabiliyyətliliyi və istehsalın səmərəliliyi;

✓ ənənəvi texnologiyaların sabit idarə edilməsi ilə yeni texnologiyaların tətbiqi arasında balansın yaradılması, texnologiyaların ənənəvi məhsuldarlığının qorunması ilə yanaşı, eyni zamanda resursların bir hissəsinin yeni texnologiyanın tətbiqinə yönəldilməsi əsasında texniki vasitələrin diversifikasiyasının təmin edilməsi;

✓ səmərəliliyin geniş formada təmin edilməsi, inqilabi

dəyişikliklərə müəssisənin hazır olması və ona alışması, bu baxımdan tətbiq olunan yeni radikal idarəetmə yenilikləri proqramı və texnologiyanın idarə edilməsində uyğunluğun fasiləsizliyinin müəyyən edilməsi;

✓ daxili və xarici elementlərin qarşılıqlı sisteminin inkişafının təşkil olunması, bazardakı yeniliklər haqqında sistemli informasiyanın əldə edilməsi və alternativ layihələrin istisna olunmasının şərtləndirilməsi və s.

Bu proseslərin reallaşdırılmasında innovasiya fəaliyyətinin bir sıra növləri daha çox diqqət çəkir: texniki hazırlıq və istehsalın təşkili (istehsal avadanlığının və alətlərinin əldə olunması, onlarda, o cümlədən yeni məhsulun hazırlanması və ya yeni texnoloji prosesin tətbiqi kefiyyətlərinə nəzarətin və istehsalın prosedurasında, metodlarında və standartlarında dəyişikliklərin edilməsi); yeni məhsulların marketinqi; məhsul və texnoloji proseslərin modifikasiyalarının daxil olduğu istehsalqabağı işləmələr, yeni texnologiyanın və avadanlıqların tətbiqi üçün heyətin hazırlanması, həmçinin, əgər konstruksiyanın təkmilləşdirilməsinə ehtiyac varsa, sınaq istehsalı və istehsalın başlanması; kənardan maddiləşmiş texnologiyaların alınması (öz texnoloji məzmununa görə məhsul və proses innovasiyalarının tətbiqi ilə əlaqədar maşın və avadanlıqlar) və istehsal layihələndirilməsi (istehsal prosedurasının, texniki xüsusiyyətlərinin, istismar xarakteristikalarının müəyyən edilməsi üçün nəzərdə tutulan plan və uçot parametrlərinin hazırlanması) [8]. Xüsusilə, xarici bazarda sərt rəqabətə davam gətirmək üçün innovasiyalı inkişaf ölkənin beynəlxalq münasibətlər subyekti kimi fəaliyyətinin əsas şərtlərindən biridir. İnnovasiyaların sayının artırılması əsas deyil, onu bütün iqtisadi proseslərin tərkib hissəsinə çevirmək olar. İnnovasiya inkişafını yeni və daha yaxşılaşdırıcı texnologiyaların işlənib hazırlanması və reallaşdırılması əsasında təsərrüfat subyektinin iqtisadi artımı kimi müəyyən etmək mümkündür. İnnovasiya inkişafının səviyyəsi həm innovasiya prosesinin resurs tərkibi, həm də innovasiya texnologiyaları transferinin səmərəliliyi ilə müəyyən edilir. İnnovasiya prosesinin əmtəəyə çevrilməsində onun iki fazası daha çox fərqlənir: a) yaradılma və yayılma; b) yeniliyin diffuziyası. Birinci, əsasən, elmi tədqiqatların, təcrübə-konstruktor işlərinin, sınaq nümunəsinin hazırlanması və satışının təşkili, kommersiya istehsalının təşkilindən - ardıcıl mərhələlərdən ibarətdir. İkinci fazada, ictimai-faydalı səmərə, yeniliklərin istehsalçıları arasında, həmçinin istehsalçılar və istehlakçılar arasında bölüşdürülür. Diffuziya nəticəsində həm istehsalçıların, həm də istehlakçıların xüsusiyyətlərində keyfiyyət dəyişiklikləri baş verir. İnnovasiyanın yayılması, yayılma forması və sürəti kommunikasiya kanallarının gücündən, təsərrüfat subyektlərinin informasiyanı qəbul etməsi xüsusiyyətindən, onların bu informasiyadan, praktiki informasiya bacarığından və s. asılı olan məlumatların ötürülməsi prosesidir. Bu halda, innovasiya - elə texniki-iqtisadi tsikldir ki, tədqiqat və işləmələr sferasının nəticələrindən istifadə, texniki və iqtisadi dəyişikliklərə səbəb olur ki, bu da sferanın fəaliyyətinə əks təsir göstərir. Ümumi halda, innovsiya prosesinin gedişat ardıcıllığını bu formada göstərmək olar: . Burada fundamental tədqiqatlar; tədqiqatlar; işləmələr; layihələndirmə; tikinti, mənimsəmə; sənaye istehsalı; marketinq; satış [9, s. 30].

İnnovasiya proseslərinin inkişafına təsir edən amillər qrupununun xüsusiyyətlərini, innovasiya fəaliyyətinə mane olan amilləri və innovasiya fəaliyyətini şərtləndirən amilləri bu formada qruplaşdırmağı məqsədəuyğun hesab etmişik:

1) İqtisadi - texnoloji amillər qrupu, o cümlədən innovasiya fəaliyyətinə mane olan amillər: innovasiya layihələrini maliyyələşdirmək üçün vəsaitin çatışmazlıqı, maddi-texniki bazanın zəifliyi, texnologiyanın köhnəlməsi, ehtiyat güclərinin olmaması, cari istehsal üsulunun hakim mövqedə olması; innovasiya fəaliyyətini şərtləndirən amillər: maliyyələşmə üçün ehtiyatın olması, maddi-texniki vəsaitlə təminat, qabaqcıl texnologiya, təsərrüfatçılıq üçün zəruri olan elmi-texniki infrastrukturun mövcud olması.

2) Siyasi və hüquqi amillər qrupu, o cümlədən innovasiya fəaliyyətinə mane olan amillər: antiinhisar siyasətində məhdudiyyətlər, vergi, patent-lisenziya qanunvericiliyində boşluqlar; innovasiya fəaliyyətini şərtləndirən amillər: innovasiya fəaliyyətini genişləndirən qanunverici tədbirlər, dövlət dəstəyi.

3) Təşkilati-idarəetmə amillər qrupu, o cümlədən innovasiya fəaliyyətinə mane olan amillər: köhnəlmiş təşkilati-struktur, yersiz mərkəzləşdirmə, idarəetmədə avtoritar üsulun güclü olması, informasiyanın şaquli yayılmasının üstünlüyü, müəssisənin qapalı olması, planlaşdırmada sərtliyin olması, mövcud bazara səmtləşmək, qısa müddətli mövqelər; innovasiya fəaliyyətini şərtləndirən amillər: təşkilati strukturun elastikliyi, idarəetmədə demokratik üsulların olması, informasiyanın üfiqi yayılmasının üstünlüyü, öz-özünü planlaşdırma, düzəlişlərə açıq olmaq, problemlərin məqsədli həlli.

4) Sosial-psixoloji və mədəni amillər qrupu, o cümlədən innovasiya fəaliyyətinə mane olan amillər: dəyişikliklərə etiraz etmək, yeni iş yerlərinin axtarışının zəruriliyi, köhnəlmiş fəaliyyət üsullarının yenidən qurulması, ənənələrə sadiq olan davranış stereotiplərinin pozulması, qeyri-müəyyənlik qorxusunun olması, xaricdən daxil olan hər cür yeniliyə qarşı çıxmaq; innovasiya fəaliyyətini şərtləndirən amillər: mənəvi həvəsləndirmə, ictimai tanınma, öz-özünü reallaşdırma imkanları ilə təminat, yaradıcı əməyin sərbəst olması, əmək kollektivində olan normal psixoloji mühit və s.

Bunlarla bağlı nəzərə almaq lazımdır ki, innovasiya proseslərinin inkişafına təsir edən amillər qrupu hər bir ölkənin milli xüsusiyyətlərindən asılı olaraq dəyişə bilər. Belə ki, innovativ proseslərin inkişafında güclü nailiyyətlər əldə edən Yaponiya ilə dünyanın istənilən ölkəsini müqayisə etmək olduqca çətin görünür. Təbii ki, istənilən innovasiya prosesinə pozitiv və neqativ amillər təsir göstərir. Onların təsirini öyrənmək və qiymətləndirmək, təsir gücünü yüksək nailiyyətlərə istiqamətləndirmək və gözlənilən risk səviyyəsini aşağı endirmək dövlətin innovasiya siyasətinin və innovasiya proseslərinin idarəetmə strukturlarının başlıca vəzifəsi olmalıdır [10, s.42]. Başqa sözlə, müxtəlif xarakterli problemlərin həll edilməsində mühüm vasitə olan innovasiya-investisiya yanaşmasından istifadənin səmərəliyi onların iqtisadi cəhətdən əsaslandırılmış strukturundan asılıdır, burada şübhəsiz, müvafiq strukturun yaradılmasına isə dövlətin tənzimləyici mexanizmi əsaslı təsir göstərə bilər. Dünya təcrübəsinə istinadən qeyd etmək olar ki, inkişaf etmiş ölkələrdə büdcə xərclərində

innovasiya-investisiya istiqaməti mühüm yer tutur və bu xərclər daim artım tempi ilə müşayiət olunur.

Son dövrlərdə Azərbaycanda iqtisadi proseslərin innovasiyalaşdırılması istiqamətində ciddi addımlar atılmaqdadır. Ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsində innovativ yanaşmalar daha çox üstünlük təşkil edir [11]. Artıq ölkəmizdə innovativ proseslərin idarə edilməsi strukturunun yaradılması istiqamətində əməli tədbirlər görülməkdədir [12, s. 241]. Yenə ölkə Prezidentinin 2018-ci il 6 noyabr tarixli Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək TexnologiyalarNazirliyinin tabeliyindəİnnovasiyalar Agentliyinin yaradılması haqqında Fərmanı qüvvəyə minmişdir və hazırda icra prosesindədir. Bundan əlavə, hələ 2012-ci ildən başlayaraq Pirallahıda Yüksək Texnologiyalar Parkının təşkili prosesləri gedir və burada müəssisələr formalaşdırılmaqdadır [13]. Beləliklə, yaxın perspektivdə Azərbaycanda dövlətin innovasiya siyasətinin və innovasiya proseslərinin formalaşmasına strateji yanaşmaların əhəmiyyətli səviyyədə təkmilləşdirilməsi lazım gələcəkdir və bunun üçün bir sıra məsələlərə diqqətin yönəldilməsini vacib sayırıq:

✓ Ölkəmizdə mövcud olan innovativ inkişaf potensialı obyektiv təhlil edilməli və qiymətləndirilməlidir;

✓ Milli innovasiya sisteminin yaradılması prosesləri başa çatdırılmalı və innovatik inkişafın əsaslandırılımış strateji istiqamətləri müəyyənləşdirilməlidir;

✓ İnnovasiya proseslərinin idarəetmə sistemi üzrə strukturun formalaşdırılması və çevik idarəetmə mexanizmlərinin tətbiqi prosesləri təmin olunmalıdır;

✓ Ölkəmizin iqtisadi inkişaf üzrə strateji hədəflərinə uyğun şəkildə milli iqtisadiyyatın innovasiyalaşdırılmasının yaxın və uzaq perspektivi üçün hədəflər müəyyənləşdirməli, innovativ inkişaf proqramları və iri innovasiya-investisiya layihələri hazırlanmalı, icrasına başlanılmalıdır və s.

ƏDƏBİYYAT:

1. Gerguri Sh., Rexhepi G., Ramadani V. Innovation strategies and competitive advantage // Современная экономика: проблемы, тенденции, перспективы. 2013. Вып. 8 (1). С. 10-26.

2. Hüseynova A.D. Azərbaycanda innovasiya potensialının idarə edilməsi mexanimzinin təkmilləşdirilməsi. İ.e.d. dissertasiyasının Avtoreferatı. Bakı, 2015.- 54 s.

3. Петрухина Е.В. модели и методы стратегического менеджмента корпоративных инновационных систем // Фундаментальные исследования. – 2015. – № 2-7. – С. 1455-1459.

4. Tağıyev A.H., Aslanzadə İ.A. İnnovasiya menecmenti. I hissə. Bakı, 2017, 368 s.

5. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov M.Ə. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Bakı, İqtisad Universitetinin nəşriyyatı, 2006. 834 s.

6. Aslanzadə İ.A. Dövlət innovasiya siyasətinin formalaşması və sənaye sektorunun rəqabət qabiliyyətliliyinin yüksəldilməsi problemləri. İ.e.d. dissertasiyasının Avtoreferatı. AMEA, İqtisadiyyat İnstitutu, 2013.

7. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Bakı, İqtisad Universitetinin nəşriyyatı, 2011. 120 s.

8. Авсянников Н.М. Инновационный менеджмент. Москва, Российского Университета дружбы народов, 2002, 174 с.

9. Hüseynov T.Ə. Firmanın iqtisadiyyatı. Bakı, Azərnəşr, 2009. 600 s.

10. Tağıyev A.H., Fərzəliyev S.A. Biznesin təşkili və idarə edilməsi. Bakı, Təknur, 2007, 340 s.

11. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 6 dekabr 2016-cı il

12. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt 2018, 376 s.

13. Yüksək Texnologiyalar Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 5 noyabr 2012-ci il, №736.

Açar sözlər: *dövlətin innovasiya siyasəti, innovasiya proseslərinin formalaşması, innovasiya proseslərinə strateji yanaşmalar, innovativ inkişaf istiqamətləri, milli iqtisadiyyatın innovasiyalaşdırılması perspektivləri, iqtisadiyyatın innovasiyalaşdırılmasının strateji hədəfləri.*

Ключевые слова: *инновационная политика государства, формирование инновационных процессов, стратегические подходы к инновационным процессам, направления инновационного развития, перспективы инноватизации национальной экономики, стратегические цели инноватизации экономики.*

Key words: *innovative policy of the state, formation of innovative processes, strategic approaches to innovative processes, directions of innovative development, perspectives of an innovatization of national economy, strategic objectives of an innovatization of economy.*

РЕЗЮМЕ

Стратегические подходы к формированию инновационных процессов и государственной инновационной политики

В статье исследованы стратегические подходы к формированию инновационных процессов и государственной инновационной политики. Анализированы пути совершенствования методов стратегического менеджмента корпоративных инновационных систем. Обоснована важность моделирования, стимулирования инновационной активности в стране и разработка практических механизмов в этой сфере. Дан стратегический подход к формированию инновационной политики и инновационных процессов государства, а так же факторы, препятствующие инновационной деятельности в стране. В конце статьи приведен ряд предложений и рекомендаций по стратегическим подходам к формированию инновационных процессов и государственной инновационной политики в современных условиях.

SUMMARY

Strategic approaches to formation of innovative processes and innovative policy of the state

Strategic approaches to formation of innovative processes and the innovative policy of the state are investigated in the article. Ways of improvement of methods of strategic management of corporate innovative systems are analyzed with this purpose. Importance of modeling, stimulation of innovative activity in the country and development of practical mechanisms in this sphere is improved too. Strategic approach to formation of innovative policy and innovative processes of the state and also the factors interfering innovative activity in the country is given. A number of offers and recommendations about strategic approaches to formation of innovative processes and the innovative policy of the state in modern conditions are given at the end of article.

Beynəlxalq münasibətlər

TÜRKİYƏ-İSRAİL ARASINDA İQTİSADİ-TİCARƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ VƏ ONUN ƏSAS İSTİQAMƏTLƏRİ

VAQİF QASIMOV
Azərbaycan Milli Elmlər Akademiyası
A.Bakıxanov adına Tarix İnstitutu

Israil dövləti qurulduqdan bəri daima Türkiyə ilə ikitərəfli əməkdaşlığı öz ölkəsi üçün prioritet sahə saymış və çalışmışdır ki, mövcud olan əlaqələr strateji xarakter daşısın.

İdeoloji nöqteyi nəzərdən hər iki ölkəni qərb demokratiyası və bazar iqtisadiyyatına verdikləri dəyərlər birləşdirirdi. Geosiyasi nöqteyi nəzərdən isə, İsrailin qonşu ərəb dövlətləri ilə gərgin münasibətləri, regionda Türkiyə kimi dövlətlə müttəfiq olmaq birbaşa İsrailin maraqlarına cavab verirdi. İnkişaf etməkdə olan Türkiyənin isə İsrailin müasir texnologiyasına həm müasirlik, həm də daha yaxın məsafədən gətirilməsi baxımından (daha az yol xərci) böyük tələbatı vardı.

"Soyuq müharibə" bitdikdən sonra regiondakı vəziyyət yaxşılaşmağa doğru deyil, əksinə daha da pisləşməyə doğru gedirdi. Bütün bunlar hər iki dövləti bir-birlərinə olan mövcüd ehtiyacı daha da artırmağa sövq edirdi.

İsrail dövləti yarandıqdan sonra , Türkiyənin Xarici İşlər Naziri Hikmət Çətin ilk dəfə olaraq 1993-cü ilin noyabr ayında oraya rəsmi səfər etdi (1,43). Əslində, çətin ölkədaxili siyasi vəziyyət və Ərəb-İsrail münaqişəsi səbəbindən İsrailə planlaşdırılan səfər iki dəfə təxirə salınmışdı. Bu, birbaşa Türkiyə-Israil münasibətlərinə daxili siyasi vəziyyətin və Ərəb dünyasının Türkiyə-İsrail münasibətlərinə olan təsirindən xəbər verirdi. Səfər zamanı Çətin turizm, iqtisadi əməkdaşlıq və təhsil mübadiləsi sahələrini özündə ehtiva edən Türkiyə dövləti adından İsrail dövləti ilə bir sıra müqavilələr imzaladı.

1993-cü ildə Türkiyə və İsrail dövlətləri arasında iqtisadi əlaqələri genişləndirmək və dərinləşdirmək məqsədilə Türkiyə-İsrail Biznes Şurası yaradıldı. Bunun üçün ölkələrarası turizm, iqtisadi əməkdaşlıq və təhsil mübadiləsi haqqında iki sənəd imzalandı. Şuranın ən böyük naliyyətlərindən biri Azad Ticarət haqqında müqavilənin imzalanması üçün 1994-cü ildə iki ölkə arasında danışıqların başlanması oldu. Həmən il dövlətlərarası ticarət dövriyyəsi təxminən 300 milyon dollar idi.

90-cı illərin ikinci yarısında Türkiyədə daxili-siyasi gərginlik müşahidə olunurdu. Buna səbəb, islam yönümlü Rifah partiyasının 1995-ci ildə parlament seçkilərində seçicilərin 21,38 faiz səslərini toplayaraq mandatların çoxluğunu, 158-i qazanmağı oldu. Nəticədə Rifah partiyasının lideri Nəcməddin Ərbakan, digər qazandığı

mandatların sayına görə ikinci yerdə qərarlaşan Doğru Yol Partiyasının lideri Tansu Çillərlə koalision hökumət quraraq ona başçılıq etdi.

Ölkə daxilində mövcud olan siyasi gərginliyə baxmayaraq, nüfuzlu kübar dairələr, ilk öncə hərbi rəhbərlik, həmçinin iri biznes nümayəndələri İsrail ilə başlamış əməkdaşlığı daha da genişləndirilməsi üçün lazımı tədbirləri həyata keçirirdilər. 1996-cı ilin fevral ayında yeni ticarət sazişi üzərində işlənməsi haqqında ikitərəfli danışıqlar keçirildi. KİV-lər sazişin hər iki tərəfə yeni xeyirlər gətirəcəyi haqqında yazırdılar. Belə olan halda, Türkiyə ABŞ bazarına və Şimali Amerikanın azad zonasına çıxış əldə edəcəkdi. İsrail isə Türkiyənin podratçı şirkətləri ilə birlikdə işləyərək Yaxın Şərqin tikinti bazarına daxil olmaq fürsətini qazanacaqdırlar. Bundan başqa, İsrail Türkiyənin Orta Asıya Türk Respublikaları arasında olan nüfuzundan istifadə edə biləcəyini qeyd edilirdi (2).

Burada qeyd etmək lazımdır ki, Türkiyə-İsrail arasında əməkdaşlığın bütün kontekstlərində tez- tez Azərbaycan və Orta Asiya Respublikalarının mövzusu səsləndirilir. Bu mənada, Türkiyə Türk Respublikaları ilə İsrail arasında körpü rolunu oynamağa iddia edirdi. Çox güman ki, Türkiyənin iddiası İsrailin Türk Respublikalarından alacağı enerji məhsullarının ölkəsinə çatdırılması yalnız Ceyhan limanı vasitəsi ilə həyata keçirilməsi mümkün olması ilə əlaqədar idi. Türkiyənin Prezidenti Süleyman Dəmirəl 1995-ci ilin dekabr ayındakı müsahibəsində Qara dənizdəki boğazlara ən yaxşı alternativ kimi Bakı-Ceyhan yolunu göstərmiş və Türkiyənin "enerji terminalına" cevriləcəyinə əmin olduğunu qeyd etmişdi (3). İsrail limanlarının Ceyhana yaxın olmağını nəzərə alsaq, İsrailin enerji və digər məhsullarla təchizatında adıçəkilən limanın xüsusi rol oynadığını əminliklə qeyd etmək olar.

Türkiyə-İsrail arasında iqtisadi əməkdaşlıq Türkiyə İsrailin müstəqilliyini tanıdıqdan sonra təzahür etsə də, ölkələr arası iqtisadi sahədə əməkdaşlığın dərinləşməsinin əsasını qoyan, Türkiyə İsrail arasında 14 mart 1996-cı ildə imzalanmış və 1997-ci ilin may ayının 1-də qüvvəyə minmiş Azad Ticarət haqqında müqavilə oldu.

Ticari və iqtisadi əlaqələrin hüquqi bazasını tamamlamaq üçün, Türkiyə və İsrail bir çox müqavilə, o cümlədən İkitərəfli İnvestisiyaların Təşviqi və Qorunması (1997-ci il) və İkiqat Vergitutmanın Qarşısının Alınması (1997-ci il) haqqında sazişləri imzaladılar (4).

Bu müqavilələr Türkiyənin Prezidenti Süleyman Dəmirəlin 1996-ci ilin mart ayında İsrailə səfər etdiyi zaman imzalandı. Azad Ticarət haqqında müqaviləyə əsasən, 2000-ci ilə kimi iki ölkə arası bütün tarif maneələrinin aradan qaldırılmalı idi. Türkiyə rəsmiləri imzalanmış müqaviləni iki ölkə arasındaki iqtisadi əməkdaşlıqda "yeni başlanğıc" adlandırdı. Hər iki ölkə parlamentləri müqaviləni ratifikasiya etdikdən sonra, güzəştli tariflərə əsasən, ilkin mərhələdə sənaye istehsalı mallarına güzəştlər nəzərdə tutulurdu. Bu kateqoriyalara aid olan mallara gömrük tarif dərəcələrinin dərhal 80 faiz endirilməsi nəzərdə tutulurdu. İkinci mərhələdə, sənədin ratifikasiyasından asılı olaraq, təzə tərəvəz və becərilən kənd təsərrüfatı məhsullarının bəzi növləri üzrə gömrük dərəcələrinin azaldılması nəzərdə tutulurdu. Həyata keçirilməsi 2000-ci ilin yanvarın 1-dək nəzərdə tutulan üçüncü sonuncu mərhələdə, toxuculuq məmulatları və hazır geyimə gömrük rüsumlarının ləğv edilməsi planlaşdırılırdı.

İsrail tərəfi ölkələrarası ticarət dövriyyəsinin 2000-ci il üçün 1 mld. dollaradək artacağına ümid etdiklərini söylədi. Səfər zamanı tərəflər arasında daha üç müqavilə imzalandı. Bunlar, 1) Sərmayələrin qarşılıqlı dəstəyi və müdafiəsi haqqında, 2) İkiqat vergi qoymanın qarşısının alınması haqqında və 3) İqtisadi, elmi və texniki əməkdaşlıq haqqında müqavilələr idi (5).

1998-ci ildə türk qəzetinə müsahibə verən İsrailin Baş naziri Binyamin Netanyahu iki ölkə arası iqtisadi münasibətləri, ölkələrarası əməkdaşlığın sıx qurulmasının əsas faktoru olduğunu qeyd etdi. İsrailin Baş nazirinin fikrincə, iqtisadi əməkdaşlıq geniş ticari əlaqələrlə məhdudlaşdırılmamalı, həmçinin özündə sənaye və fond bazarına qarşılıqlı investisiyaları ehtiva etməlidir (6).

İsrailin keçmiş Prezidenti Şimon Peres özünün "Yeni Yaxın Şərq" kitabında regional miqyasda dövlətlərarası fikir ayrılıqlarının aradan qaldırılmasında iqtisadi birliklərə vacib yer ayırır. Şimon Peres kitabında Avropa İttifaqını misal kimi göstərir. Bu mənada o, İsrail üçün regionda Türkiyədən sərfəli tərəfdaş olmadığını vurğulayır (7).

Aşağıdaki 1 nömrəli cədvələ nəzər yetirsək onda ölkələr 2000-ci ilədək nəzərdə tutduqları ölkələrarası ticarət dövriyyəsinin həcminə nail olduqlarını müşahidə edə bilərik.

Cədvəl 1: Türkiyə və İsrail ölkələri arasında ticarət dövriyyəsi ($1.000) TUİK (Turkish Statistical Institute)

İllər üzrə	İxrac	İdxal	Ümumi
1989	31.000	60.000	91.000
1990	47.000	63.000	110.000
1991	78.000	78.000	156.000
1992	90.000	97.000	187.000
1993	80.000	122.000	202.000
1994	178.000	126.000	304.000
1995	240.000	167.000	407.000
1996	255.000	193.000	446.000
1997	391.000	230.000	621.000
1998	480.000	280.000	760.000
1999	585.000	300.000	885.000

Türkiyənin İsrailə ixrac etdiyi mallar, toxuculuq, sənaye məhsulları, qida məhsulları, sement, çuqun, tikinti materialları, elektronika, şüşə daş əşyalar, maşın təkərləri, xam mal və taxıldan ibarət idi. Öz növbəsində İsrailin Türkiyəyə idxal etdiyi mallar əsasən kimyəvi maddələr, plastmaslar, kompüterlər, kondisionerlər, tibbi avadanlıq, telekommunikasiya, qazma və seysmik xəritələr, suvarma avadanlığı və s. ibarət idi (8, 227).

XX əsrin axırlarında Türkiyə-İsrail arasında iqtisadi-ticari və digər sahələri əhatə edən, əlaqələrin genişlənməsində xüsusi rol oynamış imzalanan müqavilələr hər iki ölkədə XXI əsrdə daha çox bəhrəsini verməyə başladı. Cədvəl 2 nəzər yetirdikdə bunu açıq şəkildə müşahidə etmək mümkündü.

Cədvəl 2: Türkiyə və İsrail ölkələri arasında ticarət dövriyyəsi ($1.000) TUİK (Turkish Statistical Institute)

İllər üzrə	İxrac	İdxal	Ümumi
2000	650142	505482	1155624
2001	805218	529489	1334707
2002	861434	544467	1405901
2003	1082998	459488	1542486
2004	1.315.292	714.143	2.029.435
2005	1.466.913	804.691	2.271.603
2006	1.529.158	782.149	2.311.308
2007	1.658.195	1.081.743	2.739.938
2008	1.935.235	1.447.919	3.383.154
2009	1.528.459	1.074.727	2.603.186
2010	2.080.148	1.359.639	3.439.786
2011	2.391.148	2.057.314	4.448.462
2012	2.329.531	1.710.401	4.039.932
2013	2.649.663	2.417.955	5.067.618
2014	2.950.902	2.881.262	5.832.164
2015	2.698.138	1.672.500	4.370.638
2016	2.955.545	1.385.605	4.341.150
2017	3.407.518	1.505.112	4.912.630

Türkiyə-İsrail arasında ticarət dövriyyəsi 2000-2014-cü illər ərzində sürətlə artaraq 1mlrd. 155 mln 624 min dollardan 5.832.164 mlrd dollaradək (5 dəfə) yüksələrək ölkələrarası tarixi maksimuma çatdı. Yalnız 2009-cu ildə ölkələrarası ticarət dövriyyəsi uzun müddət müşahidə olunan artımdan sonra enişə doğru istiqamətlənmişdir. Eniş siyasi deyil iqtisadi səbəbdən qaynaqlanırdı. Bu baxımdan, həmin il demək olar ki, bütün dünyanı bürümüş iqtisadi böhran hər iki ölkədən də yan keçməmiş, nəticədə ölkələrarası ümumi ticarət dövriyyəsi 3.383.154 mlrd dollardan 2.603.186 mlrd dollaradək (1,29 dəfə) enmişdi. Lakin qısa müddətdə ölkələrarası ticarət dövriyyəsi böhrandan çıxaraq böhrandan əvvəlki ili (2008) də üstələyib, 3.439.786 mlrd. dollara çatdırıldı.

2015-2016-cı illərdə İsraildən Türkiyəyə idxal olunan malların ümumi dəyəri kəskin sürətdə aşağı düşmüşdü. Azalma İsraildən idxal olunan mineral yanacaq, mineral yağlar və onun destillə (qovulma) məhsulları hesabına formalaşmışdı. Belə ki, həmin kateqoriyaya (27 kod) aid olan məhsullar 2014-cü ildə Türkiyəyə 1 mlrd 942 mln 980 min 300 dollar dəyərində idxal olunmuşdursa, 2015-ci ildə bu, təxminən 898 mlrd, 2016-cı ildə isə cəmi 550 mlrd dollar təşkil etmişdir. 2014-cü ildə Türkiyəyə İsraildən idxal olunan malların içərisində mineral yanacaq, mineral yağlar və onlardan hazırlanan digər məhsulların xüsusi çəkisi 67 % təşkil etmişdi. Buradan belə bir qənaətə gəlmək olar ki, qeyd edilən kateqoriyaya aid malın idxalının kəskin azalması ümumilikdə idxala olan təsir baxımından da mühüm rol oynayır . 2014-cü il ilə müqayisədə 2016-cı ildə Türkiyə ümumilikdə ölkəsinə mineral yanacaq, mineral yağlar və onun destillə (qovulma) məhsullarının idxal həcmi 2,25 dəfə azalaraq müvafiq olaraq 54 mlrd 889 milyondan 24 mlrd 304 milyonadək enmişdi.

Bunun başlıca səbəbi dünya iqtisadiyyatının davamlı zəifləməsi və hələdə böhranın davam etməsi ilə əlaqədar olduğunu və baş verən hadisələrin Türkiyədən də yan keçmədiyini söyləmək olar. Buraya həmçinin həmin dövr Türkiyənin ölkədaxili və xarici əlaqələrdə mövcud olan gərginliyi də əlavə etmək vacibdir.

ENERJİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

Türkiyə-İsrail arasında münasibətlərində enerji sahəsində əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Bunun başlıca səbəbi, İsrailin enerji təchizatında Türkiyənin mühüm rol oynamasıdır.

2008-ci ilin iyul ayının 17 hər iki tərəfin nümayəndələri Türkiyəyə aid Aralıq dənizi hissəsindən İsrailə qaz və neftin nəql etdirilməsi üçün inşa olunacaq boru xətlərinin çəkilişinin layihəsini müzakirə etdilər. Türkiyənin Enerji və Təbii resurslar nazirinin sözlərinə görə , müzakirələr 10 aya və boru xətlərinin tikintisi isə 3 ilə başa çatdırılmalı idi.

Türkiyənin İsrail səfirliyindəki nümayəndəsi boru kəmərinin çəkilişinin əsas məqsədi Azərbaycan və Rusiyadan Türkiyəyə nəql edilən qaz və neftin İsrailə kimi nəqlinin təmin edilməsi olduğunu bildirdi. Perspektivdə isə Azərbaycan və Rusiyadan nəql edilən neft və qazı İsrail vasitəsilə digər ölkələrə ixrac etmək planlaşdırılırdı.

Həmin dövr İsrailin neftə olan tələbatı illik 12 mln. ton barel olmaqla, ondan 2 mln. tonunu Azərbaycan təmin edirdi. Eyni zamanda Bakı-Tiflis-Ceyhan kəməri Azərbaycan neftinin İsrailə nəqlini əvvəlki 2000 km məsafədən 600 km dək qısaldırdı.

2008-ci ilin iyun ayında İsrailin Milli İnfrastruktur naziri Binyamin Ben Bakıya səfər edərək dövləti tərəfindən Azərbaycan neftinin Asiya bazarlarına çatdırılmasına hazır olduqlarını təklif etdi. Azərbaycan neftinin və Rusiya qazının Ceyhan limanından İsrailin Aralıq dənizindəki Aşkelon limanına nəql edilməsi nəzərdə tutulurdu (9).

Son zamanlar, zəngin neft və qaz ehtiyatlarının mövcud olmasını iddia edən İsrail, Azərbaycanın enerji sektorunda olan təcrübəsini nəzərə alaraq, SOCARa məxsus törəmə şirkətlərlə neft yataqlarının kəşfinə dair birgə əməkdaşlığa başladı. SOCARın şirkətləri İsrailin Şemen Oil şirkəti ilə birlikdə Aşdod sahilində neft yataqlarının müəyyən edilməsi ilə bağlı qazma işləri aparıblar (10).

Livan dənizinin sahil və sullarında son illər aparılan tədqiqatlar nəticəsində neft və qazla zəngin yataqların mövcud olması müəyyən edilmişdi. İsrail ərazisində kəşf edilən ən böyük qaz yatağı Aralıq dənizində yerləşən Leviafandır (11).

Hal-hazırda İsrailin təsdiq edilmiş təbii qaz ehtiyatları 900 milyard kub metrə bərabər olduğu bildirilir (12).

İsrail özünün enerjiyə olan tələbatını ödədikdən sonra, yerdə qalan hissəni satmaq məqsədi ilə dünya bazarlarına çıxarda bilər. Bu mənada, regionda digər ölkələrdən fərqli olaraq, ictimai-siyasi cəhətdən ən stabil, eyni zamanda tranzit ölkə kimi, böyük infrastruktura malik olan və nəhayət iqtisadi səmərəliyə görə də ən sərfəli ölkə Türkiyəni hesab etmək olar. Qeyd edilən faktorları nəzərə alsaq, onda hər iki ölkə arasındaki enerji sahəsində mövcud olan əlaqələrin daha da dərinləşəcəyini gözləmək olar.

SU TƏCHİZATI SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

Türkiyədən içməli suyun regionun digər ölkələrinə təchizatı ideyası ilk dəfə 1986-cı ildə Türkiyənin Baş naziri Turqut Özal tərəfindən irəli sürülmüşdü. Özalın "Sülh naminə su" layihəsi cənubi

Türk çaylarından su ilə doldurulmuş xətlər vasitəsilə İsrail və Ərəb dövlətlərini su ilə təchiz etmək, bununla da Yaxın Şərqdə sülhə töhfə vermək planından ibarət idi (13).

İlkin olaraq, 21 mlrd dollar dəyərində olan layihə, Ərəb Fars körfəzi dövlətləri tərəfindən maliyyəşməli idi. Layihəyə əsasən, Şeyhan və Ceyhan çaylarından regiondakı dövlətlər su ilə təchiz olunmalı idi. İordaniya. Suriya, Fələstin və Fars körfəzi dövlətlərinə xətlər vasitəsilə ildə 6 mln. kub metr su göndərilməsi nəzərdə tutulurdu. Layihənin orijinalı İsrail dövlətinin də iştirakını nəzərdə tuturdu, lakin bəzi ərəb dövlətləri buna etiraz etdi. Onlar İsrail tərəfinin su ilə təchiz edilməsini yalnız region dövlətləri ilə sülh danışıqlarına başladıqdan sonra mümkün olacağını bildirdi. Türkiyə mənbələri iddia edirlər ki, Fars körfəzi ölkələri suya olan tələbatlarını və onunla bağlı infrastruktur tələbləri qarşılamaq üçün növbəti 10 ildə ümumilikdə 35 mlrd. dollar xərcləmək lazım gəlir, bu isə "Sülh Su Xətti layihəsini daha sərfəli olduğunu göstərirdi (14).

Nə beynəlxalq agentliklər, nə də ki individual dövlətlər Sülh Su Xətti layihəsinin maliyyələşdirilməsinə maraq ifadə etmədilər. İsraili layihə ilə bağlı əsas narahat edən məsələ, xəttin Suriya ərazisindən keçməsi idi.

Bu gün Suriya və ətrafında baş verən hadisələr, layihənin maliyyələşməsinə marağın az olmasını və bu kimi nəhəng layihələrin həyata keçirilməsində mövcud olan çətinlikləri izah edir.

İkitərəfli əlaqələrin inkişafı üçün 1998-ci il xüsusilə məhsuldar oldu. İlin əvvəlindən İsrail Güneydoğu Anadolu Projesi (GAP) adlanan layihəyə xüsusi diqqət göstərməyə başladı. Layihəyə əsasən, Fərat çayında Atatürk adına su bəndinin tikintisi və Türkiyənin hal-hazırda iqtisadi cəhətdən ən geridə qalan rayonu Cənub-Şərq Anadolunun modernizasiyası nəzərdə tutulurdu. Kənd təsərrüfatı sahəsində, suvarma və s. aparıcı texnologiyaya malik olan İsrail Türkiyə ilə əməkdaşlıq edərək layihənin reallaşdırılmasında öz təcrübəsini bölüşməyə hazır idi. Bu məqsədlə maraqlı tərəflərin ilin əvvəlində qarşılıqlı səfərləri həyata keçdi. 1998-ci ilin fevral ayında İsrailin beynəlxalq əlaqələr mərkəzi Maşhavın nümayəndə heyəti Türkiyəyə səfər etdi. Səfərlər nəticəsində Türkiyədə 1998-1999-cu illərdə, layihə ilə bağlı əməkdaşlıq məsələlərini müzakirə etmək üçün, seminarların təşkili nəzərdə tutulurdu. Bundan başqa, İsrail özünün texnologiyasının nümunəsi kimi Cənub-Şərq Anadoluda süd fermasının tikintisi həyata keçirmək qərarını qəbul etdi.

İsrailin Türkiyədəki Baş konsulu E. Şakerin fikrincə, 10 ildən sonra Yaxın Şərqdə su problemi aktual ola bilər. Bununla qarşılaşmamaq üçün mövcud problem ilə məhz indi məşğul olmaq lazımdır. Bununla əlaqədar, Konsul cənub-şərq Anadolusuna dair Türkiyə-İsrail əməkdaşlığı, bəndin tikintisi və yüksək texnologiyaların istifadə edilməsi suyun səmərəli istifadəsini təmin edəcəyini vurğuladı (15).

Suriya ilə diplomatik əlaqələrin vəziyyətindən asılı olmayan Sülh, Su Xətti layihəsinə alternativ, Türkiyənin Manavqat çayından birbaşa İsrailə suyun çəkilməsi idi. Bu layihə ilk dəfə 1994-cü ildə müzakirə olundu. Suyun mümkün olan nəqli üsulları kimi, sualtı borular, meduza formasında üzən torbalar və tankerlər vasitəsilə nəzərdə tutulurdu. Layihə ilk dəfə müzakirə olunduqdan yalnız 10 il sonra 2004-cü ildə Türkiyə və İsrail arasında Manavqat suyu haqqında ilkin saziş əldə olundu. Sazişə əsasən, növbəti 20 il ərzində böyük həcmli tankerlər vasitəsilə Aşkelona ildə 50 mln. kub metr su nəql edilməli idi. Türkiyə Manavqat layihəsi çərçivəsində artıq 143 mln. dollar investisiya yatırdığı halda, İsrail tərəfi hələ Aşkelon limanından özünün milli su daşıyıcısına və limandakı körpüyə qədər 13 km məsafədə su boru kəmərinin tikintisi üçün 20 mln. dollar investisiya qoymalı idi.

Sövdələşmə 2006-cı ildə həyata keçirilməli olsa da, rəsmi olaraq dayandırıldı. Buna əsas səbəb kimi, həmin dövr neft qiymətlərinin yüksək olması baxımından , suyun böyük tankerlərlə daşınmasının praktik olmaması göstərildi. Layihənin dayandırılması ilə bağlı digər səbəblər kimi regionun hidro siyasəti və şərqi aralıq dənizinin enerji siyasəti də göstərilirdi. Bununla yanaşı, layihənin reallaşdırılmamasının əsas səbəblərdən biri kimi regiondadavam edən münaqişələri və qeyri sabitliyi də göstərmək olar.

Məqsədəuyğunluğuna və Yaxın Şərq ölkələrindən müstəqil olmasına baxmayaraq, Manavqat sxemi İsrailin bütövlükdə su problemin həl etmək gücündə deyil (16). Bununla belə, həmin dövr İsrailin Maliyyə naziri olmuş Binyamin Netanyahu baha başa gəldiyi və riskli olduğu üçün layihədən imtina etdikdə, Baş nazir Ariel Şaron layihənin İsrailin su təchizatından daha üstün, Türkiyə ilə strateji əməkdaşlığa təsir etdiyini bildirdi. Nəzərə alsaq ki, Manavqat layihəsi çərçivəsində İsrailin suya olan tələbatının yalnız 3 faizi təmin ediləcək, onda layihənin İsrail üçün simvolik məna daşıdığını inkar etmək olmaz.

TURİZM

Türkiyə-İsrail iqtisadi əməkdaşlığının digər vacib sahəsi turizmdir. 1992-ci ildə Turizm sahəsində əməkdaşlıq haqqında saziş imzalandıqdan sonra Türkiyəyə səfər edən İsrail turistlərinin sayı nəzərəçarpan dərəcədə artmışdı (17). Turizm sahəsində İsrailli turistlər Türkiyəli həmkarları ilə müqayisədə sayca üstünlük təşkil edirdilər. Müqayisə üçün 1995-ci ili nümunə göstərmək kifayət edir. Belə ki, həmin il İsraildən Türkiyəyə gələn turistlərin sayı 287 000 nəfər təşkil etmiş, Türkiyədən İsrailə gedən turistlərin sayı isə cəmi 11 767 nəfər olmuşdu (18). Müşahidə edilən disproporsiyanın əsas səbəbi Türkiyə otellərinin və oradaki kazinoların ucuzluğu ilə izah olunur. Digər tərəfdən türkiyəli turistlərin İsrailə səfər etməsi baha başa gəldiyindən, onlar daha çox Avropa ölkələrinə üz tutur (19, 90).

İki ölkə turistlərin bir birlərinə gediş gəlişi 90-cı illərin sonlarınadək artan templə davam edirdi. XXI əsrdə bu tendensiya davam etsə də, müəyyən illərdə İsraildən Türkiyəyə gələn turistlərin sayında kəskin azalmalar da müşayiət olunurdu. Bunun başlıca səbəbi həmin dövrlərdə ölkələrarası münasibətlərin gərginləşməsi idi. Digər əməkdaşlıq sahələrinə də təsir göstərdiyi kimi, gərgin münasibətlərin turizm sahəsinə də təsirsiz ötüşmürdü (20).

Aşağıda göstərilən cədvəldə bunu daha aydın müşahidə etmək mümkündü.

Cədvəl 2



Cədvəl 2 dən də göründüyü kimi, İsraildən Türkiyə gələn turistlərin sayı 2008-ci ildə özünün pik nöqtəsinə çataraq 558 183 min nəfər təşkil etmişdi. İsrail tərəfindən 2008-ci ilin dekabr ayının 27-də Qəzzə zolağında "Tökmə qurquşun" adlı əməliyyatın həyata keçirilməsi Türkiyə-İsrail arasındakı münasibətlərə növbəti gərginlik gətirdi. 2009-cu ildə Davosda keçirilən Dünya İqtisadi Forumda Türkiyənin Baş naziri Rəcəb Tayıp Ərdoğan İsrailin prezidentini ölkəsinin Qəzzada apardığı siyasətə görə sərt tənqid etdi. 2010-cu ildə isə "Mərmərə donanması" insindenti ölkələrarası münasibətlərə demək olar ki, son qoydu.

Baş verən hadisələr nəticəsində İsraildən Türkiyəyə gələn turistlərin sayı kəskin surətdə azaldı. Belə ki, 2009-cu ildə 311 582 min 2010 və 2011-ci illərdə isə müvafiq olaraq 109 559 mindən 79 140 min nəfərədək azalaraq XXI əsrin tarixi minimumuna düşdü. Sonrakı illərdə turistlərin sayı tədricən artmağa başlasa da, 2008-ci il maksimumunun reallaşması hələ ki mümkün görünmür.

NƏTİCƏ

Birincisi, Mavi Mərmərə böhranından sonra iki dövlət arası siyasi münasibətlərin gərginləşməsinə baxmayaraq, ölkələrarası iqtisadi əlaqələr davam etmişdir. Ticarət dövriyyəsində enib-qalxma müşahidə olunsa da, ümumilikdə 2010-cu il ilə müqayisədə, nəzərə çarpan səviyyədə artım mövcud olmuşdur.

İkincisi, son zamanlar İsraildə aşkar olunan neft və qaz yataqları ölkələrin bir-biri ilə daha da sıx əməkdaşlıq etməyə sövq edir. Belə ki, İsrail tərəfi öz enerji məhsullarını dünya bazarlarına çıxartmaq üçün ən sərfəli və təhlükəsiz marşrutun məhz Türkiyə ərazisi olduğunu başa düşür.

Üçüncüsü, Qərbin təhlükəsizliyi üçün Türkiyənin əhəmiyyəti azalmağa başlayır və düz mütənasiblik yaranaraq Türkiyənin özünün də təhlükəsizliyinin təminatçısı olan NATO-ya inamı azalır. Belə olan halda, dövlət öz milli maraqlarını, təhlükəsizliyini qoruyub saxlamaq üçün Yaxın Şərqdə yerləşən qonşuları ilə əlaqələrini genişləndirməyə çalışır.

MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. *Efraim Inbar, Türk-İsrail Stratejik Ortaklığı (Ankara: ASAM Yayınları, 2001, 43).*
2. *Dünya qəzeti. 24.02.1996*
3. *Zaman qəzeti. 16.12.1997*
4. *http://www.economy.gov.tr*
5. *Cumhuriyet. 15.03.1996; İstanbul Ticaret. 22.03.1996.*
6. *Interview with PM Netanyahu- Turkish Daily News - 03-Sep-98// Official website of the MFA of Israel//www.mfa.gov.il./*
7. *Розов А.А О турецко-израильских отношениях// Сайт института Ближнего Востока РАН //www.iimes.ru/facets of the Israeli Economy. Hi - tech sector // Official website of the MFA of Israel//www.mfa.gov.il./*
8. *Amikam Nachmani, 2003, MANCHESTER UNIVERSITY PRESS, Manchester and New York, Turkey: facing a New Millennium, 227.*
9. *http://www.animaweb.org/en/israel-and-turkey-study-ceyhan-ashkelon-pipeline-project*
10. *https://eurasianet.org/node/65374*
11. *http://www.jewishvirtuallibrary.org/oil-and-natural-gas-in-israel*
12. *http://www.energy-sea.gov.il/English- Site/Pages/Oil%20And%20Gas%20in%20Israel/History-of-Oil--Gas-Exploration-and-Production-in-Israel.aspx*
13. *http://www.washingtoninstitute.org/policy-analysis/view/turkish-water-to-israel*
14. *https://www.jewishvirtuallibrary.org/israel-turkey-water-cooperation*
15. *Milliyet, 10.04.1998-30.04*
16. *http://www.hidropolitikakademi.org/en/international-water-transfer-projects-of-turkey.html*
17. *http://www.jewishvirtuallibrary.org/turkey-israel-relations*
18. *http://www.mepc.org/journal/middle-east-policy-archives/turkish-israeli-relations-their-rise-and-fall*
19. *Türel Yılmaz, Türkiye-İsrail Yakınlaşması (Ankara: İmaj Yayınevi, 2001, 90).*
20. *http://aa.com.tr/en/middle-east/turkish-israeli-relations-a-timeline/687404*

Açar sözlər: *Türkiyə, İsrail, iqtisadiyyat, energetika, strateji əməkdaşlıq.*
Keywords: *Turkey, Israel, economy, energy, strategic cooperation.*
Ключевые слова: *Турция, Израиль, экономика, энергетика, стратегическое сотрудничество.*

Сотрудничество между Турцией и Израилем в торгово-экономической сфере и его основные направления.

РЕЗЮМЕ

В статье исследуются двухсторонние экономические связи, каса-ющихся различных отраслей. Приводятся статистические данные, отра-жающие всесторонние показатели исследованных отраслей экономики.

В частности в статье изучены отношения в таких отраслях как торговля, энергетические и туристические сектора экономики. В статье подробно указываются времена подъёмов и спадов экономического сотрудничества между двумя странами, а так же причины этих спадов.

Автор представляет читателю информацию о роли Турции в качестве транзитного хаба не только в энергетической сфере, но и в других. Так же, подчёркивается роль экономического сотрудничества во всестороннем сближении стран.

Trade-economic cooperation and its main areas between Turkey-Israel

SUMMARY

The article studies the bilateral economic relations concerning different fields. Provides statistical data on the comprehensive indicators of the studied economic sectors.

In particular, the article examines relations in such sectors as trade, energy and tourism sectors of the economy. The article details the rise and fall times of economic cooperation between the two countries, as well as the causes of these declines.

The author provides the reader with information about the role of Turkey as a transit hub not only in the energy sector, but also in others. Also, the role of economic cooperation in the comprehensive rapprochement of countries is emphasized.

Tarix

"BÖYÜK QAFQAZ SƏDDİ"NİN TARİXİ VƏ KATEX ABİDƏLƏRİ

AKİF MƏMMƏDLİ
Tarix üzrə fəlsəfə doktoru, AMEA Şəki Regional Elmi Mərkəzin elmi işçisi

Azərbaycanın şimal-qərb bölgəsi tarixən çox zəngin mədəni irsə sahib olmuşdur. Bölgənin qərbində sonuncu rayon olan Balakən (Zaqatala, Qax və Şəki rayonlari da eynilə) arxeoloji cəhətdən az öyrənilsə də buradakı yerüstü abidələr: Alban məbədlərinin, Qalaların, Sədd və İstehkamların çoxluğu burada çox zəngin tarixi, mədəni irsin bu gün də qalmaqda olduğunu deməyə əsas verir.

Balakən rayonunda ən böyük kəndlərdən biri olan Katex kəndində isə tarixi abidələr daha zəngin və daha qədimdir. Buradakı tarixi abidələrdən ən möhtəşəmi İran mənbələrində "Kala Sur" (yəni- "Nəhəng Sədd", "Böyük Divar") adlanan "Böyük Qafqaz Səddi"dir.

19-cu yüzilliyin əvvəllərində Rusiyanın Azərbaycanın bu bölgəsini də işğal etməsindən sonra XIX əsr rus və sonrakı Sovet tarixi ədəbiyyatında həmin müdafiə qurğusu "Zaqatala Səddi" adlandırılmışdır. Təəssüf ki, bu möhtəşəm tarixi abidəmiz az tədqiq olunmuş və tarixi ədəbiyyatlarda az işıqlandırılmışdir.

Əsrlər boyunca çox az dağıntılara məruz qalmış bu Sədd, 1847-ci ildə qəddar rus generalı Şvarts tərəfindən ən ciddi dağıntıya məruz qalıb. Belə ki, həmin gün Zaqatala qalasına köməyə gələn general Şvarts bu Səddin yaxınlığında yerli sakinlərlə Şeyx Şamilin birləşmiş dəstəsi ilə döyüşdə ağır məğlubiyyətə uğramış və bu biabırçı "məğlubiyyətin heyfini" yerlilərin səngər kimi istifadə etdiyi bu Səddən çıxmış, onun xeyli hissəsini dağıtmışdır. Knyaz N.A.Volkonskinin həmin dövrdə yazdığı raportda bu barədə ətraflı məlumat verilib[1].

N.A.Volkonskinin məlumatına görə, Katexdəki qədim Sədd Katex çayınadək 5 km məsafədə tam salamat olub və 1847-ci il may ayının 5-də Şvartsın dəstələri ilə Şamil arasında baş vermiş döyüşdən sonra bu sədd rus əsgərləri tərəfindən dağıdılmağa başlanmışdı. 1847-ci ildə general Şvartsın Balakən dairəsindən başqa yerə göndərilməsi barədə əmrin verilməsi, bu Səddin tamamilə dağıdılmasının qarşısını aldı.

Mənbələrin məlumatına görə uzunluğu 120 km, hündürlüyü isə 6 metrədək, bəzi yerlərdə isə 8 metrədək olan Səddin qalıqları bu gün Balakən rayonunun Katex kəndində, qismən də Zaqatala rayonunun Muxax kəndində qalmaqdadır.

E.A.Paxomov da bu səddin tarixini araşdırmış və onun 6-cı yüzillikdə şimaldan hücum edərək, İranin içərilərinədək

gedib çıxan türklərin hücumlarının qarşısını almaq üçün Sasani hökmdarı Xosrov tərəfindən tikildiyini yazırdı[2].

19-cu yüzillikdə bir çox səyyahlar, tədqiqatçılar və bölgədə xidmət etmiş rus zabitləri, o cümlədən, A.Poserbski, Fon-Plotto, K.F.Qan, K.Nikitin, A.S.Xaxanov da bu möhtəşəm tarixi abidə ilə maraqlanmışlar.

Həmin dövr müəlliflərinin məqsədli, yaxud məqsədsiz bir yanlışlıqları var idi: bəziləri bu Səddin Makedoniyalı İsgəndər, bəziləri isə gürcü çarıçası Tamar tərəfindən tikildiyini yazırdılar.

E.A.Paxomovun fikrincə, Səddin yanında bitən çox nəhəng ağaclar, dərələr qarşısında mazğalı və müxtəlif müdafiə qurğuları olan qüllələrin olması, onun çox böyük əhəmiyyəti olduğunu deməyə əsas verir.

19-cu yüzillikdə "Böyük Qafqaz Səddi"nin tarixini və təyinatını müəyyən etməyə çalışanlardan biri də K.Nikitin olmuş və o da abidə ilə bağlı maraqlı fikirlər irəli sürmüşdür. Onun fikrinə görə, dərə və dağ cığırlarının qarşısında qüllə və digər müdafiə qurğularının tikilməsi şimaldan dağ və dərə yolları ilə Yelisen düzənliyinə (Şimal-Qərbi Azərbaycan bəzən belə adlandırılırdı-M.A.) gələn, buraya hücum edən axınların qarşısını almaq üçün idi[3].

10-cu əsr ərəb müəllifləri İbn-əl-Fəqih və əl-Bəlazuri də bu Sədd haqqında məlumat vermişlər ki, təkcə bu fakt bəhs etdiyimiz Səddin daha əvvəl, yəni 10-cu əsrdən daha əvvəl tikildiyini sübut edir.

226-cı ildə İranda hakimiyyətə yiyələnmiş Sasanilər daha sonra Cənubi Qafqazı da ələ keçirdikdən sonra, buradaki yerli əhali ilə yaxın və qohum olan hunların, sabirlərin, xəzərlərin buraya axınları xeyli artmışdı. Onlar yerli əhali ilə birləşir və Sasanilər üçün ciddi təhlükəyə çevrilirdilər. Buna görə də Sasani hökmdarı Qubad (hakimiyyət illəri 488-531) və Xosrov Ənuşirəvan (hakimiyyət illəri 531-579) bu cür yürüşlərin qarşısını almaq üçün tədbir görməyə, Səddlər çəkdirməyə, qalalar tikdirməyə, burada hərbi qarnizonlar yerləşdirməyə məcbur olmuşlar. Azərbaycanın şimal-qərb bölgəsindəki "Böyük Sədd" məhz bu dövrdə tikilmişdir[4].

10-cu əsr ərəb tarixçisi əl-Bəlazurinin yazdığına görə, Bab-ül-Əbvabdan (Dərbənddən) Bab-Alanadək (Alan keçidi, Alan qapısı) olan ərazidə Sasanilər 360-adək qala tikdirmiş, Nəhəng Sədlər inşa etdirmişdilər.

Azərbaycan alimlərindən A.Ələsgərzadə 1936-cı ildə SSRİ EA-nın Azərbaycan SSR Filialı tərəfindən bölgəyə Səddin tarixini araşdırmaq üçün göndərilmişdi. Azərbaycanın şimal müdafiə istehkamlarını araşdıran tədqiqatçı F.Qədirov da Sədd barədə apardığı araşdırmanın yekunu olaraq, daha öncə qeyd etdiyimiz fikrin doğruluğunu qeyd edib[5].

Katex kəndi ərazisində xüsusi diqqətçəkən tarixi abidələrdən biri də bizim şərti olaraq "Yuxari Katex Məbədi" adlandırdığımız erkən orta əsrlərə aid Alban məbədidir. Kəndin lap yuxarı başında, Kilsə çayın sol sahilində, "Kilsə dağ"ın nisbətən düzən hissəsində tikilən bu məbədin ətrafında əlavə tikililərin olduğu açıqca görünür. Bu məbəd dünyaca məşhur olan Kiş Məbədi ilə xeyli oxşar olmaqla bərabər, həm də özünəməxsus cəhətlərə də malikdir.

Katex həm də İslam dövrü abidələri ilə çox zəngindir. İlkin araşdırmalar nəticəsində məlum olur ki, 18-19-cu əsrlərdə burada bir neçə məktəb və mədrəsələr fəaliyyət göstərmişdir. Bunlardan birinin ərazisində sufilərin "sınaq yeri" olan "çiləxana" da üzərindəki kitabəsi ilə birlikdə qalmaqdadir. AMEA-nın Əlyazmalar İnstitutunun əməkdaşları Z.Orucov və Ə.Niyazovla birlikdə aparılan ilkin araşdirmalar burada onlarla, hətta yüzlərlə tədqiq olunmamış əlyazma və elmi əsərlər, bir sözlə şox zəngin "xəzinə" vardir. Təkcə bir şəxsə-Ömər ibn Məhəmməd əl-Katexiyə aid bir neçə elmi əsər, o cümlədən "Ərəb dilinin yetmiş qızıl qaydası" adlı əsər üzə çıxarıldı. Əl-Katexinin nəvə-nəticələrinin bildirdiyinə görə, təkcə 1930-cu illərdə bu evdən "altı kəl arabası" kitablar aparılıb və yandırılıb. Bu nadir kitablardan biri hicri 958-ci ildə (təxminən 500 yüz il əvvəl) Molla Teyyub əl-Katexi tərəfindən qələmə alınan əsərdir. İslamşünas tədqiqatçı alim Ə.Niyazovun fikrinə görə, ayrı-ayrı əlyazma və kitabların ilk və son səhifələrində, səhifələrin kənarında Teyyub əl-Katexi, Ömər ibn Məhəmməd əl-Katexi, yaxud dövrünün digər müəlliflərinə məxsus qeyd və şərhlər həmin dövrün sosial-siyasi, iqtisadi və mənəvi durumunu çox aydın təsvir edir və tədqiqatçılar üçün mənbə rolu oynaya bilər.

Bu qədim kənd ərazisində hətta piktoqramlara da (şəkli yazılara) rastlanır və burada qədim insan məskənlərinin olduğunu deməyə əsas verir. Bu abidələr də öz tədqiqatçısını gözləyir.

Açar sözlər: *Böyük Qafqaz Səddi, qala, məbəd, Yuxarı Katex məbədi, hun, xəzər, sabir.*

Key words: *The Great Caucasus Wall, castles, temple, Katekhs Temple, hunn, khazar, sabir.*

Ключевые слова: *Большая Кавказская Стена, крепосты, храмы, храм Верхнего Катеха, гунны, хазары, савиры.*

SUMMARY

Akif Mammadli-doktor of Philosophy (Ph.D) in History

"The Great Caucasus Wall" and Katekh monuments

The North West region of Azerbaijan is rich in historical monuments. One of the wonderful historikal monuments is the Great Caucasus Wall which waz built in the sixth century. It is situated in the village Katekh. Besides them there are Alban churches, castles, towers, mosques and medresses built in the Middle Ages. Even pictograms were are ancient settlements in this region.

РЕЗЮМЕ

Акиф Мамедли-доктор философии по истории, научный сотруднил НАНА

«Великая Кавказская Стена» и Катехские памятники.

Северо-западный регион Азербайд жана богата древными историческими памятниками. Самым значительным из этих памятников являются останки Болъшой Кавказской Стены, расположенные в селе Катех Белоканского района и которые датируются 6-м веком. Помимо этого здесь расположены древние Албанские храмы, крепости, сторожевые башни, средневековые мечети и медресе. Также обнаружены пиктограммы, которые являются доказательством факта о том, что этот регион населяли древние люди.

ƏDƏBİYYAT

1. Архивные материалы МВД Груз. ССР. Шамиль ставленник султанской Турции и английских колонизаторов(Сборник документальных материалов) Тбилиси, 1953, 560с.

2. Пахомов Е.А. Закатальская стена. Труду АГУ. Выпуск I, Баку, 1950, с.68-90.

3. Никитин К. Елисени. «Кавказ», Тфл.,1864, № 9, с.451.

4. Məmmədli A. Azərbaycanın Şimal-Qərb bölgəsinin tarixi abidələri (monoqrafiya), Bakı, 2013, 225 s.

5. Qədirov F.V. Azərbaycanın şimal müdafiə istehkamlari. Bakı, "Elm", 1984, 152 s.

İNSAN KAPİTALININ İQTİSADİ SƏMƏRƏLİLİYİNİN YAXŞILAŞDIRILMASI

MANSUR MƏDƏTOV
İqtisad üzrə fəlsəfə doktoru

Inkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, insan kapitalının inkişafı iqtisadiyyatın yaxın və uzaq gələcəkdə dinamik və keyfiyyətli inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir.

İnsan kapitalının yüksək səviyyəsi və keyfiyyətinin olması nəticəsində inkişaf etməkdə olan ölkələr hər nəfərə düşən ÜDM-in sabit artımını, əhalinin yüksək və keyfiyyətli həyat səviyyəsini təmin etmiş olur. Beləliklə, biliyə əsaslanan iqtisadiyyata keçid sivilizasiyanın təkamülündə yeni mərhələ olub maddi istehsalın inkişaf keyfiyyətini müəyyən edir (6).

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin təəbirincə desək: "İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, onlarda uğurun əsas səbəbi neft-qaz deyil, bilikdir, savaddır, müasirlikdir. Bizdə isə həm bu olmalıdır, həm də təbii ehtiyatlar da var. Bu amillərin sintezi Azərbaycanı çox qabaqcıl, müasir ölkəyə çevirəcəkdir".

Dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət bütün sferalarda köklü dəyişikliklər əldə olunmasına imkan vermişdir. O post-neft dövründə qeyri-neft sənayesinin inkişafını prioritet məsələlərdən biri kimi qarşıya qoymuşdur. Bu baxımdan neft kapitalını insan kapitalına çevirmək siyasəti aparılan elmi tədqiqatlarda da özünü göstərməkdədir. Heç şübhəbiz ki, biz iqtisadçılar da bu məsələdə öz töhfəmizi verə bilərik. Dünya təcrübəsi göstərir ki, insan kapitalının inkişafı ölkənin, əhalinin gəlirlərinin artımına gətirib çıxarır. Müasir tələblər baxımından insan kapitalının formalaşmasının, iqtisadi səmərəliliyinin ölçülməsi və ondan istifadənin yaxşılaşdırılması problemi aktual əhəmiyyət kəsb edir.

İnsan kapitalının səmərəliliyi metodları

Səmərəliliyin təhlilinə keçməzdən öncə səmərəlilik anlayışını nəzərdən keçirək. Səmərəlilik nisbi kəmiyyət olub, əldə edilmiş nəticənin onun əldə edilməsi üçün sərf olunan xərclərə nisbəti kimi hesablanır.

Hazırda insan kapitalından istifadənin səmərəliliyinin ölçülməsinin çoxlu yanaşma və metodları mövcuddur. Onlardan əsaslarını nəzərdən keçirək.

Təcrübədə istifadə olunan əsas qiymətləndirmə metodlarını üç qrupa bölmək olar: kəmiyyət, keyfiyyət (təsviredici) və kombinələşdirilmiş (və ya aralıq).

Kəmiyyət metodlarına bal, əmsal, sıralama qaydası metodu, müqayisə cütlükləri metodu, qrafik profil sistemi, "eksperiment" metodu və i. a. aiddir. Keyfiyyət (təsviredici) metodlarına şifahi və yazılı xasiyyətnamələr, etalon metodu, matris və bioqrafik metodlar, qrup halında diskussiya metodu aiddir. Kombinələşdirilmiş metodlara həvəsləndirici qiymətləndirmələr,

işçilərin qruplaşdırılması, testləşdirmə misal ola bilər. Kombinələşdirilmiş metodlar müəyyən mənada kəmiyyət və keyfiyyət qiymətləndirmələrini özündə cəmləşdirir.

İnsanın real iş şəraitində fəaliyyəti və onun işgüzar keyfiyyətləri haqqında məlumatların toplanması "360 dərəcə" qiymətləndirmə adlanır. Belə informasiyalar isə bu insanla müxtəlif səviyyələrdə ünsiyyətdə olan insanlardan (müdir, həmkarlar, tabeliyində olanlar, müştərilər) toplanılır. Qiymətləndirilən ilə işdə ünsiyyətdə olan insanlardan informasiyanın toplanması "360 dərəcə" qiymətləndirməni kifayət qədər etibarlı alətə çevirir. Bu işdə ekspert kimi iddiaçının özü də cəlb oluna bilər. Sonradan bu məlumatlardan istifadə etmək və qiymətləndirilənlə bərabər onun fərdi inkişaf planının hazırlanması üçün ondan iş davranışını və peşəkar keyfiyyətlərini qiymətləndirmək xahiş olunur.

Bir çox qərbyönümlü şirkətlər heyətin işgüzar keyfiyyətlərini qiymətləndirmək üçün beş ballıq sistemdən istifadə edirlər.

5 - ən mürəkkəb şəraitdə iş keyfiyyətlərini nümayiş etdirməyə, onları inkişaf etdirməyə və digərlərini öyrətməyə imkan verən ustalıq səviyyəsi;

4 – iş keyfiyyətlərini təkcə standart deyil, eyni zamanda mürəkkəb şəraitdə də nümayiş etdirməyə imlan verən genişləndirilmiş təcrübə səviyyəsi;

3 – bir çox iş şəraitində iş keyfiyyətlərini nümayiş etdirməyə imkan verən baza təcrübəsi səviyyəsi;

2 – işgüzar keyfiyyətin həmişə nümayiş olunmadığı inkişaf səviyyəsi, lakin bu zaman əməkdaş onu nümayiş etdirməyin vacibliyini başa düşür və onu inkişaf etdirməyə çalışır;

1 – heç bir iş keyfiyyəti yoxdur (4).

Həlledici vəziyyət üzrə qiymətləndirmə metodundan istifadə üçün qiymətləndirmə mütəxəssisləri həlledici vəziyyətlərdə işçilərin "düzgün" və "düzgün olmayan" davranışlarının siyahısını hazırlayırlar. Bu təsvirlər işin xarakterinə müvafiq olaraq rubrikalara paylanır. Sonra qiymətləndirici şəxs qiymətləndirilən hər bir işçi üçün qeyd jurnalı hazırlayır və oraya hər bir rubrika üzrə davranış nümunələri yazır. Sonradan əməkdaşın iş keyfiyyətləri qiymətləndirilərkən bu jurnaldan istifadə olunur. Adətən bu metoddan rəhbərlər istifadə edirlər.

Davranış parametrlərini qiymətləndirmə metodu həlledici vəziyyətlərdən istifadəyə əsaslanır. Bu zaman işçinin tələb olunan işgüzar və şəxsi keyfiyyətləri götürülür və onlar qiymətləndirmə meyarına çevrilir. Qiymətləndirici reytinq anketindəki hər hansı bir qiymətləndirmə meyarının (məsələn, mühəndislik qabiliyyəti) təsvirini oxuyur və qiymətləndirilənin səviyyəsinə müvafiq olaraq şkalada qeyd aparır. Bu baha başa gələn və əməktutumlu metod olsa da, işçilərə aydın və əlçatandır.

Davranışın müşahidə edilməsi metodu əvvəlkinə oxşayır, lakin həlledici vəziyyətdə işçinin davranışını müəyyən etmək əvəzinə qiymətləndirici işçinin özünü bu və ya digər spesifik şəkildə apardığı halların sayını şkalada qeydə alır. Metod əməktutumludur və əhəmiyyətli maddi xərc tələb edir.

Anket və müqayisəli anket metodu işçinin davranışının təsvirini daxil edir. Qiymətləndirici onun fikrincə işçiyə xas olan keyfiyyətin qarşısında işarə qoyur, əks halda oranı boş qoyur. İşarələrin cəmi işçinin anketinin ümumi reytinqini verir. Rəhbərlik, həmkarlar və tabeliyində olanlar tərəfindən qiymətləndirmə üçün istifadə olunur.

Müsahibə metodu heyətlə iş şöbələri tərəfindən sosiologiyadan götürülüb və ölçmə zamanı təşkilatda aktual olan qiymətləndirmə

istiqamətlərini özündə cəmləşdirir.

Özünü qiymətləndirmə prosesi vasitəsilə insanlar öz səmərəliliyini, bacarıqlarını, qabiliyyətlərini və digər keyfiyyətlərini ölçür. Şirkətlər özünü qiymətləndirmə metodundan işin səmərəliliyinin qiymətləndirilməsi, "360 dərəcə" qiymətləndirmə metodlarının bir hissəsi kimi, hətta seçim zamanı istifadə edirlər. Amerika şirkətlərinin təxminən 5%-i özünü qiymətləndirmənin bəzi növlərindən öz əməkdaşlarının səmərəliliyini qiymətləndirərkən istifadə edirlər. Məsələn, bəzi şirkətlərdə özünü qiymətləndirmə metodundan əməkdaşların işinin səmərəliyini qiymətləndirən rəhbər üçün onlar haqqında informasiya toplanması məqsədilə istifadə olunur. Digər şirkətlər əməkdaşların özünü qiymətləndirmə və rəhbərlərin əməkdaşları qiymətləndirmə nəticələrini müqayisə edirlər.

Ümumiyyətlə isə bütün bu qiymətləndirmə metodları içərisində ən geniş yayılmışları kəmiyyət metodlarıdır (xüsusilə, bal, əmsal, bal-əmsal). Onların üstünlüyü obyektivlik, ekspertin mütəxəssisə şəxsi münasibətindən asılı olmamaq, nəticələrin sistemləşdirilməsi, parametrlərin müqayisəsi, riyazi metodlardan istifadə imkanıdır.

İqtisadi səmərəlilik işçi tərəfindən görülən işin həcmindən, tamlığından, keyfiyyətindən və s. asılıdır. Səmərəlilik səviyyəsini müəyyən etmək üçün müvafiq meyar və göstəricilər lazımdır.

İqtisadi səmərəliliyin komponentlərini nəzərdən keçirək:

- işçinin gördüyü işin nəticələrinin ona çəkilən məsrəflərə nisbəti;

- işçinin təşkilatın uzunmüddətli perspektivdə inkişafına verdiyi töhfə komponentləri. Onlara aiddir:

kadr tərkibinin varisliyində, onlara verilmiş tapşırıqların yerinə yetirilməsinin etibarlılığında, gərginlik və münaqişələrin olmamasında təcəssüm edən sabitlik;

heyətin yeni şəraitə uyğunlaşma, təşkilati dəyişikliklərə fəal dəstək olma və lazım gəldikdə innovasiya konsepsiyalarının reallaşması üçün münaqişələrə hazır olma qabiliyyətini bildirən çeviklik.

İnsan kapitalının keyfiyyətinin yüksəldilməsi

Ümumiyyətlə, təşkilatın uğurlu fəaliyyəti bütün mövcud resurslardan, xüsusilə insan kapitalından daha səmərəli istifadə etmək qabiliyətindən asılıdır. Lakin insan kapitalının səmərəliliyinin artırılması üsulları digər resurslardan köklü surətdə fərqlənir. Belə ki, o insanların motivasiyası və ya onların məqəsdlərinə

təsir etməklə təmin olunur. Intellektual işçilərin motivasiyasının spesifikası ondan ibarətdir ki, onların məqsəd və maraqları həm iqtisadi, həmçinin yaradıcı tərkibə malikdir. İntellektual işçinin motivasiyası onun səmərəliliyindən, başqa sözlə qarşıya qoyulmuş məqsədə çatmasından asılıdır. Əgər onun işi səmərəli deyilsə, onda tezliklə işləmək və fayda vermək həvəsi öləcək. Bununla əlaqədar olaraq insan kapitalından istifadənin səmərəliliyinin yüksəldilməsi müasir iqtisadiyyatın prioritetinə çevrilməlidir. Çünki gələcək inkişaf insan kapitalından asılı olacaqdır.

İnsan kapitalının səmərəliliyinin ölçülməsinin mürəkkəbliyi onun fiziki kapitaldan fərqliliyi ilə əlaqədardır. Belə ki, fiziki əmək sahibinin fəaliyyəti istehsal olunmuş məhsulun kəmiyyət və keyfiyyətinə görə qiymətləndirilir. İntellektual işçi məhsul istehsal etmir. İntellektual işçinin məhsulu – bilik və ideyadır. Bu əmtəənin reallaşması konkret nəticələr əldə etmək üçün ondan istifadə edərkən baş verir. Başqa sözlə, intellektual fəaliyyətlə məşğul olan işçi işə səmərəlilik (özü də təkcə özünün deyil, həmçinin həmkarlarının işinə də) gətirməlidir. Öz növbəsində, təşkilatın insan kapitalını təşkil edən intellektual işçinin səmərəliliyi onun aktual məsələləri həll etmək bacarığında əksini tapır. Təşkilatın uğurlarını yüksəltməyin üsulu belə işçilərin əməyinin səmərəliliyini artırmaqdan ibarətdir.

Səmərəlilik keyfiyyət meyarıdır. Əmək məhsuldarlığı insan kapitalının səmərəliliyinin ənənəvi göstəricisidir. Belə ki, intellektual işçinin məhsuldarlığı aşağıdakı amillərlə müəyyən edilir:

1. Məhsuldarlıq istehsal tapşırığının nədən ibarət olması sualına cavab tələb edir. Çünki intellektual əməyin xüsusiyyəti yekun nəticə ilə müəyyən olunur. Başqa sözlə, o özü üçün istehsal vəzifəsi müəyyən etməlidir.

2. Məhsuldarlığa görə məsuliyyət bütövlükdə işçinin öz üzərinə qoyulur. İntellektual işçilər özləri özlərini idarə etməlidirlər, həmçinin vəzifə öhdəliklərini yerinə yetirərkən onlara müstəqillik lazımdır.

3. Fasiləsiz innovasiya fəaliyyəti əqli işin ayrılmaz hissəsi olmalı və əqli əmək sahibinin istehsal vəzifəsinə daxil edilməlidir; o yeniliklərin tətbiqinə görə cavabdeh olmalıdır. Çünki dəyişiklik, təkmilləşdirmə yaradıcı fəaliyyət hesab olunur.

4. Əqli əmək sahibi bir tərəfdən həmişə öyrənir, digər tərəfdən isə həmişə öyrədir. Birincinin səbəbi özünü təkmilləşdirmə və inkişaf motivasiyası, ikincininki isə, təşkilatda intellektual işçinin bilik səviyyəsini yüksəltmək və məhsuldarlığın artırılması üçün biliklərinin bir qismini həmkarlarına ötürməsidir.

5. Əqli əmək sahibinin məhsuldarlığı kəmiyyət və ya həcmlə ölçülmür. Ən azından bu əsas göstərici deyil. İntellektual işçinin məhsuldarlığının əsas göstəricisi qarşıya qoyulmuş vəzifənin yerinə yetirilməsinin keyfiyyətidir.

İnsan kapitalından istifadənin ölçülməsi

Hazırda insan kapitalından istifadənin iqtisadi səmərəliliyinin ölçülməsinin müxtəlif yanaşmaları mövcuddur.

Fitsents Y. tədqiqat apararkən, insan kapitalına investisiyaların qayıtmasını hesablayarkən gəliri əməkdaşların sayına bölürdü. Bu 1985-ci ildə insan resurslarının səmərəliliyi haqqında məruzədə meydana çıxmış ilk göstərici idi. İnsan kapitalına investisiyaların qayıtma əmsalı onun tərəfindən təklif olunub (5).

İnsan kapitalına investisiyaların qayıtma əmsalı

= [Mənfəət - (Xərclər - [Əməkhaqları + İmtiyazlar])]:Əməkhaqları + İmtiyazlar, başqa sözlə HCROI = Re venue - (Expenses - [Pay + Benefits]) / (Pay + Benefits)

İnsan kapitalının iqtisadi səmərəliliyinin göstəricilərindən biri istehsalın intellektuallıq səviyyəsidir (və ya istehsalın ixtisastutumluğudur). O təhsil fondunun (intellektual kapital) ümumi milli məhsula nisbəti kimi hesablanır və təhsil fondunun nə qədər pul vahidinin istehsal olunmuş məhsulun dəyər vahidinə düşdüyünü göstərir:

İS = TF / ÜMM burada ÜMM – ümumi milli məhsuldur;

TF – ümumi təhsil fondunun pulla ifadəsi.

T.Şultsun metodologiyasına əsasən ümumi təhsil fondunun həcmi hər bir səviyyənin bir illik təhsil dəyəri (itirilmiş gəlirlər daxil edilməklə) ölkə əhalisinin bu və ya digər zaman ərzində topladığı təhsilin insan-il sayına vurulmasına bərabərdir. C.Kendrik təhsil fondunun həcmini bilik və qabiliyyətlər amortizasiyası nəzərə alınmaqla xüsusi hazırlanmış indekslərin köməkliyi ilə müəyyən edirdi (3).

Artıq qeyd edildiyi kimi insan kapitalının mövcudluğu və inkişafının əsas amili intellektual kapitala investisiya qoyuluşudur.

Verim normasının təxmini qiymətləndirilməsinin digər metodu işçinin əməkhaqqı səviyyəsi ilə onun təhsil səviyyəsi arasında statistik asılılığın təhlilinə əsaslanır.

Daxili verim norması təhsildən gələcək mənfəət həcminin onun xərclərinin həcminə bərabərliyini əks etdirir:

burada r – daxili verim norması.

R yüksək olduqca, təhsilə investisiyalar daha da mənfəətli olur. Xalis gəlirin mütləq həcmi və onun əldə edilməsinə çəkilən vaxt nəzərə alınmaqla ali təhsilin mənfəət norması aşağıdakı tənlik şəklində hesablanır:

burada t – insanın yaşı;

Et – ali təhsil aldıqdan sonra t yaşında insanın əməkhaqqısının artımı;

Ct – t yaşında insanın ali təhsilə çəkdiyi xərclər;

n – fərdin ali məktəbdə oxumağa başladığı yaşı;

N – insanın əmək fəaliyyətinini bitirərək təqaüdə çıxdığı yaşı;

r – ali təhsilin mənfəət norması.

Təxmini olaraq bu göstəricini aşağıdakı kimi hesablamaq olar:

r = (DB – Dc) / Co, burada

DB – ali təhsilli şəxslərin ömürlük gəlirləri;

Dc - orta təhsilli şəxslərin ömürlük gəlirləri;

Co - ali və orta təhsilə çəkilən xərclərin məbləğləri arasındakı fərq.

Q. Psaxaropulos adambaşına düşən gəlir səviyyəsinə görə ölkələr üzrə təhsilə investisiyaların sosial verim dinamikasının məlumatlarını göstərir. İnkişaf etməkdə olan yoxsul ölkələrin əksəriyyətində ibtidai təhsilin sosial verimi 23%, orta - 15%, ali - 11%-dir. Yüksək gəlirli inkişaf etmiş ölkələrdə bu göstəricilər müvafiq olaraq aşağıdakı kimidir: ibtidai təhsil 14 %, orta - 10 %, ali - 8 % (1).

Qeyd edək ki, təhsil sahəsində dövlət siyasəti hazırlanarkən bu ölkələrin bir sıra hökumət strukturları aşkar və ya hesablaşma diskont dərəcəsindən istifadə etməyə başlayırlar. Bu isə ictimai təhsil sahəsində layihələrin qiymətləndirilməsi zamanı 8%-dən aşağını təşkil edir.

Ali və orta təhsilin təhlili nəticəsində əldə etdiyimiz qənaətdən məlum olur ki, birincilərin orta verimi 16%, ikincilərininki isə 11%-dir. Burada da həlledici amil xərclərdir: akademik təhsilə nisbətən peşəkar təhsil daha çox xərc tələb edir.

Artıq müair iqtisadiyyatın əksər liderləri insan kapitalına investisiyaların balanslaşdırılmasını, onların dövlətin gələcək inkişafı və çiçəklənməsi üçün vacibliyini qəbul etmişlər. Transmilli şirkət olan "Dyupon" inkişafın dörd aparıcı strateji istiqamətini elan etmişdir:

1. öz işçilərinə investisiyalar;
2. şirkətin istehsal güclərinin yerləşdiyi ölkələrin işgüzar və istehsal dairələrində geniş iştirak;
3. şirkətin müxtəlif fəaliyyət istiqamətlərində irimiqyaslı elmi-tədqiqat və təcrübə-konstruktor işləri;
4. yüksək etik standartlara, təhlükəsizlik, əməyin və ətraf mühitin mühafizəsinə sadiqlik (2).

Yaponiyada insan kapitalının inkişafı informasiya-texniki inqilabın prioritet istiqaməti kimi nəzərdən keçirilir və dövlətin daim diqqət mərkəzindədir.

Nəticə

Məşğul əhalinin karyerasını istiqamətləndirmək və onun inkişafına dəstək olmaq insan kapitalının inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Karyeranın idarəedilməsi bəsit mənada insanların iş həyatları ilə bağlı planların qurulmasıdır. Karyeranın planlaşdırılması insanın fərdi biliyi, bacarığı, marağı, güclü və zəif tərəflərinin qiymətləndirilməsi nəticəsində onun dəyərləri ilə iş təcrübəsi arasında ən uyğun münasibəti qurmağa istiqamətlənən prosesdir. Bu proses gələcəyini ehtimal edə bilən, məqsədini ona görə müəyyən edən, yüksək motivasiyaya sahib olan işçilər formalaşdırır və onların fəaliyyətlərində daha da səmərəli olmaları üçün şərait yaradır.

Zənnimizcə, insan kapitalının davamlı və hər şeydən öncə dayanıqlı inkişaf mexaizmini qurmaqdan ötrü aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğun olardı: insan kapitalının səmərəli dövlət tənzimlənmə mexanizminin yaradılması; dövlətlə işgüzar dairələr arasında qarşılıqlı əlaqə modelinin qurulması; kadrlara olan tələbatın kadr hazırlıqlarının dövlət sifarişi əsasında həm ümumdövlət və həm də regional baxımdan proqnozlaşdırılması; kadrların ixtisasartırma və yenidən hazırlanması sisteminin müasir tələblər baxımından təşkil edilməsi; məşğulluq xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi.

Sonda onu qeyd etmək olar ki, istənilən xalqın rifahı və dayanıqlı inkişafı insan kapitalından asılıdır. Ona görə də istər müəssisə, istərsə də bütövlükdə ölkə səviyyəsində insan resurslarının inkişafı və insan kapitalına balanslaşdırılmış investisiyalar sahəsində düşünülmüş və ardıcıl siyasətə ehtiyac vardır.

ƏDƏBİYYAT:

1. Ahmadov, F (2007), Team/Group Basic Assesment of Performance, Mateirals of the conference of Management and Organisation, 16-18 May, Istanbul Culture University, Turkey, Antalya.

2. Ahmadov, F (2009), "Application of the Balanced Scorecard in the management of human resources, I. Materials of the international social sciences" conference in Balkans, 10–16 May, Prishtina University, Kosova, Prishtina, 2009.

3. BARUTCUGİL İ. (2004); Stratejik İnsan Kaynakları Yönetimi, Kariyer yayınları, İstanbul. s. 324.

4. ÇETİN C. (1999), İnsan Kaynaklarının Eğitimi ve Geliştirilmesi, BETA Yay: No 938, İstanbul.

5. FINDIKÇI İ. (2002), İnsan Kaynakları Yönetimi, Alfa Basım Yayın Dağıtım, İstanbul. s.128.

6. Малыгин В.А., «Человеческий капал как определяющий фактор развития инновационной экономики», «Вестник экономки, права и социологии» №1, 2007.

Açar sözlər: *insan kapitalı, qiymətləndirmə metodları, iqtisadi səmərəlilik, davranış parametrləri, insan kapitalına investisiyalar.*

Ключевые слова: *человеческий капитал, методы оценки, экономическая эффективность, параметры поведения, инвестиции в человеческий капитал.*

Keywords: *human capital, assessment methods, economic efficiency, behavior parameters, investment in human capital.*

М.А.Мадатов

Измерение экономической эффективности человеческого капитала

РЕЗЮМЕ

В статье рассматривается понятие эффективности. Анализируются методы измерения экономической эффективности использования человеческого капитала. Обосновывается пути повышения экономической эффективности использования человеческого капитала.

M.A.Madatov

Measuring economic efficiency of human capital

SUMMARY

The article considers the concept of efficiency. The methods of measuring economic efficiency of human capital use are analyzed. Ways to increase the economic effectiveness of human capital use are justified.

Təhlükəsizlik

MİLLİ TƏHLÜKƏSİZLİKDƏ MİLLİ MARAQ VƏ DƏYƏR AMİLİ

FAİQ ƏLİYEV
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, dosent

Yeni müstəqillik qazanmış ölkələrdə son zamanlar milli təhlükəsizlik problemlərinin təhlili genişlənib. Bu məsələlərə dair ilk tədqiqatlar və nəşrlər 90-cı illərin əvvəllərində ortaya çıxdı. İndi bir sıra dövlət və ictimai qurumlar bu sahədə araşdırma aparır, dövlətlərin təhlükəsizliyini təmin etmək sahəsində daxili, xarici və hərbi siyasətin başlıca sahələrində prezidentlərin qərar layihələrini hazırlayan konstitusiya qurumu olan təhlükəsizlik şuraları yaradılıb.

Dövlətlərin milli təhlükəsizliyi konsepsiyaları işlənib hazırlanıb, belə ki, milli təhlükəsizlik adı altında bu və ya digər cəmiyyətin milli maraqlarının müxtəlif təhlükələrdən qorunması başa düşülür. Bəzi əsərlərdə, çoxmillətli dövlətlərin şərtlərinə tətbiq edilən "milli təhlükəsizlik" termini istifadə qanuniliyi gözlənilir. Eyni zamanda, "milli" sözünün etnik bir xüsusiyyətə malik olduğunu vurğulanır. Bəzi tədqiqatçıların fikrincə, əgər dövlət çoxmillətlidirsə, onda onun milli təhlükəsizliyi barədə danışmağın heç bir mənası yoxdur. Buna görə də "milli dövlət təhlükəsizliyi" terminindən istifadə etmək təklif olunur.

Qloballaşmanın həyatın bütün sahələrinə nüfuz etdiyi hazırki şəraitdə Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsi dövlətin fəaliyyətində prioritet məsələlərdəndir. Nəzərə almaq lazımdır ki, milli təhlükəsizlik tarixi ənənələrin və ictimai-həyatın normalarının, mənəvi-etik, o cümlədən dini irsin qorunmasını da ehtiva edir. Azərbaycan Respublikasının Milli təhlükəsizlik sahəsindəki maraqlarına suverenlik, ərazi bütövlüyü, konstitusiya quruluşunun təhlükəsizliyi, iqtisadiyyat, elmi-texniki və müdafiə potensialı və s. daxildir(1, s.15).

Azərbaycan Respulikasının milli təhlükəsizlik konsepsiyasına əsasən ölkəmizin milli təhlükəsizliyinə təhdidlər aşağıdakılardır:

- Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiyası əleyhinə qəsdlər;
- qanunun aliliyinə nail olunması, ictimai asayişin qorunması və insan hüqüq və əsas azadlıqlarının müdafiəsi sahəsində dövlət funksiyasının yerinə yetirilməsinə qarşı fəaliyyət ;
- separatçılıq , etnik , siyasi və dini ekstremizm ;

- terrorçuluq , kütləvi qırğın silahlarının yayılması ;
- regional münaqişələr və transmilli mütəşəkkil cinayətkarlıq ;
- Azərbaycan Respublikasının enerji infrastrukturuna qarşı fəaliyyət;
- xarici , siyasi , hərbi və ya iqtisadi asılılıq ;
- iqtisadi qeyri – sabitlik ;
- peşəkar insan ehtiyatlarının çatışmazlıqları ;
- regional hərbiləşmə ;
- ekoloji problemlər (2, s.12).

Göründüyü kimi milli təhlükəsizlik konsepsiyası Azərbaycan xalqının dövlət müstəqilliyinin təmin edilməsini ön plana çəkir. Yuxarıda göstərilən təhdidlərin qarşısının alınması yalnız o halda mümkündür ki, ölkənin milli təhlükəsizliyi vahid bir şəkildə təşkil edilsin. Yəni onun müxtəlif istiqamətləri arasında düzgün qarşılıqlı əlaqə qurulsun.

Göründüyü kimi milli maraqlar dövlətin öz inkişaf səviyyəsindən, sosial-siyasi quruluşundan, tarixi, milli, mədəni xüsusiyyətlərindən irəli gəlir. Elə milli maraqlar vardır ki, onlar dəyişməz olaraq müxtəlif dövlətlər üçün eyni səciyyə daşıyır.

Bu maraqlara aid edilə bilər:

1. Ərazi bütövlüyü;
2. Siyasi suverenlik;
3. İqtisadi inkişaf;
4. Siyasi-iqtisadi quruluşun saxlanması;
5. Ölkənin milli-mədəni inkişafının qorunması.

Milli maraqlar - milli dəyərlərə şüurlu, rəsmi şəkildə münasibət ifadə edilir. Hər hansı bir dövlət üçün milli maraqların müəyyənləşdirilməsi məsələsi həmin dövlət üçün vacib məsələdir, çünki onların vasitəsilə bir şəxsin, dövlətin və cəmiyyətin təhlükəsizliyi və təhlükəsizliyinin səviyyəsi bütövlükdə qiymətləndirilir. Yalnız milli maraqların işığında dövlətin uzunmüddətli strateji kursu hazırlana, onun siyasəti müəyyənləşdirilə bilər.

Milli təhlükəsizliyin təmin edilməsi özlüyündə bir hədəf deyil və təhdidlərin aradan qaldırılması ilə məhdudlaşmır. Təhlükəsizlik - yalnız cəmiyyətin fiziki olaraq yaşaması, dövlətin suverenliyi və bütövlüyünün, vahid iqtisadi və müdafiə məkanında qorunması deyil, həm də cəmiyyətin davamlı fəaliyyət göstərməsi və inkişafı üçün şəraitin yaradılmasıdır.

Milli təhlükəsizlik - mürəkkəb, çox səviyyəli sistemidir. O, hər birinin öz strukturu olan bir sıra alt sistemlərdən ibarətdir.

Birləşmiş Millətlər Təşkilatı insan təhlükəsizliyinin iki əsas komponentini tanıyır: qorxu və yoxsulluqdan azad olmaq. BMT, səkkiz əsas kateqoriyalardan ibarət olan insan təhlükəsizliyi konsepsiyası hazırlamışdır:

- iqtisadi təhlükəsizlik;
- ərzaq təhlükəsizliyi;
- sağlamlıq üçün təhlükəsizlik;
- ekoloji təhlükəsizlik;
- şəxsi təhlükəsizlik;
- sosial təhlükəsizlik;
-ictimai təhlükəsizliyi;
-informasiya təhlükəsizliyi

Siyasi təhlükəsizlik milli təhlükəsizliyin mühüm elementlərindən biri olub təhlükəsizliyin təmin edilməsində həlledici rola malikdir. Siyasi təhlükəsizlik vətəndaşların, cəmiyyətin, dövlətin, xalqın siyasi maraqlarına zərbə vura biləcək, siyasi tənəzzülə, hətta dövlətin məhvinə apara biləcək amillərin aradan qaldırılması üçün həyata keçiriləcək tədbirlər məcmusudur (3, s.237).

İqtisadi təhlükəsizlik iqtisadi sahədə fərd, cəmiyyət və dövlətin həyati maraqlarının daxili və xarici təhdid və təhlükələrdən qorunmasıdır. İqtisadi təhlükəsizlik yüksək iqtisadi artıma, iqtisadi ehtiyacların effektiv ödənilməsinə, milli resursların düzgün ifadəsinə, ölkənin iqtisadi maraqlarının milli və beynəlxalq səviyyədə qorunmasına, əhalinin rifah səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Hərbi təhlükəsizlik – ölkənin elə bir vəziyyətini xarakterizə edir ki, hərbi təcavüz vasitəsilə ölkənin milli təhlükəsizliyinə zərbə vurulmasının qarşını ala bilsin.

Ekoloji təhlükəsizlik - əsas təhlükəsizlik istiqamətlərindən biri olub ümumbəşəri xarakter daşıyır. Çünki ekoloji problemlər bir dövlət çərçivəsindən çıxaraq qlobal xarakter daşımağa başlamışdır. O, təbiət, cəmiyyət münasibətlərinə yenidən baxılmasını və daha düzgün mövqe tutulmasını tələb edir. Ekoloji problemlərin həlli məsələləri təhlükəsizliyin bu istiqamətinin əsas problemlərindəndir. Azərbaycan Respublikasının "Ekoloji təhlükəsizlik haqqında" Qanununun I maddəsində ekoloji təhlükəsizlik belə xarakterizə olunur: "Ekoloji təhlükəsizlik insanın və cəmiyyətin həyati vacib maraqlarının, ətraf mühitin ona antropogen və təbii təsirlər nəticəsində yaranan təhlükələrdən qorunmasının təmin edilməsi deməkdir" (4, s.156).

Mədəni təhlükəsizlik milli təhlükəsizliyin bir istiqaməti olub mədəni tərəqqi, mədəni dəyərlərin qorunması və nəsillərdən nəsillərə ötürülməsini özündə ehtiva edir. Milli təhlükəsizliyin təmin edilməsində siyasi təhlükəsizlik qədər əhəmiyyətli digər element - informasiya təhlükəsizliyi çıxış edir. Bu ən çox onunla bağlıdır ki, milli təhlükəsizliyin bütün elementlərinin tam halında fəaliyyət göstərməsi onun informasiya ilə təminindən, informasiya resurslarının istifadəsindən xeyli asılıdır. Təsadüfi deyil ki, siyasətçi və sosioloqlar bildirirlər ki, kim ki, informasiyaya malikdir, o, hakimiyyətə malikdir. İnformasiya təhlükəsizliyi dövlət, cəmiyyət, sosial qrupların, eləcə də hər bir fərdin həyati fəaliyyətini və həyati bacarıqlarını saxlamaq üçün lazımlı və təhlükəsiz informasiya ilə təmin olunması bacarığıdır (5, s.124).

İnformasiya təhlükəsizliyi üçün real təhdidlərdən biri də dini ekstremizimdir. Dini ekstremizmin miqyasının genişlənməsi onu qorxulu bir faktora çevirir. İnformasiya təhlükəsizliyinin təməllərindən birini din təşkil edir. Din pərdəsi altında müxtəlif dövlətlərin ideologiyasının, maraqlarının təbliği informasiya təhdidlərindən biridir. Bu cəmiyyətdə səhv informasiyaların yayılmasına əhalinin manipulyasiyasına gətirib çıxarır. Dini mənəvi dəyərləri müxtəlif xarici təriqətlərdən, sektalardan qoruma milli təhlükəsizliyin əsas vəzifələrindən biridir. Dinlə münasibətdə siyasətin düzgün qurulmaması informasiya təhlükəsizliyi üçün böyük təhlükələr yaradır. Ölkədə yaranan xristian, hinduizm, radikal müsəlman təşkilatları vətəndaşların dini mənsubiyyətini dəyişməklə kifayətlənmir, casusluqla məşğul olur. Hərbi sirləri öyrənməyə çalışırlar. Missionerlər pessimist əhvali – ruhiyyə yayaraq gəncləri taleyin hökmünə tabe olmağa çağırırlar. Missionerlərin dini təbliğatı

nəticəsində ölkə üçün milli təhlükə yaranır (6, s.369).

Dini ekstremizmə və destruktiv dini birliklərin fəaliyyətinə qarşı yönəlmiş tədbirlər sistemi bütövlükdə milli təhlükəsizliyin təmin edilməsinin tərkib hissələrindən biridir. Belə tədbirlər sistemi ekstremist və destruktiv dini ideologiyaların yayılmasının qarşısının alınmasına və dini birliklər tərəfindən törədilmiş qanun pozuntularına qarşı sanksiyalar sisteminin yaradılmasına yönəlmiş hüquqi və profilaktik institutların və mexanizmlərin kompleksi kimi çıxış edir. Dini ekstremizm təzahürlərinin qarşısını almaq üçün Azərbaycan cəmiyyətinin mənəvi-əxlaqi sahədə milli təhlükəsizliyin institusional təmin edilməsi böyük rol oynayır. Tam ali dini təhsil almaq da respublikada olan vəziyyəti sağlamlaşdırmaq üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda olan ənənəvi din və etiqadların əksəriyyətində böyük dözümlülük potensialı var və bununla da tolerantlıq sahəsində, həmçinin konfessiyalar sahəsində təbii müttəfiq kimi çıxış edir. Ənənəvi dinlərin dirçəldilməsi dövlət ilə vətəndaş cəmiyyəti arasındakı qarşılıqlı mənəvi-əxlaqi sistemi ciddi şəkildə sağlamlaşdırmaqla yanaşı dinlərarası ünsiyyət sahəsində dözümlülük və zor işlətməmək praktikasının inkişaf etməsinə kömək edir. Öz növbəsində dini ekstremizm təzahürləri adətən "müxalifətçi dindarlıq" adlandırılan, özünü dini münasibətlər sahəsində mövcud olan, qərarlaşan qaydalara qarşı qoyan dini birliklərə xas olan bir məsələdir. Ənənəvi dinlərin əxlaqi-mənəvi dəyərlərinin inkişafı və yayılması Azərbaycanda vicdan və etiqad azadlığına qarant olan əsas prinsiplərə maksimum uyğun gələn şəraitdə baş verməlidir.

Azərbaycan Respublikası həmişə müxtəlif millətlərin və dinlərin sülh şəraitində birgə yaşayışına nümunə olmuşdur. Azərbaycan dövləti cəmiyyətin maraqlarından irəli gələn rasional milli siyasət kursunu, dini tolerantlıq mühitinin qorunması və inkişafını, bütün vətəndaşların qanun qarşısında bərabərliyi və qanunun aliliyini, demokratik hüquq və azadlıqların, həmçinin insanların bu hüquq və azadlıqlardan sərbəst istifadə imkanlarının təmin edilməsini mövcud ola biləcək müvafiq risqin real təhdidə çevrilməsinin qarşısının alınması və neytrallaşdırılmasının mühüm şərtləri qismində nəzərdən keçirir.

Müasir Azərbaycan dövlətinin milli təhlükəsizlik siyasətində yerinə yetirəcəyi təxirəsalınmaz vəzifələrindən biri bir tərəfdən cəmiyyətdə razılıq və dinlərarası sülh, digər tərəfdən dövlətin stabil fəaliyyət göstərməsinin qarantı olan dini təhlükəsizliyin təmin edilməsidir.

Hazırkı mərhələdə ölkədə bərqərar edilmiş milli və dini tolerantlıq mühitinin qorunması və inkişafı dövlət qarşısında duran əsas vəzifələrdən biri hesab olunur. Azərbaycan dövlətində həyata keçirilən milli siyasət kursu Konstitusiyanın Azərbaycan Respublikasının bütün ölkə vətənaşlarının ümumi və bölünməz vətəni olması kimi əsas prinsiplərindən birinə əsaslanır.

Qeyd edək ki, ABŞ-ın milli təhlükəsizlik strategiyasının əsasını isə milli maraqların qorunması təşkil edir. ABŞ-ın milli maraqları üç kateqoriyaya bölünür:

1. Həyati əhəmiyyətli maraqlar - buraya terrorla mübarizə, nüvə silahlarının yayılmaması, siyasi və iqtisadi cəhətdən qeyri-stabil və konfliktlərin mövcüd olduğu ərazilər və s. daxildir.

2. Əhəmiyyətli maraqlar - bu maraqlar özlərində ölkələrdə antidemokratik hərəkatların qarşısının alınmasını, beynəlxalq narkotik dövriyyəsi ilə mübarizə, keçmiş sovet məkanında müharibələrin qarşısının alınması və s. özündə ehtiva edir.

3. İkinci dərəcəli maraqlar. Buraya ətraf mühitin qorunması, Afrikanın siyasi və iqtisadi dirçəlişi və s. aiddir (7, s.155).

Bir çox ölkələrdə "dövlət təhlükəsizliyi" anlayışından istifadə olunur bu da əsasən konstitusiya qaydalarını qorumaq, suverenliyi və ərazi bütövlüyünü təmin etməkdən ibarətdir. Ancaq buna bir də fərdin və cəmiyyətin qorunması prizmasından bir daha baxılmalıdır. Dövlət bütün atributları, qurumları və orqanları ilə bütövlükdə hər bir vətəndaşın və cəmiyyətin maraqlarına xidmət etməlidir. Buna görə, əgər dövlətin bəzi hissələri və qurumları vətəndaşların və cəmiyyətin maraqlarına xidmət etmirsə dövlət quruluşuna düzəlişlər etməyə imkan verən konstitusiya mexanizmi olmalıdır. Dövlət qurumlarının fəaliyyəti sosial yönümlü olmalıdır, cəmiyyətin və vətəndaşların rifahını təmin etməlidir.

Milli təhlükəsizliyin formalaşması və təmin edilməsində milli dəyərlər, milli maraqlar və milli vəzifələr mühüm əhəmiyyətə malikdir.

Milli dəyərlər insanların həyati mövqeyini ifadə edən fundamental əxlaqi normalar, adət-ənənələr olmaqla yanaşı, həm də maddi və mənəvi mədəniyyət sahəsində cəmiyyətin uğurlarıdır. Milli dəyərlərə cəmiyyətin unikal zənginliyini də daxil etmək olar. Milli dəyərlər iqtisadiyyatın, mədəniyyətin, elmin, texnikanın təkamülü nəticəsində təşəkkül tapır. Milli dəyərlərin formalaşmasına eyni zamanda ölkənin geosiyasi mövqeyi, xalqın mentaliteti də böyük təsir göstərir.

Dəyərlərə yüksək önəm verən ümummilli lider Heydər Əliyev 1998-ci ildə Bakıda keçirilən "Müasirlik və dini-mənəvi dəyərlər" Beynəlxalq konfransdakı çıxışında demişdir ki, müsir dünyada mənəvi dəyərlərdən səmərəli şəkildə istifadə olunması hər bir ölkə üçün, hər bir xalq üçün, hər bir din üçün çox əhəmiyyətlidir.

Müasir Azərbaycanda demokratik prinsiplərin bərqərar olması, hüquqi dövlətin formalaşması dövlətimizin qlobal beynəlxalq aləmə inteqrasiyası şəraitində dinin, xüsusilə islamın mədəniyyətə təsirinin öyrənilməsi, müasir insanın mənəviyyat prinsiplərinin formalaşmasına, onun daxilən zənginləşməsinə təsirinin öyrənilməsi mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir. Ulu öndər Heydər Əliyev mənəvi prinsiplərin rolunu xüsusi qiymətləndirir: "Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracayıq".

Qloballaşma və sivilizasiyaların qarşılıqlı təsiri onların məhvedici toqquşmasının qarşısını almaq, sivilizasiyalar arasında lokal konfliktləri nizamlamaq problemləri alimlərin və ictimaiyyətin diqqətini daha çox cəlb etməyə başladı. Bununla bağlı Ramiz

Mehdiyev haqlı olaraq yazır ki, modernizasiya nəzəriyyəsinin əsas komponentlərindən biri də qəbul edilən mədəniyyətə xas olan ənənəvi normalar və dəyərlər ilə yeni təsisatlar arasında zəruri olaraq yaranan toqquşma problemlərini tətbiq etməkdir (8).

Özünün milli və dini ənənələrini saxlamaq şərtilə Avropa mədəniyyətini mənimsəmək prosesi demək olar ki, bütün dünyada gedir. Məsələn, bu yolla gedən Yaponiya, Cənubi Koreya, Tayvan və başqa ölkələr dünyanın ən inkişaf etmiş ölkələri səviyyəsinə yüksəlmişdir. Yaponiya Qərbin nəinki elm və texnologiyasını, hətta demokratik dəyərlərini də mənimsəyərək inkişaf səviyyəsinə görə faktiki olaraq dünyanın ikinci ölkəsinə çevrilibdir. Bununla yanaşı Yaponiya öz milli ənənələrindən və dinindən imtina etmir.

Milli dəyərlərin məzmunu üç əsas blok - xalqın rifahının artması, ərazinin müdafiəsi və milli mədəniyyətin inkişafı üzrə reallaşır. Milli dəyərlərin mühüm elementlərindən biri də cəmiyyətin "intellektual elita"sıdır. Cəmiyyətin intellektual elitasının azalması milli təhlükəsizlikdə ciddi problemlərdən biridir, belə ki, intellektual insanlar hadisə və proseslərin baş vermə ardıcıllığını vaxtında görə və qüymətləndirə bilir, ictimai inkişaf proseslərinin mahiyyətini dərindən dərk edir, problemlərin aradan qaldırılması üçün məntiqli yollar arayır, təklif və tövsiyələr verir, siyasi, iqtisadi, sosial, iqtisadi sahələrdə irəli sürülən qərarların mexanizmi məhz onların vasitəsilə işə düşür.

Milli ideologiya informasiya təhlükəsizliyinin təminatında ən önəmli yerlərdən birini tutur. Hal – hazırda respublikamızda azərbaycançılıq ideologiyası aparıcı rol oynayır. Azərbaycanın milli identifikasiya kodunun böyük tarixi-mədəni ənənələrə, dərin etnik və polietnik köklərə söykənməsi onun milli ideologiyasının sabit vəziyyətini təmin edir və dayanıqlığını artırır. Bu keyfiyyətinə görə azərbaycançılıq ideyası müasir dövrdə həm milli adət-ənənələrin, mənəvi dəyərlərin qorunmasında həlledici vasitəyə çevrilir, həm mənəvi həyatın modernləşmə yolu ilə dünya sivilizasiyasının qabaqcıl nümunələrini əxz edilməsinə şərait yaradır, həm də müstəqil dövlət kimi ölkənin dinamik inkişafına təkan verir, onun beynəlxalq mövqelərinin möhkəmlənməsinə xidmət edir. Milli birlik və vahid ideya ətrafında səfərbər olunma gücü Azərbaycanın həm də regional və beynəlxalq təhlükəsizlik sahəsində dünya dövlətləri ilə əməkdaşlığına, vətəndaş cəmiyyəti institutlarının potensialının artmasına, strateji tərəfdaş ölkələrlə qarşılıqlı münasibətlərinin inkişafına müsbət təsir göstərir. Bütün bunları nəzərə alaraq, azərbaycançılıq ideyasının milli inkişaf və təhlükəsizlik siyasətinə təsirinin araşdırılması mühüm elmi və siyasi aktuallıq kəsb edir. SSRİ-nin və dünya sosializm sisteminin süqutu, ideoloji qarşıdurmanın və soyuq müharibənin başa çatması, yeni-yeni müstəqil dövlətlərin dünya siyasətinə qatılması və s. dünya nizamında əsaslı dəyişikliklərin bünövrəsini qoymaqla yanaşı, beynəlxalq təhlükəsizlik sistemində və onun strukturunda müəyyən dəyişikliklər yaratdı. Postsovet məkanında müstəqillik əldə etmiş dövlətlərin milli inkişaf və təhlükəsizlik sahəsində yürütdükləri siyasət də öz növbəsində dünyanın geosiyasi reallıqlarına və təhlükəsizlik sistemlərinə yeni xüsusiyyətlər gətirdi (9, s.264).

Azərbaycançılıq etnik, sosial və siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir azərbaycanlının Azərbaycana olan sevgi və məhəbbətinin gündəlik həyat norması və fəaliyyət strategiyasıdır. Azərbaycançılıq özündə yüksək əxlaqi normalarla yanaşı yeni dünyəvi dəyərləri də birləşdirir.

Daxili siyasət sahəsində milli maraqların vətəndaş sülhünün, milli harmoniyanın, dövlət hakimiyyətinin və qurumlarının sabitliyinin təmin edilməsi, qanunun aliliyi və demokratik cəmiyyətin formalaşmasının başa çatması, eləcə də sosial və beynəlxalq münaqişələrin, milli və regional separatizmin yaranmasına gətirib çıxaran olan səbəb və şəraitin aradan qaldırılmasından ibarətdir.

Ölkədə yaşayan xalqların maraqlarının koordinasiyası, onların hərtərəfli əməkdaşlığının qurulması, məsuliyyətli və balanslaşdırılmış dövlət milli siyasətinin aparılması ölkənin daxili siyasi sabitliyini təmin edəcək, onun sabitliyini və birliyini qoruyacaq ən mühüm vəzifələrdir.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Milli Təhlükəsizliyi haqqında qanunu. Bakı, Hüquq Ədəbiyyatı, 2004

2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. Bakı: Hüquq ədəbiyyatı, 2007

3. Кастельс М. Информащюнная эпоха: экономика, общество и культура. МГУ ВШЭ, 2016,с.608

4. "Ekoloji təhlükəsizlik haqqında "Azərbaycan Respublikasının qanunu// Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11

5.Засурский Я. Информационное общество и средства массовой информации //http://intra.rfbr.ru/pub/vestnik /V3_99/2_l.htm;

6.Piriyev A . Siyasi strategiya və milli təhlükəsizlik problemi. Bakı, BDU, 2002

7. Стрельцов А. Проблемы реализации доктрины информационном безопасности на современном этапе. М,2012

8.Mehdiyev R. Demokratiya dövlət və cəmiyyətin inkişafının prioriteti kimi// "Respublika" qəzeti. 21 may, 2005– ci il, № 99

9. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, Letterpres, 2011,

Açar sözlər: *milli təhlükəsizlik, inkişaf, milli maraqlar, milli dəyərlər,siyasət, konsepsiya, qanun.*

Keywords: *national security, development, national interests, national values, politics, concept, law.*

SUMMARY

The article analyzes the national security policy of the Republic of Azerbaijan in the international security aspect. The policy pursued to achieve social development is focused on national security. The focus is on the protection of national interests and interests in domestic and foreign policy, compliance with economic, food, ecological, personal information, religious and cultural security, and examines the main legal and regulatory documents relating to national security. During the analysis, the opinions of well-known politicians and politicians are addressed, their views are considered from a new angle.

QLOBAL ÇAĞIRIŞLAR BAXIMINDAN NEFT SAHƏSİNDƏ EKOLOJİ-İQTİSADİ SİSTEMİN FORMALAŞMASINA VƏ İDARƏ EDİLMƏSİNƏ STRATEJİ YANAŞMALAR

ATA BABAYEV
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti

Azərbaycan neft sənayesinin formalaşdırılması və inkişaf etdirilməsi baxımından dünyanın ən önəmli neft ölkələrindən biridir. Belə ki, ölkəmizin neft sənayesinin toxunulmaz və çox qiymətli tarixi, özünəməxsus inkişaf xüsusiyyətləri, yanaşmaları və ənənələri vardır. Lakin müasir dövrdə bütün olub keçənlərə, tarixi aspektlərə, mövcud mexanizmlərə, tətbiq olunan standartlara, prinsip və meyarlara yenidən baxılması, təkmilləşdirilməsi mühüm məsələlər kimi ortaya çıxmışdır. Bu zərurət, ilk növbədə son 10-20 il ərzində dünyada ətraf mühitlə bağlı və ümumilikdə ekoloji problemlərlə əlaqədardır. Belə ki, qlobal ekoloji təhlükələr dünyanın ən mürəkkəb problemlərindən hesab olunur. Baxmayaraq ki, dünya dövlətləri və beynəlxalq qurumlar ekoloji problemlərin, həmçinin iqlim dəyişiklikləri ilə bağlı problemlərin həlli ilə əlaqədar olaraq çoxsaylı çağırışlar etməkdədirlər, sazişlər bağlamaqdadırlar, ancaq bu məsələlər kifayət qədər mürəkkəb olduğundan onların asan həllini gözləmək lazım gəlmir. Buna görə də hər bir ölkədə, ilk növbədə, yeraltı təbii sərvətlərə malik olan ölkələrdə ekoloji balansın qorunması, ekoloji-iqtisadi sistemin tarazlığının təmin edilməsi və konsepsiyasının olması vacib şərtlərdəndir. Ekoloji-iqtisadi sistemin iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi, yenilənməsi, müasir tələblərin əsasən nəzərə alınması strategiyasına üstünlük verilməlidir və bu halda iqtisadi inkişaf prioritetlərinin reallaşdırılması üçün daha çox şərait və potensial formalaşır [1]. Digər tərəfdən, ekoloji-iqtisadi sistemin dayanıqlılığının təmin olunması və möhkəmləndirilməsi üçün xammal və resusrlardan maksimum səmərəli istifadə olunması məsələlərinə daha çox diqqət yetirilməlidir. Birincisi, artıq dünyada xammal resurslarının qıtlığı daha kəskin hiss olunmaqdadır, ikincisi yeni xammal mənbələri üçün ən çox üz tutulan yer təbii mənbələrdir. Baxmayaraq ki, sənaye üsulu ilə xammal və yarımfabrikat istehsalı daim artmaqdadır, dünya iqtisadiyyatının inkişaf tendensiyalarına və sürətinə adekvat tələb olunan xammallar yenə də azlıq təşkil edir. Buna görə də, yerin təkindən çıxarılan xammalların ekoloji-iqtisadi tarzlılıq baxımından səmərəliliyi strateji səviyyədə baxılmalıdır [2]. Bunlarla yanaşı, resurslardan səmərəli istifadənin təmin edilməsi üçün elm və texnologiyaların inkişafı dünya ölkələrini daha çox əhatə etməlidir. Məlumdur ki, resurs və təbii ehtiyatların daha çox olduğu ölkələrin əksəriyyətində elm və texnologiyalar o qədər də inkişaf etməmişdir. Ekoloji tələblər və standartlar bu ölkələrdə

əksər hallarda yaxşı qorunmur, nəticədə ətraf mühit üçün daha çox təhlükə yaranır. Bu amillər baxımdan ekoloji-iqtisadi sistemin bütün aspektlərinin, ilk növbədə metodoloji yanaşmalarının, iqtisadi mexanizmlərinin maksmimum məhsuldar və səmərəlilik prinsipləri əsasında formalaşdırılması və inkişaf etdirilməsi ümumi iqtisadi inkişafın əsas yanaşmalarından biri kimi qəbul edilməlidir [3]. Belə yanaşmaların əsasında təkcə xammal və resurslardan səmərəli, qənaət rejimində istifadə edilməsi nəzərdə tutulmur, həm də ərtaf mühitə zərər vuran hallara qarşı sərt tədbirlərin, sağlam düşüncə tərzinə söykənmiş yanaşmaların təmin edilməsi, iqtisadi mexanizmlərin gücü ilə bu məsələlərin tənzimlənməsi, təsirli tədbirlərin görülməsi yer almalıdır.

Dünya ölkələrində əsas yanacaq resursu kimi neftdən istifadə olunur və neftə olan tələbat hər il artmaqdadır. Bu qiymətli enerji resursunun layiqli əvəzedicisi hələ ki, yoxdur və bu baxımdan neft sənayesinin ortaya çıxartdığı, törətdiyi ekoloji fəsadların, ekoloji problemlərin sistemli və kompleks şəkildə həll edilməsi vacib şərtlərdəndir. Məlumdur ki, neft əsasən inkişaf etməkdə olan ölkələrdə istehsal olunur, ümumilikdə neft istehsal olunan ölkələrin elmi-texnoloji inkişaf səviyyəsi xeyli fərqlənir. Bu sahəyə hər il 10 milyardlarla dollar yeni investisiyalar lazım gəlir. Nəzərə alsaq ki, son illərdə dünyada maliyyə qeyri-sabitliyi prosesləri gedir və bütün sahələrə olduğu kimi, neft sahəsinə də investisiyaların nisbətən məhdudlaşdırılması qaçılmaz bir proses kimi xarakterizə olunur. Buna görə də, dünya dövlətləri, birinci növbədə neft hasil edən dövlətlər bu sahədə ekoloji-iqtisadi sistemin tarazlığı konsepsiyasına malik olmalı və ətraf mühitin qorunması üçün daha çox işlər görməldirlər. Bu məsələlərdə dövlət tənzimlənməsi tədbirləri, ekoloji standartların yüksəldilməsi, qəzalı vəziyyətdə olan avadanlıqların yenilənməsi, əsas fondların vaxtında modernizasiya olunması, atmosferə buraxılan qazların miqdarının azaldılması, tullantısız texnologiyalara daha çox yer verilməsi, onların istehsal və emal proseslərində azaldılmasında imkan verən tədbirlərin görülməsi, ətraf mühitin çirklənməsinə qarşı iqtisadi, təsərrüfat subyektləri ilə birlikdə cəmiyyətin, ictimaiyyətin fəallığının, qarşılıqlı məsuliyyətinin təmin olunması, neft istehsal olunan və daşınan ərazilərdə neft dağılmalarının, itkilərinin minimuma endirilməsi, dağılmış neft tərkibli tullantı sularının, həmçinin neft məhsullarının, neft emal olunan müəssisələrdəki tullantıların toplanması, təkrar emal edilməsi, yaxud zərərsizləşdirilməsi mexanizmləri işlənib hazırlanmalı, ekoloji-iqtisadi fəaliyyətin səmərəliliyinə imkan verən praktiki alətləri daha çox dövriyyəyə cəlb edilməli, ətraf mühitin və ekoloji problemlərin ümumilikdə idarə edilməsi mexanizmləri təkmilləşdirilməli, qlobal ekoloji və iqtisadi çağırışlara adekvat olan idarəetmə sistemi yaradılmalıdır. Bundan başqa, ekoloji risklərin öyrənilməsi, neft sahəsində bu kateqoriyadan olan risklərin yaranma səbəblərinin araşdırılması, onların qiymətləndirlməsi və idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi təmin olunmaldır. Neft istehsal olunan ərazilərdə ekoloji-iqtisadi yanaşmaların təkmilləşdirilməsi və gücləndirilməsi tədbirləri görülməlidir. Bunun üçün optimal fəaliyyət mexanizmləri yaradılmalı, neft istehsal edən müəssisələrin sosial məsuliyyəti artırılmalıdır. Bu tip müəssisələrdə sosial və ekoloji problemlər iqtisadi səmərəlilik prinsipləri nəzərə alınmaqla sistemli şəkildə balanslaşdırılması, istehsalın səmərəliliyinin artırılması, texnologiyaların təkmilləşdirilməsi və yenilənməsi xüsusi diqqət mərkəzində saxlanılmalıdır. Hər bir təsərrüfat subyektinin ekoloji-iqtisadi təhlükəsizlik strategiyası və əsaslandırılmış fəaliyyət mexanizmlərinin hazırlanması və

realaşdırılması vacib hesab olunur [4]. Belə ki, bu cür yanaşmaları ekoloji-iqtisadi meyarların qorunması üzrə beynəlxalq öhdəliklər, konvensiyalar tələb edir və şərtləndirir. Digər tərəfdən, ölkənin dayanıqlı inkişafının təmin edilməsi üçün ekoloji-iqtisadi münasibətlərin ən yüksək səviyyədə baxılması, bunlarla bağlı problemlərin əlaqələndirilməsi, optimal həlli yollarının və praktiki həlli mexanizmlərinin müəyyənləşdirilməsi, ekoloji seqmentlərinin ölkə iqtisadiyyatının tarazlı inkişafı ilə əlaqələndirilməsi, ekoloji-iqtisadi indikatorların mahiyyətinin ölkə ictimaiyyətinə çatdırılması və əhalinin maarifləndirilməsi, bu kateqoriyadan olan problemlərin ictimailəşdirilməsi, şəffaflığın formalaşdırılması, mövcud fəaliyyət mexanizmlərinin adekvatlığına xüsusi önəm verilməsi, neftin hasilatı və emalı, həmçinin daşınması ilə bağlı proseslərdə ekoloji təhlükəsizlik prinsiplərinin qorunması ciddi şəkildə təmin olunmalıdır. Ölkədə optimal enerji balansının formalaşdırılması, enerji resurslarından qənaətlə istifadə olunması strategiyasının hazırlanması, ekoloji standartların yüksək səviyyəyə qaldırılması istiqamətində davamlı tədbirlər görülməlidir [5]. Eyni zamanda, qeyd etdiyimiz kimi, ekoloji iqtisadi problemlər kifayət qədər mürəkkəbdir, həmçinin cəmiyyətin və milli iqtisadiyyatın dayanıqlı inkişafının əsas komponentlərindən hesab olunur, bunlar nəzərə alınmaqla neft hasilatı və ondan istifadə proseslərində təbiətə, ətraf mühitə zərər verə biləcək halların qarşısının alınması, ekoloji təhlükəsizlik mexanizmlərinin təkmilləşdirilməsi, texniki-texnloji təyinatlı mühüm tədbirlərin görülməsi, ətraf mühitin mühafizəsi ilə bağlı sərt cəza tədbirləri ilə yanaşı, stimullaşdırıcı mexanizmlərin hazırlanması fayda verə bilərdi. Ekoloji-iqtisadi sistemin daha dayanıqlı və səmərəli idarəetmə mexanizmlərinin formalaşdırılması və tətbiqinə strateji yanaşma təmin olunmalıdır [6]. Neft tullantılarının toplanması və təkrar emal edilməsi tədbirlərinin işlənib hazırlanması, neft hasilatından ortaya çıxan ekoloji təhlükə hallarının diqqətlə izlənilməsi, bunlarla əlaqədar operativ tədbirlərin görülməsi, ümumilikdə ölkədə ekoloji-iqtisadi sistemin institusional və hüquqi

əsaslarının təkmilləşdirilməsinin təmin olunması vacib məsələlər kimi xarakterizə olunur. Ekoloji-iqtisadi sistemin dayanıqlılığının idarəetmə mexanizmlərinin səmərəliliyinin neft sahəsində istismar proseslərinin təkmilləşdirilməsindən və müasir texnologiyaların tətbiqinin genişləndirilməsindən də bilavasitə asılıdır və idarəetmə səviyyəsində bu problemlərə xüsusi diqqət yönəldilməlidir [7, s.141]. Bundan əlavə, neft sənayesinin müəssisələrində, törəmə təşkilatlarında, anbar təsərrüfatı və nəqliyyat kompaniyalarında ekoloji-iqtisadi aspektlərin əhəmiyyətinin eyni səviyyədə - yəni strateji səviyyədə dərk edilməsi və dəyərələndirilməsi vacib hesab olunur. Buna görə də neft sahəsində fəaliyyət göstərən həmin kateqoriyadan olan müəssisələrin və kompaniyaların hər birində ekoloji-iqtisadi strategiya formalaşdırılmalı və bu strategiyanın yerinə yetirilməsinin hüquqi-iqtisadi və təşkilati mexanizmləri hazırlanmalı, tətbiq olunmalıdır [8]. Şəkil 1-də qlobal çağırışlar baxımından neft sahəsində ekoloji-iqtisadi sistemin formalaşmasına və idarə edilməsinə strateji yanaşmaların blok-sxemi verilmişdir.



Şəkil 1. Qlobal çağırışlar baxımından neft sahəsində ekoloji-iqtisadi sistemin formalaşmasına və idarə edilməsinə strateji yanaşmaların blok-sxemi (tədqiqat materialları əsasında müəllif tərəfindən hazırlanmışdır).

Bu qeyd olunan amillər kontekstində Azərbaycanda neft sənayesini vəziyyətinə baxsaq, ətraf mühitə neft yayılmaları və çirklənmələrlə bağlı məsələlərdə dövlət orqanları, SOCAR-ın müvafiq strukturları, həmçinin özəl neft şirkətləri, neft məhsulları daşıyan şirkətlər arasında inteqrativ münasibətlərin formalaşdırılması, ekoloji problemlərə qarşı birgə məsuliyyətin dərk edilməsi və müvafiq tədbirlərin görülməsi mexanizmləri vacibdir. Müasir dövrdə Azərbaycan özünün zəngin karbohidrogen ehtiyatlarının - neft-qaz resurslarının hasilatı və dünya bazarlarına çıxarılması istiqamətində tarixi işlər görməkdədir. Bu sahədə ölkəmiz uzunmüddətli neft və qaz kontraktlarını bağlamışlar. Azərbaycan dünyanın əhəmiyyətli enerji istehsalçısı və ehtiyatları mərkəzinə çevrilmişdir, Avropanın enerji təhlükəsizliyinin mühüm təminatçısı statusunu almışdır, regionun enerji təhlükəsizliyinə böyük töhfələr verir. Ölkəmiz özünün neft və qaz resurslarını Avropa bazarlarına çıxarmaqla güclü siyasi və iqtisadi dividentlər əldə etməkdədir. Bütün bunlar neft və qaz sənayesi ilə bağlı strateji məsələlərə və problemlərə kompleks və sistemli yanaşmanı şərtləndirir. Bu sahənin ən mühüm və strateji problemlərindən biri də əvvəldə qeyd etdiyimiz kimi ekoloji-iqtisadi optimallığının təmin edilməsidir.

Qeyd edək ki, ekoloji-iqtisadi sistemin optimallığının artılması məqsədilə hər bir ölkənin bu sahədə təkmilləşdirilmiş dövlət siyasəti və idarəetmə mexanizmləri olmalıdır. Bu məsələ ölkəmiz üçün də kifayət qədər aktualdır, belə ki, qədim neftçilik ənənələrinə malik olan ölkəmiz, hazırda da bu sahədə özünün mövqeyini nəinki qoruyub saxlaya bilmiş, eyni zamanda ildən-ilə daha da gücləndirilməkdədir. Azərbaycanın neft sənayesi subyektləri, ilk növbədə artıq dünya səviyyəli kompaniyaya çevrilən SOCAR-ın qurumları dünyanın qabaqcıl və ən iri neft şirkətləri ilə əməkdaşlıq edirlər, dünya təcrübəsini mənimsəyirlər və, şübhəsiz, mütərəqqi idarəetmə metodlarını da tətbiq etməkdədirlər [9]. Əlbəttə, bunlar hamısı birlikdə kifayət qədərə ciddi məsələlərdir və təqdirəlayiqdir, amma istənilən yanaşmalar, idarəetmə mexanizmləri və fəaliyyət alətləri neft hasilatı və emalı ilə bağlı texnologiyalarla, avadanlıqlarla, qurğuların texniki səviyyələri ilə uzlaşmadığı halda, ekoloji-iqtisadi sistemin tarazlığını təmin etmək o qədər də asan deyildir. Bu qeyd edilənlər baxımından, Azərbaycanda mövcud neft hasilatı və emalı müəssisələrində davamlı şəkildə modernizasiyalar, əsaslı təmir işləri aparılsa, həmçinin əsas vəsaitlərin yenilənməsi prosesləri getsə belə, etiraf etmək lazımdır ki, Bakı şəhərinin mərkəzi hissələrinə yaxın, eyni zamanda, əhalinin sıx yaşadığı ərazilərdən uzaq olmayan yerdə yerləşən neftayırma zavodları və qurğularının əhəmiyyətli səviyyədə yenilənməsi, yeni və müasir texnologiyalar əsaslı zavodların tikilməsi zərurəti qalmaqdadır. İdarəetməni yaxşılaşdırmaq, təkmilləşdirmək mümkündür, amma bütün hallarda köhnə texnologiyaların və avadanlıqların yenilənməsi prosesləri intensiv olmazsa, ekoloji-iqtisadi sistemin balanslaşdırılmasında problemlərin əksər hissəsi qalacaqdır. Bundan əlavə, ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsində neft hasilatının strateji hədəfləri kontekstində ekoloji problemlərin həllinə ciddi önəm verilmişdir və bu istiqamətdəki fəaliyyət prinsipləri prioritetlik təşkil edir [10]. Məlum olduğu kimi, neft sənayesi Azərbaycan üçün, ölkəmizin sosial-iqtisadi inkiafının təmin edilməsi baxımından kifayət qədər mühüm bir sahədir və bu sahədəki problemlərin, o cümlədən, ekoloji problemlərin sistemli həlli mühüm əhəmiyyət kəsb edir [11]. Neft sahəsində fəaliyyətin şəffaflığının artırılması qlobal kontekstdə strateji əhəmiyyət kəsb edən problemlərə, həmçinin ekoloji problemlərə daha geniş səviyyədə baxılması potensialını formalaşdırır. Burada ekoloji-iqtisadi sistemin gücləndirilməsi ilə bağlı yönəldilən vəsaitlərdən səmərəli istifadə edilməsi məsələləri də prinsipial önəm daşıyır. Digər tərəfdən, neft xammalının emalı ilə bağlı fəaliyyət istiqamətlərin müasir qlobal müstəvidə modelləşdirilməsi tədbirləri sürətləndirilməlidir [12]. Ölkəmizdə neft əsasən Xəzər dənizində

yerləşən quyulardan hasil olunur. Bu baxımdan, dənizdəki fəaliyyət istiqamətlərində neftin və onun tullantıların səviyyəsinin nəzarətdə saxlanılması, ekoloji monitorinqlərin keçirilməsi mexanizmi mövcuddur [13]. Amma, bunlarla belə, həmin mexanizmlərin daha da təkmilləşdirilməsi, ekoloji-iqtisadi sistemin əsas komponentlərinin tarazlığının təmin olunması vacib şərtlərdəndir [14].

Yaxın perspektivdə ölkəmizdə milli iqtisadiyyatının inkişaf modelinin yeni mərhələyə daxil olması və bununla əlaqədar olaraq mühüm iqtisadi komponentlər, o cümlədən, ekoloji təhlükəsizliklə bağlı məsələlər daha da aktuallaşacaqdır. Əsas vəzifə ölkəmizin neft sənayesində ekoloji-iqtisadi sistemin dünya təcrübəsinə və qlobal ekoloji çağırışlara uyğun şəkildə təkmilləşdirilməsindən və işlək mexanizmlər hesabına əhəmiyyətli səviyyədə gücləndirilməsindən ibarətdir və s.

ƏDƏBİYYAT:

1. World Economic and Social Survey 2013. Sustainable Development Challenges. *United Nations publication. Sales No. E.13. II.C.1. United Nations, 2013.-216 p. - http://www.sustainabledevelopment.un.org.*

2. World Conservation Strategy. Living Resource Conservation for Sustainable Development. International Union for Conservation of Nature and Natural Resources. 1196 Gland, Switzerland - 76 p.

3. Gedz Mykhailo. Spatial paradigm as a methodological basis for the study of regional development// Annales Universitatis Mariae Curie-Sklodowska Lublin-Polonia. Vol. XLVIII, 4, 2014. S. 37-48.

4. Россинская М.В. Методология обеспечения устойчивого развития территории в рамках эколого-экономической безопасности. Дисс. д-ра экон. наук. Ростов - на – Дону, 2006.- 328 с.

5. Ануфриев В.П. Эколого-экономическая оценка рационального использования энергетических ресурсов в системе Киотского протокола. Дисс. д-ра экон. наук. Новосибирск, 2006.- 320 с.

6. Малышев А.А. Механизмы управления устойчивостью эколого-экономической системы. Дисс. канд. экон. наук. Пенза, 2011.- 186 с.

7. Резник А.А., Малышев А. Г. Механизмы управления устойчивостью эколого-экономической системы // Известия высших учебных заведений. Поволжский регион. Общественные науки. - 2012. - № 4 (24). - С. 138-146.

8. Шевелева А.В. Развитие институтов и инструментов совершенствования эколого-экономической политики предприятий нефтегазового комплекса. Авт-т д-ра экон. наук. Ростов-на-Дону, 2018, 60 с.

9. Мурадвердиева Л.А. «Российское предпринимательство» № 24. Повышение эффективности функционирования нефтегазового комплекса Азербайджана // Пенза, 2013, 91-99 с.

10. Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında 6 dekabr 2016-cı il Fərmanı ilə təsdiq edilmişdir.

11. Салимов С.М. Нефтегазовая промышленность - основа стратегии устойчивого развития Азербайджанской Республики: Монография. - Мю Макс Пресс, 2015, 292 с.

12. Ağayev K.Ə. Neft emalı sənayesinin inkişafında alternativ variantların effektivliyinin əsaslandırılması məsələləri. Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti. Avtoreferat. İ.ü.e.d.Bakı, 2007. -22 s.

13. SOCAR-ın dənizdəki fəaliyyəti sahələrində ekoloji monitorinqlər başa çatıb.AZƏRTAC – Azərbaycan Dövlət İnformasiya Agentliyi. https://azertag.az/print/974133.

14. SOCAR. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti. - http://www.socar.az

Açar sözlər: *ekoloji-iqtisadi sistem, ekoloji-iqtisadi tarazlılıq, neftin hasilatı və emalı, neft sahəsində ekoloji-iqtisadi strategiya, ekoloji-iqtisadi sistemin balanslaşdırılması.*

Ключевые слова: *эколого-экономическая система, эколого-экономическое равновесие, добыча и переработка нефти, эколого-экономическая стратегия в нефтяной отрасли, сбалансирование эколого-экономической системы.*

Keywords: *ecological-economic system, ecological-economic equilibrium, production and petroleum refining, ecological-economic strategy in the oil sphere, balancing of an ecological-economic system.*

Резюме

СТРАТЕГИЧЕСКИЕ ПОДХОДЫ К ФОРМИРОВАНИЮ И УПРАВЛЕНИЮ ЭКОЛОГО-ЭКОНОМИЧЕСКОЙ СИСТЕМОЙ В НЕФТЯНОЙ СФЕРЕ В УСЛОВИЯХ ГЛОБАЛЬНЫХ ВЫЗОВОВ

В статье исследованы стратегические подходы к формированию и управлению эколого-экономической системой в нефтяной сфере в условиях глобальных вызовов. С этой целью анализированы сущность формирования управления эколого-экономической системы в нефтяной сфере. Раскрыты основные проблемы и пробелы по оптимизации эколого-экономической системы с учетом применения новейших технологий. Рассмотрены существующие положения в нефтяной отрасли Азербайджана в контексте экологической проблемы и обоснована важность усиления эколого-экономической системы. В конце статьи обобщены научно-практические взгляды по стратегические подходы к формированию и управлению эколого-экономической системой в нефтяной сфере.

Abstract

STRATEGIC APPROACHES TO FORMATION AND MANAGEMENT OF ECOLOGICAL-ECONOMIC SYSTEM IN THE OIL SPHERE IN THE CONDITIONS OF GLOBAL CHALLENGES

Strategic approaches to formation and management of an ecological-economic system in the oil sphere in the conditions of global challenges are investigated in the article. A substance of formation of management of an ecological-economic system in the oil sphere is analyzed for this purpose. The main problems on optimization of an ecological-economic system taking into account use of the latest technologies are opened too. The current situations in the oil industry of Azerbaijan in the context of an environmental problem are considered and importance of strengthening of an ecological-economic system is proved. Scientific and practical views on strategic approaches to formation and management of an ecological-economic system in the oil sphere are given at the end of article.

Beynəlxalq münasibətlər

MÜSTƏQİL AZƏRBAYCANIN AVROPA MƏKANINA İNTEQRASİYASI VƏ BU PROSESİN TARİXİ ASPEKTLƏRİ

AYGÜN ƏLİYEVA
Xəzər Universiteti

XX əsrin sonunda dünyada sosialist ideologiyasına xidmət edən nəhəng ittifaqın dağılmasından sonra etnosiyasi münaqişələr arenasına çevrilən Cənubi Qafqaz, əvvəlki kimi Rusiyanın təsir sahəsində qalaraq, regionun digər dövlətlərinin və o cümlədən, Avropanın maraq dairəsinə daxil oldu. 90-cı illərin əvvəllərində dünyanın mötəbər qurumlarının və ayrı-ayrı dövlətlərin Cənubi Qafqazdakı milli münaqişələrə olan mövqeləri tam müəyyən deyildi və məlum oldu ki, onlar kifayət qədər "ehtiyat" xarakteri daşıyır. Cənubi Qafqaz regionunda üç əsas münaqişənin heç birinin tənzimlənməməsi Avropa Birliyini bu münaqişələri daima nəzarət altında saxlamağa məcbur edirdi. Unutmaq olmaz ki, Azərbaycan üçün Avropa ilə qarşılıqlı əlaqələrin qurulması və inkişafı strateji əhəmiyyətə malikdir. Bu əlaqələr tarixən mövcud olmuş və bu gün də eyni formada inkişaf etməkdədir. Azərbaycan zaman-zaman bu qarşılıqlı münasibətlərdə əhəmiyyətli tərəfdaş kimi çıxış etmiş, dostluq və əməkdaşlıq barəsində üzərinə düşən öhdəlikləri yerinə yetirmişdir.

Avropa İttifaqı-Azərbaycan münasibətlərinin formalaşması tarixi

Avropa İttifaqının Azərbaycana olan siyasi və strateji maraqları böyükdür. Azərbaycan Asiya və Avropanın qovşağında yerləşir və böyük enerji ehtiyatlarına, tranzit potensialına malikdir. Avropa İttifaqının həyata keçirdiyi tarazlaşdırılmış siyasi-iqtisadi inkişaf strategiyası baxımından Azərbaycan ilə əməkdaşlıq çərçivəsində enerji ehtiyatlarının alınması Avropa Ittifaqının enerji asılılığına son qoya biləcəyi görüşü yüksək dəyərləndirilir. Avropa İttifaqı 1993-cü ildən başlayaraq TACIS, TRASECA kimi regional layihələrlə Cənubi Qafqaz bölgəsində əsas iştirakçılardan birinə çevrilməyə başlamışdır. Bundan başqa 1996-cı ildən başlayaraq TƏS, daha sonra 2004-cü ildən isə YQS çərçivəsində Azərbaycanla əməkdaşlıq genişləndirilmiş və inkişaf etdirilmişdir. Əldə edilən uğurlar hər iki tərəfin səyinin nəticəsidir.

Azərbaycan üçün də Avropa İttifaqı olduqca önəmli tərəfdaşdır. Azərbaycan tərəfi Avropa İttifaqı ilə əməkdaşlıqda iki əsas məqsəd güdür. Birincisi, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyinin dünya dövlətlərinə çatdırılması və bununla da münaqişənin məhz Azərbaycanın maraqlarına uyğun həllinin təmin edilməsi7; İkinci, Azərbaycan öz enerji və tranzit potensialının Avropa üçün əhəmiyyətini dərk edir və bundan maksimum yararlanmağa çalışır. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan üçün yeni investisiyalar, yeni enerji layihələri deməkdir. 1991-2006-cı illərdə xarici siyasətdə qarşıya qoyulmuş bu iki məqsəd Azərbaycanın Avropa İttifaqı və ona üzv olan dövlətlərlə siyasi və iqtisadi əlaqələrinin mahiyyətini təşkil edir.6 Əgər nəzərə alsaq ki, Avropa İttifaqının Azərbaycana olan marağı ona üzv olan dövlətlərin marağıdır, onda əminliklə deyə bilərik ki, Avropa İttifaqının Azərbaycanla bağlı son illərdə nümayiş etdirdiyi müsbət mövqe ona üzv olan dövlətlərin mövqeyidir. Azərbaycanın son 25 illik diplomatiya tarixinə nəzər

salsaq görərik ki, Avropa İttifaqı və ona üzv olan Avropanın aparıcı dövlətlərinin Azərbaycana bu gün müsbət münasibəti Azərbaycan tərəfindən asan əldə olunmamışdır. Bir çox yanaşmalara görə bu cür münasibət Azərbaycanın enerji və tranzit potensialı ilə bağlıdır. Əlbəttə, bu amil mütləq nəzərə alınmalıdır. Lakin təkcə bu amili əsas gətirmək olmaz. Əslində 1991-2006 cı illər Azərbaycanın Avropa dövlətləri ilə siyasi və digər sahədə münasibətlərinin qurulması ilə bərabər, ümumiyyətlə, Azərbaycanın müstəqil bir dövlət kimi xarici siyasət kursunun, diplomatik ənənələrinin formalaşması və inkişafı dövrüdür. Bu dövr həm də suveren siyasət yürüdən bir dövlətin tarixinin müasir mərhələsini təşkil edir.

Artıq qeyd etdiyimiz kimi, Azərbaycanın Avropa İttifaqına üzv olan dövlətlərlə siyasi münasibətləri müstəqilliyin ilk illərindən başlayaraq Avrointeqrasiya prosesi çərçivəsində formalaşmış və inkişaf etmişdir. Avrointeqrasiyanı xarici siyasətin prioritet istiqamətinə çevirən, Azərbaycanın konkret olaraq qarşısına qoyduğu məqsədlərin açıqlanması, aydınlaşdırılması olduqca zəruri bir problem olaraq durur. Əsas siyasi məqsədlərin müəyyən edilməsi aktualdır.8

Azərbaycanın Avropa İttifaqına üzv olan dövlətlərlə siyasi münasibətlərinin formalaşması və inkişafı, müasir dönəmə gəlib çıxması böyük bir zəhmətin, gərgin bir işin nəticəsidir. Faktiki olaraq burada Avropanın ən inkişaf etmiş 28 dövlətindən söhbət gedir. Müasir diplomatiya tariximizin öyrənilməsi zamanı problemin subyekt səviyyəsində nəzərdən keçirilməsi olduqca aktual xarakter daşıyır. Heç şübhəsiz, Azərbaycanın həyata keçirdiyi xarici siyasət kursunun bütün uğurları Azərbaycanın Ulu Öndəri Heydər Əliyevin, onun xarici siyasət kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin adı ilə bağlıdır.

Artıq qeyd etdiyimiz kimi, Azərbaycanın Avropa dövlətləri ilə siyasi münasibətlərinin formalaşması və inkişafı ilə bağlı öyrənilməmiş çoxlu sayda məqamlar var ki, onların araşdırılması Azərbaycanın müasir diplomatiya tarixi üçün vacibdir. 1991-2006-cı illərdə Azərbaycanın Avropa dövlətləri ilə siyasi əlaqələrinin formalaşmasında Azərbaycan diasporunun da böyük rolu vardır. Onların diplomatik, vasitəçilik fəaliyyətinin öyrənilməsi də olduqca vacib bir məqamdır. Bu problemə də vətən tarixşünaslığında demək olar ki, toxunulmur. Eyni fikri Azərbaycan parlamentinin xarici əlaqələri haqqında da demək mümkündür. Ümumiyyətlə, 1991-2006-cı illərdə Azərbaycanın Avropa dövlətləri ilə siyasi əlaqələri tarixini öyrənmək Azərbaycanın Avropaya inteqrasiya prosesində gözləntilərini, siyasi və iqtisadi maraqlarını, mənafelərini aşkara çıxartmaqda kömək edir.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda yaşanan çətin dövrün stabilləşməsi və yaxşılaşdırılmasında Avropa İttifaqının həyata keçirdiyi humanitar və texniki yardım proqramları öz effektini vermişdir. Bunun nəticəsində Azərbaycan getdikcə inkişaf edərək, regionda güclü ölkələrdən birinə çevrilmişdir. Hazırda dünyada bütün proseslər avtomatlaşdırılır və dövr elmi texniki tərəqqiyə xidmət edir. Azərbaycanın yürütdüyü siyasətin hədəfində təhsil, təlim, elmi-tədqiqat, informasiya texnologiyaları, ətraf mühit məsələləri, kənd təsərrüfatı və daşımalar sahəsində Avropa İttifaqı ölkələri ilə daha geniş əməkdaşlığa keçid dayanır. Əgər nəzərə alsaq ki, dünyada miqrasiya prosesi getdikcə sürətlənir o zaman insanların axınını daha da sürətləndirmək və bu prosesə dəstək vermək lazımdır. Bu prosesdə ən böyük yardım isə sərhəd keçidinin optimallaşdırılması və viza rejiminin sadələşdirilməsidir. Azərbaycan bu prosesdə Avropa İttifaqına daxil olmaqla və ya onunla daha sıx əlaqələr qurmaqla daha çox inkişaf edə və insanların yerdəyişməsini daha da rahatlaşdıra bilər.

Azərbaycanın xarici siyasətində avrointeqrasiya proseslərinin yeri və rolu

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra ölkənin daxili və xarici siyasətini nizamlamaq ən ümdə məsələlərdən birinə çevrildi. Bu siyasətin əsas ünsürlərindən biri ölkəmizin Avropa ilə əlaqələrin qurulması və bu əlaqələrin müsbət yöndə inkişaf etdirilməsi idi. Əslində Avropa ilə əlaqələrin qurulması prosesinin tarixi olduqca qədimdir və bu proses hətta orta əsrlər dövrünə təsadüf edir. Suverenliyimizin 1991-ci ildə bərpası isə bu inteqrasiya münasibətlərində yeni bir mərhələnin formalaşmasına təkan verdi.

Dünya dövlətləri arasında koordinasiya və əməkdaşlığın ən effektiv forması olaraq Avropaya inteqrasiya prosesi özünü günü-gündən bu qoca qitənin aparıcı təşkilatlarına üzv olmaq istəyən dövlətlərin sayının artmasında göstərir ki, bu da öz növbəsində dünya təcrübəsində siyasi inteqrasiyanın Avropa modelinə marağı artırır və onun elmi şəkildə tədqiqatını aktual edir. Bu proseslərin tədqiqi müstəqillik yaşı hələ az olan Azərbaycan üçün dünya birliyində öz yerini tutmağa çalışması, həm qlobal, həm də regional konteksdə yeni dünya düzəninin konfiqurasiyasına uyğun qurulmuş ittifaqlarda özünə yer seçməsi XX əsr dövlətlərinin inkişaf qanunauyğunluqlarını şərh etməyə kömək edir və ölkəmiz üçün hazır təcrübədən yararlanmağa istiqamətləndirir. Siyasi inteqrasiya isə iki və daha çox siyasət subyektinin öz aralarında müttəfiqliyi, müəyyən birlik və təşkilatda birləşməsi və bu prosesin getdikcə intensivləşməsi anlamına gəlir.2

Siyasi inteqrasiya prosesində verilmiş qərarların qəbulu üçün istər dövlət, istərsə də vətəndaş cəmiyyəti institutlarının olması zəruridir. Çünki burada siyasi subyektlərin əməkdaşlığının sıxlaşması və ən əsası isə eyni maraq və dəyərlərə əsaslanan hərəkətin qeydə alınmasından söhbət gedir. İnteqrasiyanın özünü həm proses, həm də vəziyyət kimi də səciyyələndirirlər. Bunu daha yaxşı mübahisəli məsələlərin daim sülh yolu ilə həll olunması məqamlarında başa düşmək olar. Bəzən bu prosesi müddəalarla da ifadə edirlər:

- inteqrativ təsisat kimi Avropanın təməlində duran prinsiplər və dövlətlərarası münasibətin normaları; inteqrasiyanın strateji istiqamətləri;
- onun institusional və konstitusional əsasları, qərarların qəbul edilmə mexanizmi və reallaşdırılması üsulları;
- inteqrasiya siyasətinin başlıca istiqamətləri və sahələri;
- bazar iqtisadiyyatı subyektlərinin inteqrasiya prosesində davranışının ümumi mexanizmləri;
- inteqrasiyanın ictimai-siyasi, sosial mədəni bazası;
- ictimai rəyin və sosial təşəbbüsün səfərbər edilməsi üsulları.3

İnteqrasiya prosesi ən müxtəlif aspektlərdə tədqiqatçılar tərəfindən öyrənilir. Lakin bu özü də maddi faktlarla nəzəriyyə arasında müəyyən fikir ayrılıqlarına gətirib çıxara bilir.

İnteqrasiyanın qlobal, regional və lokal formalarının real surətdə olması hər üç səviyyənin nəzəri baxımdan da işlək konsepsiya və mexanizmlərinin işlənməsi məsələsini aktuallaşdırır. Çünki elə Avropanın öz daxilində inteqrasiya ilə Avroməkana inteqrasiya arasında ciddi fərqlərin olması hüquqi baxımdan da bu məsələnin konseptual əsaslarının formalaşdırılması məsələsini gündəmə gətirir. Sözsüz ki, son yarım əsr ərzində bu sahədə hüquqi baza formalaşdırılıb və dünyanın əksər dövlətləri buna ciddi riayət etməkdədir.

1993-cü ildən 2000-ci ilə qədər davam edən qısa dövrdə Azərbaycanda həyata keçirilən islahatlar Avropa Şurası Parlament Assambleyasının növbəti sessiyasında Azərbaycanı bu təşkilata tamhüquqlu üzv seçməyə imkan verdi. Bu hadisə 2000-ci il iyunun 28-də baş verdi. Azərbaycan öz tarixinin yeni dövrünə daxil oldu. 2001-ci ilin yanvar ayında Azərbaycan bayrağı Avropa Şurasının

binası önündə qaldırıldı. Fəaliyyətinin ilk günündən demokratik dəyərləri, insan hüquqlarını və qanunun aliliyini öz təməl prinsiplərindən biri etmiş Azərbaycan diplomatiyası bu ideallar uğrunda mübarizədə mühüm qələbə qazandı.

Bütövlükdə, Avropa İttifaqı Cənubi Qafqaza dair strategiyasını yenicə inkişaf etdirməyə başlamışdır. Bu strategiya və liderlik məharətinin uzunmüddətli və dinamik tədbirlərin görülməsinə yol açmaq, region ölkələrinə daha diqqətli və dəqiq yanaşmanı təmin etməsi faydalı olardı. Cənubi Qafqazda sabitlik, bölgədə vətəndaşların təhlükəsizliyinə sadiqlik həm qonşu ölkələr, həm də Avropa İttifaqı tərəfindən nümayiş etdirilməlidir. Məlum olduğu kimi, AQS öz-özlüyündə münaqişənin qarşısının alınması və ya həlli mexanizmi deyil. Bununla belə, regionun Avropa İttifaqının qonşuluğuna inteqrasiyası region ölkələrini çoxsaylı risklərə getməyi, ən vacibi isə öz suverenliyi və ərazi bütövlüyünü ümumi hədələrdən qorumaq məqsədilə müəyyən mərhələdə birgə və çox düşünülmüş səylərini tələb edəcək.4 Azərbaycanla siyasi və digər sahədə münasibətlərin qurulmasında maraqlı olan Avropa İttifaqı və bu təşkilata üzv olan dövlətlər Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyin münasibətlərin yaxınlaşmasında həlledici faktor olduğunu qəbul edir.5

Nəticə

Fikirlərimizi ümumiləşdirib onu deyə biərik ki, Azərbaycan Respublikasının Avropa və Avroatlantik strukturlarına inteqrasiyası, daha dəqiq ifadə etsək, Avropa və Avroatlantik siyasi, təhlükəsizlik, iqtisadi və digər strukturlarına inteqrasiyası dövlətimiz tərəfindən strateji məqsəd kimi müəyyənləşdirilmişdir. Azərbaycanın avroatlantik məkana inteqrasiyasını bir tarixi proses kimi izləyərək belə qənaətə gəlmək olar ki, Azərbaycan və Avropa İttifaqı, bu təşkilata üzv olan dövlətlər arasında münasibətlər formalaşma mərhələsini arxada qoymuşdur. Faktiki olaraq mövcud vəziyyət münasibətlərin düzgün konturlarını cızmağa imkan verir. Azərbaycan və Avropa İttifaqı, ona üzv olan dövlətlər arasında münasibətlər bir neçə kriteriya üzrə qurulmuşdur. Bu münasibətlərin istər siyasi, istər iqtisadi, istərsə də digər tərəfləri Azərbaycanın maraq və mənafelərinə uyğun gəlir.

ƏDƏBİYYAT:

1. Həsənov Ə. "Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri, 1991-1996". Bakı, "Elm", 2000. 368 s.

2. Həsənov Ə.M. "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti". Bakı, "Azərbaycan nəşriyyatı", 2005. 752 s.

3. Azərbaycan – ATƏT. "Heydər Əliyev İrsi" elektron kitabxanasının məlumat bülleteni. Bakı, 2009. 103 s.

4. ""Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 645 nömrəli Fərmanı Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, M 1, maddə 20.

5. Mehdiyev R.Ə. "XXI əsrdə milli dövlətçilik". Bakı, "Yeni Nəşrlər Evi", 2003

6. Azərbaycan ilə Avropa İttifaqı arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq uğurla inkişaf edir

http://customs.gov.az/az/xeberler/15_azerbaycan-ile-avropa-ittifaqi-arasinda-enerji-tehlukesizliyi-sahesinde-emekdasliq-ugurla-inkisaf-ed/ (26.08.2018)

7. Aİ-nın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə verdiyi bəyanatlar

http://www.mfa.gov.az/content/570 (26.08.2018)

8. EU-Azerbaijan relations

https://eeas.europa.eu/headquarters/headquarters-homepage_en/4013/EU-Azerbaijan%20relations (26.08.2018)

Açar sözlər: *Azərbaycan, Avropa İttifaqı, Avropa, avrointeqrasiya, iqtisadi əlaqələr, beynəlxalq siyasət, Avropa Şurası.*

Ключевые слова: *Азербайджан, Европейский Союз, Европа, евроинтеграция, экономические отношения, международная политика, Совет Европы.*

Key words: *Azerbaijan, European Union, European, euro-integration, economic relations, international politics, Council of Europe.*

РЕЗЮМЕ:

В современном мире любая международная политико-экономическая организация заинтересована в расширении своих границ. Это эффективный шаг как для власти, так и для новых экономических возможностей. Каждая политическая организация заинтересована в ее членстве в выборе более сильной страны как союзника. Европейский союз также является одним из таких экономических и политических институтов. Он заинтересован в расширении своих границ за счет более мощных стран. Регион Южного Кавказа, включая Азербайджан, можно рассматривать как важный партнер для Европейского Союза. Богатство природных ресурсов и стабильность для экономического развития делают Азербайджан более привлекательным партнером. Хотя Азербайджан не является полноправным членом Европейского Союза, реализуются существенные экономические проекты, и отношения развиваются на основе растущего темпа.

SUMMARY:

In the modern world, any international political and economic organization is interested in expanding its borders. This is an effective step both for the authorities and for new economic opportunities. Each political organization is interested in its membership in the choice of a stronger country as an ally. The European Union is also one of such economic and political institutions. He is interested in expanding his borders at the expense of more powerful countries. The South Caucasus region, including Azerbaijan, can be regarded as an important partner for the European Union. The wealth of natural resources and stability for economic development make Azerbaijan a more attractive partner. Although Azerbaijan is not a full member of the European Union, substantial economic projects are being implemented, and relations are developing on the basis of a growing pace.

Dövlət quruculuğu

HEYDƏR ƏLİYEV VƏ DÖVLƏT QURUCULUĞUNDA SOSİAL YADDAŞIN ROLU

YEGANƏ RƏSULOVA
AMEA Fəlsəfə və Hüquq İnstitutu

Müasir tarixi mərhələdə dövlət quruculuğu siyasi liderdən strateji uzaqgörənliklə yanaşı dərin tarixi biliklərin olmasını da tələb edir. Qloballaşma prosesi ölkələr və dövlətlər arasında əlaqələri çox genişləndirib və onların bir-birinə müxtəlif sahələrdə təsiri əvvəllər müşahidə edilməyən səviyyəyə yüksəlib. Burada müxtəlif dövlətçilik modellərinin mövcudluğunu da nəzərə almaq gərəkdir. XX əsrin 80-ci illərinin sonundan başlayaraq özünü göstərən ziddiyyətli və dolaşıq geosiyasi proseslər bütövlükdə müstəqil dövlət quruculuğu məsələsini daha da mürəkkəbləşdirdi. Frensis Fukuyama 2004-cü ildə nəşr etdirdiyi kitabda yazırdı: "Bu kitabda mən göstərirəm ki, güclü dövlət quruculuğu müasir dünyanın ən vacib problemlərindən biridir, çünki dövlətin zəifliyi və dağılması dünyanın ən cidi problemlərinin mənbəyidir..." (1, s. 5). Belə bir vəziyyətdə müstəqilliyini əldə etmiş ölkələrdə səmərəli dövlət quruculuğu modelinin müəyyənləşməsi həyati əhəmiyyətli məsələyə çevrilmişdi. Burada müasir şərtlərin cəmiyyətin dövlətçilik ənənəsinin optimal nisbətdə nəzərə alınması mütləq şərt olmuşdu.

Heydər Əliyev Azərbaycan üçün bu məsələnin ən səmərəli həllini tapa bildi. Onun dövlət quruculuğu konsepsiyası müasirliyi, rəqabətə davamlılığı və inkişaf perspektivi ilə fərqlənir. Özlüyündə bu konsepsiya zəngindir, çoxlu tərkib hissələri mövcuddur və mürəkkəb struktura malikdir. Bu sırada sosial yaddaşın dövlət quruculuğunda oynadığı rol da aktual görünür. Heydər Əliyev böyük dövlət xadimi kimi fəaliyyətində, ümumiyyətlə, yaddaş fenomeninə ciddi diqqət yetirirdi. Ulu öndərin özü fenomenal yaddaşa sahib idi. Məşhur alman filosofu H.G.Qadamer yaddaş-şəxsiyyət kontekstində yazırdı: "Yaddaş fenomeninə sadə psixoloji qabiliyyət kimi baxmaq vərdişindən imtina edib, onda insanın keçici tarixi mövcudluğunun vacib elementini görmək zamanıdır" (2, s. 66). "Yaddaşın insanın keçici tarixi mövcudluğunun elementi" kimi təsəvvür edilməsi, şəxsin istənilən fəaliyyətində fərdi yaddaşın prinsipial rol oynadığına işarədir. Yəni yaddaş insanın var olmasını şərtləndirən əsas faktorlardan biridir. Şəxsin fərdi həyatı yaddaşsız mümkün olmadığı kimi, onun sosial-mədəni kimliyinin formalaşmasında ciddi rol oynayır. Təbii ki, bu məqam tam mənasında fərdin psixoloji, mental və mənəvi özəlliklərinə yaddaşın böyük təsirinin mövcudluğunu təsdiq etməyə imkan verir. Onda deyə bilərik ki, fərdi yaddaşın sosial mühitlə əlaqəsi onun psixoloji, mental və mənəvi özəllikləri vasitəsi ilə konkret məzmun kəsb edir. Eyni zamanda, bu proses ikitərəflidir. Yəni yaddaş insanın həyati fəaliyyətini yönəldən faktorlardandır. Hər bir şəxs malik olduğu yaddaş əsasında fəaliyyətini qurur. Buradan güclü fərdi yaddaşın insanın sosial mühitdəki fəaliyyətində ciddi

rol oynadığı nəticəsini çıxara bilərik. G.H.Qadamer də yuxarıda nümunə kimi göstərdiyimiz fikirlərində məhz bu məqamı vurğulayıb. Fərdi yaddaşın sosial mühitə bu cür çıxışı insanın cəmiyyətdəki fəaliyyətinin bütün növləri ilə tarixi yaddaş arasında əlaqəni görməyə imkan verir. Məsələnin bu tərəfi Qərb alimlərinin tarixi yaddaşla bağlı fikirlərində ifadə olunub. Fransız tarixşünası Pyer Noraya görə, Yeni Dövrdən başlayaraq ənənəvi yaddaş əhəmiyyətini itirir. Onun əvəzində şüurun keçmişə tənqidi münasibəti əsasında yaddaş formalaşır. Bu yaddaş seçicidir və daha çox məntiqi-şüuri faktora əsaslanır. Məhz buna görədir ki, P.Nora yazır: "Tarix həmişə artıq olmayanın problematik və tam olmayan yenidən qurulmasıdır" (Nora: 1999:20). Deməli, Yeni Dövrdə yaddaş tarixin rekonstruksiyasında çox ciddi rol oynayır. Bunun reallaşması şüurun aktivliyi ilə birbaşa bağlıdır. Keçmişin yenidən qurulması faktiki olaraq koqnitiv prosesdir. Bu o deməkdir ki, yaddaş həmişə sosial mahiyyətlidir. Konkret desək, o, sosial mühitdən kənarda mövcud deyil. Belə çıxır ki, hər bir insanın yaddaşı onun sosial-mədəni fəaliyyətində böyük rol oynayır. Söhbət kollektiv reallıq miqyasında fərdin fəaliyyətindən gedəndə daha maraqlı incəliklər meydana çıxır. Həmin aspektdə sosial yaddaş anlayışının rolu xüsusi əhəmiyyət kəsb edir. Məsələ ondan ibarətdir ki, sosial yaddaş kollektiv reallıq səviyyəsində spontan olaraq fərdi yaddaşların qarşılıqlı təsiri nəticəsində meydana gələn hadisədir. Biz sosial yaddaşa informasiya anlayışı aspektində baxırıq. Bu cür yanaşma müasir elmi ədəbiyyatda mövcuddur. Sosial yaddaş bu anlamda fərdin sosial qrup və ya bütövlükdə cəmiyyətin keçmişi ilə bağlı konkret təsəvvürlərə malik olmasıdır. Bu zaman yaddaş elementi individual deyil, sosial kontekstə, kollektiv reallıqla vəhdətdə götürülür. Bu halda iki məqamı qeyd etməyə ehtiyac vardır. Birinci, sosial yaddaşla fərdi yaddaş arasında sıx informativ əlaqə vardır. İkinci, Sosial yaddaş həmişə özündə keçmişə aid təsəvvürlərin aktuallaşmasını indiki zamanın reallıqları barədəki təsəvvürlərin qarşılıqlı müqayisəsini "aparır". Bununla o, həm özünü təsdiq edir, həm də dəyişikliklərə açıq qalır. Burada G.H.Qadamerin ifadə etdiyimiz fikri ilə əlaqə görürük. Şəxs keçici tarixi varlıq kimi daim yaddaşı ilə içində olduğu sosial mühit arasında qarılıqlı əlaqə axtarır. Fərdi yaddaş bu üsulla sosiallaşır. Onda fərdi yaddaşı güclü olan insanın digərlərindən sosial mühitlə bağlı daha zəngin təsəvvürləri ola bilər. Bu, onun şəxsi fəaliyyətində, ümumiyyətlə, həyat tərzində özü ifadəsini tapır. Xüsusilə, şəxs geniş miqyasda siyasi, sosial-mədəni, elmi və başqa fəaliyyət növləri ilə məşğuldursa, onda onun fərdi və sosial yaddaşı arasında sıx bağlılıq mütləq olmalıdır. Şəxsiyyətin kollektivdə nüfuz və söz sahibi olmasında bu məqamın prinsipial əhəmiyyəti vardır.

Tarixi faktlar sübut edir ki, dünyanın güclü insanları fərdi ilə sosial yaddaş arasında vəhdətə nail olublar. Əgər güclü fərdi yaddaşın sosial mühitlə sıx bağlılığı baş tutmursa, şəxsin cəmiyyət lideri olması imkanı sıfıra enir. Dünyanın böyük siyasətçilərinin, dövlət xadimlərinin həyatı bunu sübut edir. Xüsusilə, dövlət xadimi üçün sosial yaddaşın əhəmiyyəti böyükdür. Çünki milyonlarla fərdi birləşdirən kollektivi idarə etmək üçün onlar üçün ortaq olan yaddaşın məzmununu dəqiq bilmək gərəkdir. Əks halda müəyyən mərhələdə ziddiyyət yaranır ki, kütlələr lideri dövlət işlərindən uzaqlaşdırırlar. Uinston Çörçilin siyasi həyatı bunun bariz nümunəsidir. U.Çörçill çox güclü yaddaşa sahib olub. O, siyasi fəaliyyətində bu fərdi keyfiyyətindən dövlətin maraqları üçün istifadə etməyi bacardı. Böyük Britaniyanın yüksək siyasi dairələri anladılar ki, Çörçilə hakimiyyət verilsə, bütün ciddiyyəti ilə İngiltərənin maraqlarına xidmət edəcək, çünki onun şəxsi fikirləri ingilis dövlətinin firavanlığı ilə sıx bağlı idi (4). Tarix göstərdi ki, U.Çörçill Böyük Britaniya dövlətçiliyi üçün möhtəşəm işlər gördü.

Ulu öndər Heydər Əliyevin həyatı dövlət quruculuğunda, fərdi və sosial yaddaşın ən güclü imkanlarından maksimum yararlanmaq aspektində tayı-bərabəri olmayan nümunədir. H.Əliyevin bu istiqamətdə xidməti U.Çörçill kimi siyasət nəhənglərini də üstələyir. Çünki Çörçill artıq 100 illərdir mövcud olan güclü İngiltərə dövlətini inkişaf etdirdisə, H.Əliyev faktiki olaraq müstəqil Azərbaycan dövlətini yaratdı və onun strateji inkişaf yolunu müəyyənləşdirdi. Bu zaman ümummilli lider güclü fərdi yaddaş və dövlətçiliyə çox sıx bağlılıqdan uzaqgörənliklə istifadə edə bildi. Bu kontekstdə yuxarıda vurğuladığımız fərdi və sosial yaddaş arasındakı əlaqənin dövlət quruculuğunda hansı məzmunda yer tutduğu üzərində geniş dayanmağa ehtiyac görürük. Ümumiyyətlə, Heydər Əliyev elə şəxsiyyətdir ki, onun bütün fərdi həyatı dövlət işlərinə həsr olunub. Əvvəlcə, SSRİ-nin yüksək vəzifəli şəxsi kimi, sonra isə müstəqil Azərbaycanın dövlət başçısı olaraq, bütün fərdi imkanları ilə cəmiyyət və dövlət üçün çalışıb. Məhz buna görədir ki, H.Əliyev şəxsi maraqları üçün demək olar ki, heç bir iş görməyib – onun qoyub getdikləri tamamilə dövləti əhəmiyyətli dəyərlərdir. Prezident İlham Əliyev də bu ruhda yetişdirilib və indi o, bütün gücü ilə müstəqil və suveren Azərbaycan dövləti üçün çalışır. Şübhəsiz, Heydər Əliyevin dövlətçilik maraqları baxımından bu cür fenomenal keyfiyyətə malik olması Azərbaycan xalqı üçün çox qiymətlidir. Bu aspektdə H.Əliyevin öz gücü yaddaşından xalqının xeyrinə istifadə etməsini ayrıca vurğulamaq lazımdır. Onun həyatından həmin kontekstdə çoxlu sayda nümunə göstərmək olar.

Heydər Əliyev dövrünün siyasi zirvəsini fəth etmiş bir şəxs kimi son dərəcə yüksək ünsiyyət və davranış mədəniyyətinə sahib insan idi. Ancaq ulu öndər sadə insanlarla onların dilində danışmağı gözəl bilirdi. H.Əliyev xalqla görüşlərində yerli adət-ənənəni, psixologiyanı, davranış qaydalarını çox yüksək səviyyədə bildiyini və onları heç zaman unutmadığını nümayiş etdirirdi. Heydər Əliyevin Azərbaycanın Qarabağ bölgəsində olarkən toy mərasimində əsl azərbaycanlı ağsaqqal kimi davrandığı yaddaşlardan silinməz. Böyük dövlət adamı və siyasi xadim milli adət-ənənəni nə qədər gözəl bildiyini və əsl azərbaycanlı kimi onlara əməl etdiyini göstərdi. Bununla Heydər Əliyev xalqın qəlbində əbədi heykəlini yaratdı. Ulu öndər bu keyfiyyətini siyasi fəaliyyətində ömrü boyu böyük ustalıqla həyata keçirib. Sovetlər dönəmində bu, ana dilinə hörmətdə, milli yazıcıların cəmiyyətdə daim yüksək hörmət sahibi olması üçün konkret tədbirlər keçirməkdə, milli kadrları SSRİ-nin mərkəzi ali məktəblərində hazırlatdırıb, sonra vətənə qaytarmağında, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və incəsənətinin karifeylərinin yubileylərinin yüksək səviyyədə təşkil edilməsində, folklor nümunələrinin (xüsusilə, dövlətçiliklə bağlı olanların) daim müxtəlif

tədbirlərdə aktuallaşdırmasında öz əksini tapmışdı. Dövlətçilik üçün bu məqamların oynadığı rolu tam mənası ilə cəmiyyət bəlkə də özünün inkişaf mərhələsində daha dərindən dərk edə biləcək. Çünki indi hadisələrin canlı şahidləri olanların böyük əksəriyyəti bunlara adi işlər kimi baxa bilərlər. Fəlsəfi və elmi müstəvidə isə Heydər Əliyevin mərasimlərə hörməti, adət-ənənədə ən sadə hesab olunan elementlərə qarşı böyük diqqəti, mədəniyyətlə bağlı yubileylərin geniş qeyd edilməsi dövlətçilik və mədəniyyət ənənəsini daim kollektiv yaddaşda aktuallaşdırmaq kimi ciddi əhəmiyyətə malikdir. Qərb tədqiqatçılarının əsərlərində bu kimi məqamlar fərdi və sosial identikliyin vacib elementləri kimi təhlil edilir. Məsələn, M.Halbvaksın yaradıcılığında ənənənin faktiki olaraq "kollektiv yaddaşın özünü" təşkil etdiyi ideyası vardır. Kollektiv yaddaş da ənənələrdə ehtiva olunur, onlarda aktuallaşmaqla konkret məzmun kəsb edir. Eyni zamanda, ənənə fərdi yaddaşın fəaliyyətini təmin etmək şəraiti və vasitəsidir. Həmin keyfiyyətdə onlar fərdi, qrup və sosial identikliyin çox vacib faktorudurlar (5).

Bu fikirlərin işığında Heydər Əliyevin dövlət xadimi kimi fəaliyyətinin yuxarıda vurğuladığımız məqamlarına nəzər salanda, onun dövlət quruculuğu konsepsiyasında sosial yaddaşın tutduğu mühüm yeri görə bilərik. Bu baxımdan ulu öndərin "Dədə Qorqud", Məhəmməd Füzuli, "Manas"la bağlı verdiyi fərmanların dövlətçilik üçün ciddi əhəmiyyətini təsəvvür edə bilərik. "Dədə Qorqud" milli yaddaşın dövlətin və cəmiyyətin idarə olunmasının ənənəvi qaydaları, M.Füzuli ana dilində poetik ifadənin mənəvi dünyamıza verdiyi fəlsəfi-estetik qidalar, "Manas" isə dövlətçiliyin ümumtürk kontekstinin təsdiqinin rəmzi kimi olduqca önəmlidir. Bunların fonunda H.Əliyevin böyük yazıçılar, şairlər, musiqiçilərlə bağlı keçirdiyi təntənəli təbirlərin tarixi əhəmiyyətini dərk etməmək mümkün deyildir. Ulu öndər hətta sovetlər kimi ciddi ideoloji nəzarəti olan bir cəmiyyətdə milli adət-ənənə, folklor və sosial yaddaş elementlərindən cəsarətlə istifadə edərək, Azərbaycan dövlətçiliyini keşməkeşli yollardan keçirib, yaddaşlarda saxlamaqla, müstəqil Azərbaycanın mövcudluğunun təməlini hazırlayıb. Böyük şəxsiyyətin böyük tarixi xidmətinin bir qismi bundan ibarətdir. Ulu öndər müxtəlif dövrlərdəki çıxışlarında məsələnin bu aspektinə çox incə eyhamlar vurub, söhbətin ümumiyyətlə xalqın, onun mədəniyyəti və dövlətçiliyinin taleyindən getdiyini ifadə edib. Heydər Əliyevin 1981-ci il iyunun 12-də Azərbaycan yazıçılarının VII qurultayında söylədiyi tarixi "Ədəbiyyatın yüksək borcu və amalı" adlı nitqində ifadə etmişdi: "Yazıçı sözü xalqın əməllərinə uyğun gəlməlidir. Gerçəkliyin bədii inikasının başlıca obyekti müasirlikdir... Azərbaycan tarixinin bir çox parlaq səhifələri bədii ədəbiyyatda layiqincə əks etdirilməmişdir... tarixi simaların obrazları yaradılan və tariximizin çox mühüm dövrləri tərənnüm olunan ədəbi əsərlər ən yüksək səviyyədə yazılmalıdır. Bunlar çox mühüm, artıq deyək ki, mürəkkəb mövzulardır" (sitat 6-dan götürülmüşdür).

Təbii ki, ulu öndər "Azərbaycan tarixinin parlaq səhifələri" deyəndə başqa mənəvi-əxlaqi məqamlarla yanaşı, milli dövlətçiliyin mühüm dönəmlərini də nəzərdə tuturdu. Məsələn, Şah İsmail Xətainin, Nadirin və başaq dövlət xadimlərinin dövlətçiliklə bağlı gördükləri işləri ideoloji elementsiz, tarixi yaddaşımıza uyğun bədii təsvir edilməsini nəzərdə tuturdu. Ulu öndər hələ sovetlər dövründən gələcək müstəqil Azərbaycan dövlətini qurmağın əsaslarını hazırlayırdı. Heydər Əliyev buna inanırdı, çünki onun fərdi yaddaşı ilə milli tariximizi dərindən bilməsi əsasında formalaşmış sosial yaddaşın kəsişmə sahəsində bu, artıq ideya kimi mövcud idi. Tarix də onun tam haqlı olduğunu sübut etməkdədir.

ƏDƏBİYYAT

1. Фукуяма, Ф. Сильное государство: Управление и мировой порядок в XXI веке. М.: АСТ:АСТ МОСКВА, ХРАНИТЕЛ, 2006, 224 с.
2. Гадамер Г. Г. Истина и метод. М., Прогресс, 1988, 704 с.
3. Франция-память / П. Нора, М. Озуф, Ж. де Пюимеж, М. Винок. СПб.: Изд-во С.-Петерб. ун-та, 1999, с. 17-50.
4. Уинстон Черчилль. Биография //http://referaty2010.narod.ru/uinston. html
5. Морис Хальбвакс: традиции и коллективная память/ http://scibook.net/sotsiologiya-kulturyi-kniga/moris-halbvaks-traditsii-kollektivnaya-48027.html
6. Şəmsizadə N. Heydər Əliyev və Azərbaycançılıq/Xalq qəzeti. 2009, 05.05.2016, s. 4.

Ключевые слова: *индивидуальная память, социальная память, государственность, традиции, курс построения национального государства, социальная идентичность, культура, язык, память народа*

Keywords: *individual memory, social memory, statehood traditions, the course of construction of the national state, social identity, culture, language, memory of the people*

Расулова Егана,
диссертант Института Философии НАНА

РЕЗЮМЕ

Гейдар Алиев и роль социальной памяти в построении государства

В статье с философской позиции анализируется некоторые исторические аспекты курса построения суверенного и свободного государства Азербайджана Гейдара Алиева. Автор рассматривает эту проблему в контексте взаимодействие индивидуальной и социальной памяти. Показывает, что Гейдар Алиев всегда придал очень большое внимание к сохранению социальной памяти общества, в том числе ее роли в построении национального государства. Общенациональный лидер высоко ценил и постоянно актуализировал роль традиции в обществе. Этим Г.Алиев творчески развивал и на конкретном историческом этапе практиковал идею о взаимодействии социальной памяти и традиции государственности, с концепцией построения суверенного национального государства.

Rasulova Yegana, the dissertator of the Institute of Philosophy of ANAS

SUMMARY

Heydar Aliyev and the role of social memory in the foundation of the state

The article analyzes the philosophical positions of some of the historical aspects of the course of building a sovereign and free state Azerbaijan of Heydar Aliyev. The author examines this problem in the context of the interaction of individual and social memory. It shows that Heydar Aliyev always gave great attention to the preservation of social memory of society, including its role in the construction of the nation-state. National leader highly valued and constantly updated the role of tradition in the society. With this H.Aliyev creatively developed and practiced a particular historical stage the idea of the interaction of social memory and traditions of statehood, with the concept of building a sovereign nation-state.

Politologiya

MARAQ QRUPLARI VƏ ONLARIN FUNKSİONAL TƏBİƏTİ

RİYAD RÜSTƏMLİ
BDU, Politologiya və sosiologiya kafedrası

Maraq qruplarının funksiyalarının mahiyyəti, xarakteri və qarşılıqlı əlaqəsi onların təsnifatı ilə bilavasitə bağlıdır. Bu prinsipi nəzərə almayan bəzi tədqiqatçılar nədənsə əvvəl, maraq qruplarının funksiyaları və onların qarşılıqlı əlaqəsi, sonra isə onun təsnifatı barədə mülahizə yürütməyi məqsədəuyğun hesab edirlər. Maraq qruplarının funksiyalarının xarakteri, məcmusu və qarşılıqlı əlaqəsi məhz onların təsnifatı ilə şərtləndiyi üçün ilk növbədə maraq qruplarının təsnifatını müəyyələşdirməyə cəhd etmək daha düzgündür. Sosial maraqların təqdimatının məqsəd və metodlarından, hakimiyyətə təsir etmək üçün istifadə olunan resurslardan və üsullardan, eləcə də fəaliyyətinin parametrlərindən asılı olaraq onlar bir-birindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Belə ki, çoxsaylı təsnifatlar arasında qrup maraqlarının bölgüsünü onların birməqsədli fəaliyyət xarakterinə görə (təşəkkülü və mövcudluğu yalnız müəyyən məqsədə bağlı olan) və eləcə də çoxməqsədli (fəaliyyəti bir məsələ ilə məhdudlaşmayan) fəaliyyəti baxımından aparmaq olar. Belə təsnifləşdirmə Fransız politoloqu M.Dyuverjenin təsnifatı ilə bağlıdır. O, maraq qruplarını xüsusi (yalnız siyasi fəaliyyətlə məşğul olan) və natamam (biznesin və s. təşkili ilə bağlı olan və daha geniş sosial funksiyalar dairəsini yerinə yetirən) hissələrə ayırır.

Maraq qruplarının daha geniş təsnifatı ərazi əlaməti (yalnız bir regionda formalaşan və fəaliyyət göstərən qruplar), fəaliyyətin səviyyəsi və miqyası (məsələn, hakimiyyətin mərkəzi və yerli orqanlarında fəaliyyət göstərən təzyiq qrupları) ilə bağlı yayılmışdır. T.Day və R.Ziqner sayı baxımdan simvolik uğurlar əldə etmək qabiliyyətinə malik kütləvi qrupları, eləcə də öz məqsədlərinə əzmkarlıqla nail olan çoxsaylı qruplaşmaları fərqləndirir. Ölkə əhalisinin və xariciölkələrin əhalisinin maraqlarını ifadə edən, icraedici və nümayəndəli dövlət orqanlarında fəaliyyət göstərən maraq qrupları da fərqləndirilir. Politoloji ədəbiyyatda mürəkkəb, kompleks meyarlardan istifadə edən, sistemləşdirilmiş maraq

qruplarının da təsnifatına ciddi cəhd edilir. Belə qruplar sisteminə anomik, institutsional, assosiativ və qeyri-assosiativ maraq qrupları aid edilir. Bu və ya digər stiuasiyaya öz-özünə reaksiya nəticəsində kortəbii yaranan qruplar anomik qrup hesab olunur (məsələn, güruhun-camaatın meydana çıxması, nümayişlərin keçirilməsi). Məşhur qərb politoloqu P.Şaranın fikrincə, belə qrupları fərqləndirən cəhət ondan ibarətdir ki, daimi mütəşəkkil fəaliyyətə malik deyillər. Dövlətlə siyasi münasibətə cəlb edilməkdə qeyri-müntəzəmlik nəzərə çarpır. Onların daxili strukturu bir qayda olaraq mükəmməl səviyyədə deyil, əvvəlki təşkilat formaları ilə varisliyə cəhd etmir. Mütəşəkkilliyin olmaması nəinki onların fəaliyyətinin effektliyini aşağı salır, eləcə də praktiki olaraq gücdən istifadə etmələrini qabaqcadan müəyyənləşdirir (1,.s, 213).

Anomik qrupların əksinə olaraq institutsional qruplar müəyyən təşkilati struktura malik olan formal birliklərdir, ciddi funksiyaları və peşəkar kadr aparatı ilə fərqlənirlər. Onların məqsədyönlü fəaliyyəti daha effektlidir. Lakin bu tipli qruplar xüsusi siyasi struktura malik deyildir, bir qayda olaraq öz strukturunu digər məqsədlər üçün yaradılan, hakimiyyətə təsiri həyata keçirən strukturlara uyğunlaşdırmağa çalışırlar.

Qeyri-assosiativ qrupların yaranması mənbəyi kimi qohumluq, dini və sosiomədəni əsasda təşəkkül tapan insanların qeyri-formal və qeyri-könüllü birlikləri çıxış edir. Buraya elmi və tələbə cəmiyyətləri, dini məzhəblər aiddir. Anomik qruplar kimi onlar da daimi deyil, pis strukturlaşıb və həmişə effektli təsir bağışlamır.

Assosiativ qruplar maraq nümayəndəliyi kimi ixtisaslaşan və siyasi məsələlərin həllinə istiqamətlənən (həmklarlar ittifaqı, sahibkarlıq assosiasiyaları, vətəndaş hüququ uğrunda hərəkat) könüllü birliklər kimi səciyyələnir. Onlarınmütəşəkkil və kadr strukturu, maliyyə vəsaitlərindən istifadə qaydası öz məqsədlərinə çatmalarını stimullaşdırır.

Məşhur nəzəriyyəçi U.Fon Alemann maraq qruplarının təsnifatını onların fəaliyyət sferası üzrə müəyyənləşdirməyi təklif etmişdir. Bu əlamətlərə görə aşağıdakı fəaliyyət sferaları nəzərdə tutulur: maraqları iqtisadi sferada və əmək sahəsində təşkil edilən assosiasiyalar (sahibkarlıq birlikləri, istehlak ittifaqları, həmkarlar ittifaqları və s.); sosial sferada təşkil edilən (sosial hüquqları müdafiə edən birliklər, xeyriyyəçi ictimai ittifaqlar, yardım qrupları və s.); asudə vaxt və istirahət sferasında olan (idman ittifaqları, ünsiyyət dəmək̇ləri və s.); din, elm və mədəniyyət sferasında fəaliyyət göstərən (kilsələr, məzhəblər, eımi assosiasiyalar, incəsənət klubları və s.); ictimai-siyasi sferada mövcud olan (hüquq müdafiəsi birlikləri, feminist-siyasi birliklər və s.). Belə tipli təsnifat siyasi assosiasiya kimi səciyyələnən qrupları nəinki ixtisaslaşdırır və eləcə də onların fəaliyyət sferasını genişləndirir.Amerika nəzəriyyəçisi R.Skillinq maraq qruplarının təsnifatına digər meyardan yanaşır, yəni onların differensiyasını siyasi qərarların qəbulu prosesində iştirakları ilə əlaqələndirir.Müəllif müvafiq olaraq bunların fərqləndirilməsini (qrupların müəyyənləşdirilməsinin) belə təsəvvür edir: hakim fraksiyalar (qərarların qəbuluna güclü təsir göstərən qruplaşmalar), rəsmi (formal statusların daşıyıcılarını təcəssüm etdirənlər), bürokratik strukturlar (hakimiyyət aparatında yarananlar), ictimai rəy qrupları (müəyyən qiymətləndirmə və mövqe daşıyıcıları) və sosial qruplar (vətəndaş birlikləri).

Maraq qruplarının, bütövlükdə isə təzyiq qruplarının təsnifatı siyasi elmə aid ədəbiyyatda başqa mövqedən də müəyyənləşdirilir. Belə mövqe qrupların təsnifatında iki başlıca meyara əsaslanır: maddi və mənəvi. Bu əsaslandırmada iki təşkilat fəqləndirilir:

birincisi, hər şeydən əvvəl, maddi maraqları müdafiə edən və yeni uğurlar əldə etməyə cəhd edən təşkilatlar, ikincisi, əsasən ideoloji və əxlaqi prinsipləri müdafiə edən, ədalətli iş uğrunda mübarizə aparan təşkilatlar. Belətəsnifat ideyaların müdafiə edilməsi prosesini və maddi maraqların müdafiəsini dəqiq fərqləndirməyə imkan vermir. Həmin bölgüyə praktiki baxımdan belə haqq qazandırılıb: peşəkar təşkilatlar bütün işçilərin maddi maraqlarını müdafiə edirlər, qeyri-peşəkar təşkilatlar isə əxlaqi xarakter daşıyan qrup maraqlarının müdafiəçisi kimi çıxış edirlər (2.s, 389).

Peşəkar təşkilatların başlıca vəzifəsi maddi maraqları, həm də korporativ qaydada (ittifaq halında) müdafiə etməkdən ibarətdir. Hazırda hər bir peşə öz təşkilatı orqanı tərəfindən müdafiə olunmaqla səciyyələnir. Hətta azad peşə adamları (həkimlər, vəkillər və s.) arasında güclü fərdiyyəçilik ənənəsinə baxmayaraq onlar əsasən kollektiv fəaliyyətə üstünlük verirlər. Daha effektli fəaliyyətin daşıyıcısı kimi təzyiq qruplarının aqrar bölmədə çalışan işçiləri, sahibkarlar və muzdlu əmək adamları səciyyələnirlər.

Kəndlilərin (fermerlərin) təsiri bir tərəfdən ənənəvi dəyərlərə sadiq qalmalarına əsaslanan çoxsaylı olması və sosial-psixoloji birliyi, digər tərəfdən isə kəndlilərin ölkə üzrə dağınıqlığı ilə müəyyən olunur. Bu cəhət onları seçki dairələrinin əksəriyyətində potensial seçicilərə çevirir, parlament çoxluğun formalaşmasında elektoral üstünlüyə malik olmasını şərtləndirir. Lakin sosial planda kəndli təşkilatları qeyri-yekcinsliyi ilə səciyyələnir, ciddi differensasiyaya məruz qalır və nəticə etibarilə bu cəhət onların fəaliyyət birliyi imkanlarını məhdudlaşdırır.

Sahibkar təşkilatları ayrı-ayrı ölkələrdə müxtəlif xüsusi çəkiyə malikdir, inteqrasiya və nümayəndəlik dərəcəsi eyni səviyyədə deyildir. Məsələn, ABŞ-da sahibkarların maraqlarını Ticarət palatası, ştatların və yerli palataların 27 min üzvünü təmsil edən birlik, 200 min kompaniya və 13 min sahibkar assosiasiyaları, ölkənin bütün sənaye kompaniyalarının 75%-ni təmsil edən Milli assosiasiya müdafiə edir.

Sahibkar dairələri müxtəlif təsir imkanlarına malikdir. Ayrıca iqtisadi, sənaye məsələlərinin həllində müvafiq sahibkar təşkilatlarının rolu kifayət dərəcədədir. Onlar bir növ qərarların müstəqil qəbul olunması mərkəzi kimi səciyyələnir. Nəzərə almaq lazımdır ki, sahibkar qrupların iqtisadi resursları effektli olaraq hakimiyyətə qarşı durmalarına, onun yeritdiyi siyasi kursu boykot etməyə imkanyaradır. Əlbətdə, maraq qrupları ilə hakimiyyət strukturları arasanda münasibətlərin düşünülmüş sağlam ünsiyyət

əsasında qaydaya salınması və formalaşması tərəflər üçün çox vacibdir. Ünsiyyət vasitəsilə birgə fəaliyyətin təmin olunması tərəflərin qarşılıqlı fəaliyyətinin vahid strategiyasını işləyib hazırlamağı nəzərdə tutur, bu isə yalnız onların razılaşdırılmış mövqeyi əsasında mümkündür, informasiya mübadiləsi və qarşılıqlı anlaşma sayəsində təmin edilə bilər. Buradan ünsiyyətin mühüm funksiyası - insanların bir-birini dərk etməsi irəli gəlir. Şəxsiyyətlərarası və qrup halında münasibətlərdə ziddiyyətlərin kəskinləşməsi ilə bağlı münaqişəli qarşılıqlı fəaliyyət subyektlərinin maraqlarında, dəyərlərində və məqsədlərində uyğunluğun təzahür etməməsi nəzərə çarpır (3, s. 121). Birgə fəaliyyət, insanlar arasında yaranan müxtəlif xarakterli əlaqə və qarşılıqlı fəaliyyət prosesində daim bir-biri haqqında təsəvvürün formalaşması baş verir, bir-birinin obrazı təşəkkül tapır.

Bu və ya digər kollektivi təmsil edən insanların həyat fəaliyyətinin əhəmiyyətli tərəfi şəxsiyyətlərarası münasibətlərin formalaşması və inkişafıdır. Bu funksiya öz növbəsində əvvəlki iki funksiyadan irəli gəlir. Əmək fəaliyyəti ilə bağlı olan ünsiyyət prosesində müvafiq əlaqələr əsasında, qarşılıqlı fəaliyyətdə kollektivin üzvləri, onun rəhbəri haqqında təsəvvürlər yaranır, müəyyən şəxsiyyətlərarası münasibət təşəkkül tapır. Onlar iki başlıca formada - həm işgüzar münasibət (kollektivin ayrıca üzvlərinin nüfuzu, əməkdaşlığa və qarşılıqlı yardıma meyllilik və s.) və eləcə də şəxsi münasibət (rəğbət-nifrət) səviyyəsində reallaşır.

Sosial gərginlik fərdlərin, sosial qrupların və bütövlükdə cəmiyyətin ictimai şüurunun və davranışının sosial-psixoloji vəziyyətidir. Hadisələrin dərk edilməsi və qiymətləndirilməsinin spesifik situasiyası yüksək emosional oyanışla, sosial tənzimləmə və nəzarət mexanizminin pozulması ilə səciyyələnir. Tərəflər arasında sosial gərginlik etiraz tədbirlərinin, başqa sözlə hökumətin və prezidentin istefası, siyasi kursun əvəz olunması və digər bu kimi məsələlərlə bağlı nümayişlərin, mitinqlərin, tətillərin artmasında təzahür edir. Sosial gərginlik ozaman yaranır ki, münaqişə qanuni şəklə salınmır, münaqişə tərəflərinin dəqiq müəyyənləşdirilməsi nəzərə çarpmır və qarşıdurma kifayət qədər aydın formada təzahür etmir (4. s, 93).

Təzyiq-maraq qrupları arasında ən əhəmiyyətlisi muzdlu işçiləri birləşdirən qlobal xarakterli təşkilatlardır. Ənənəyə görə onları "işçi həmkarlar ittifaqı" adlandırırlar. Müxtəlif ölkələrdə həmkarlar ittifaqı hərəkatının vəziyyəti nəzərə çarpacaq dərəcədə fərqlənir. Muzdlu işçilərin həmkarlar ittifaqının imkanları bu təşkilata aid üç cəhətdən asılıdır: ölkədə həmkarlar ittifaqının nümayəndəliyi; həmkarlar ittifaqı hərəkatının birliyi; həmkarlar ittifaqında intizam. Həmkarlar ittifaqının siyasi çəkisi xeyli dərəcədə onun üzvləri və bütün muzdlu işçilərin faizlə nisbətindən asılıdır. O, tarixi, milli, iqtisadi, mədəni faktorların təsiri ilə təşəkkül tapır və nəzərə çarpacaq dərəcədə konkret ölkədən asılı olaraq dəyişir. Məsələn, Fransada əhalinin muzdlu işçiləri təmsil edən hissəsinin 9%-i həmkarlar ittifaqı ilə əhatə olunmuşdur. Bu rəqəm ABŞ-da 17%, Böyük Britaniyada 38%, AFR-də 39%, İsveçdə 90% təşkil edir (5, s. 391).

Həmkarlar ittifaqı hərəkatının birliyinə texnologiyada baş verən irəliləyişlə bağlı iqtisadiyyatda təzahür edən struktur dəyişiklikləri təsir göstərir. Həmkarlar təşkilatının effektli təsiri onlarda mövcud olan intizam səviyyəsindən asılıdır. Belə bir maraqlı faktı qeyd etmək lazımdır ki, həmkarlar ittifaqı hakimiyyətə təsir etmək istəyir, lakin qərarların qəbulunda iştirak etməyi lazım bilmir, başqa sözlə qəbul olunan qərarlarla bağlı məsuliyyəti öz üzərinə götürmək istəmir və belə hesab edir ki, qərarların qəbulu qanunvericilərin və siyasi partiyaların səlahiyyətinə aiddir.

Maraq-təzyiq qrupları arasında maddi maraqların müdafiəsinə daha çox təsir göstərən istehlak təşkilatlarıdır. Bu fenomeni qərb tədqiqatçıları konsyumerizm adlandırırlar. ABŞ-da yaranan istehlakçılar hərəkatı xeyli ölkəni əhatə etmişdir. İstehlakçıların hüququnu müdafiə edən təşkilat ilk növbədə bunlara diqqət yetirir: istehlakçıların hüququnu müdafiə edən qanunun qəbul edilməsi; ilk həyati tələbat şeylərinin keyfiyyətinə gündəlik nəzarət; istehlakçıların hüququnu müdafiə etmək məqsədi ilə vasitəçilik institutunun yaradılması.

Əxlaqi maraqları müdafiə edən qruplar isə daha çox və müxtəlifdir. Həmin qrupların istifadə etdikləri təsir vasitələrini və maraqlarının xüsusiyyətlərini müəyyən qaydada strukturlaşdırmaq olar: 1. Həyat tərzinin oxşarlığına malik birliklər. 2. Konfessional birliklər. 3. Spesifik maraqları əks etdirən birliklər. Əxlaqi maraqları müdafiə edən qrupların bu struktur komponentlərinin müqayisəli təhlili vacib və məqsədəuyğundur.

Həyat tərzinin oxşarlığına malik olan birliklərdə adətən eyni sosial və ya sosial demoqrafik şəraitdə yaşayan insanlar təmsil olunurlar. Onlara aşağıdakılar aiddir: gənclər təşkilatları, feminist (siyasi) hərəkat, veteran (müharibə, əmək) assosiasiyaları. Onların spesifikliyi bundan ibarətdir ki, həm maddi maraqları (məsələn, əlillər üçün pensiyanın təyin edilməsi, təqaüdün həcminin artırılması, işçi qadın və kişilər üçün eyni şəratitin yaradılması) və eləcə də əxlaqi maraqları (məsələn, cəmiyyətdə yüksək sosial statusun əldə edilməsi) müdafiə edirlər. Bu təşkilatların təsiri müxtəlif ölkələrdə eyni deyildir. Feminist hərəkat ABŞ-da xeyli çəkiyə malikdir, tələbə hərəkatı 1968 və 1990-cı illərdə Avropada özünü güclü səviyyədə biruzə verdi.

Konfessional birliklərlə bağlı qeyd etmək lazımdır ki, dini qurumlarda də təzyiq qruplarının rolunu əks etdirir, lakin bəzi hallarda hakimiyyətə də yiyələnə bilir, məsələn, 1975-ci ildə İranda olduğu kimi. Dini qurumlar öz rəsmi orqanları, dini birliklər, mətbuat vasitəsilə təsir göstərir. Adətən o, ümumbəşəri dəyər və normaları müdafiə edirlər (məsələn, öz məktəblərini, ali təhsil ocaqlarını açırlar).

Nəhayət, üçüncü struktur komponenti kimi səciyyələnən, spesifik maraqları əks etdirən təşkilatlar insan hüquqları uğrunda (hüquq müdafiə təşkilatları)rasizmə qarşı, avropa inteqrasiyası, tərksilah, ətraf mühitin müdafiəsi, ictimai əxlaqa hörmət və . uğrunda mübarizə aparırlar. Onların təsiri çox əhəmiyyətlidir, müxtəlif siyasi oriyentasiyaları birləşdirmək qabiliyyətinə malikdirlər. Belə

təşkilatların məqsədlərinin və fəaliyyətinin humanist istiqaməti seçicilərin xeyli hissəsinin diqqətini cəlb edir. Məhz buna görə siyasi partiyalar bu birliklərə təsir göstərməyə və siyasi mübarizədə onlardan istifadə etməyə cəhd edirlər.

Spesifik siyasi təşkilatlara həmçinin fəlsəfə cəmiyyətləri və siyasi klublar aiddir. Fəlsəfə cəmiyyəti XVIII əsrdə mühüm sosial problemləri birgə müzakirə etmək və xeyli inqilabları ideyaca ruhlandırmaq məqsədilə yaranan intellektuallar birliyidir. Xeyli sayda siyasi partiyaların başlanğıcı məhz fəlsəfə cəmiyyətləri ilə bağlıdır. Fransa inqilabının ideoloji əsasını onlar işləyib hazırlamışlar. Bu reallıqla bağlı Karl Marksın çox dəqiq fikrini xatırlamaq yerinə düşər: "Fransa burjua inqilabı sözün müəyyən mənasında filosof təfəkküründən hasil oımuşdur". "Fəlsəfə cəmiyyəti" hətta İngiltərədə leyboristlər partiyasının yaranmasına təsir göstərmişdir. Fələsəfə cəmiyyəti siyasi klubların təşəkkülünə imkan yaratmışdır (məsələn, Fransada Yakobin klubu). XX əsrin ortalarında siyasi klubların yenidən canlanması partiya sistemlərinin tənəzzülü ilə bağlıdır. Onlar hazırdada siyasi mübarizə vasitəsi kimi çıxış edirlər.

Maraq qruplarının təsnifatı maraqların əhəmiyyəti və subyektlərinin daşıyıcılarına görə də müəyyənləşdirilir. Bunula bağlı qeyd etmək lazımdır ki, dövlətin müdafiə etdiyi ictimai (ümumi) və xüsusi maraqlar (məsələn, peşə qruplarının, feminist və ya gənclər hərəkatının maraqları) mövcuddur. Xüsusi maraqları "xüsusi qruplar" müdafiə edir. Nəzəri cəhətdən dövlət institutları təzyiq (maraq) qrupları kimi çıxış etməsələr də praktikada cəmiyyətin müxtəlif xidmət sahəsini qulluqçuları, aparat məmurları, sərfəli lobbiçilərin siyasi kursa sürətlə qoşulması məqsədilə qanunvericilərə, ictimai rəyə və ya hökumətə təsir göstərirlər. Q.Almond belə qrupları təşkilatlarla (administrasiya-müdriyyət, qanunvericilər, hərbçilər və s.) bağlı olan "mütəşəkkil maraq qrupları" və ya "institutsional maraq qrupları" adlandırmışdır. Normal şəraitdə bu "ictimai qruplar" idarəetmə funksiyasını yerinə yetirirlər, lakin müəyyən situasiyada onlar məmurların, ordunun, komanda heyətinin, ayrıca müəyyən sahələrin və s. maraqlarına lobbiçilik edirlər.

İctimai təzyiq qrupları arasında iki forma fərqləndirilir: mülki və hərbi qruplar. Mülki qrupa dövlətin hər bir institutunu (nazirlik, komitə) aid etmək olar, onlar əvvəlcə öz xüsusi maraqlarını, sonra isə ümumi maraqları müdafiə etməyə cəhd edirlər. Məsələn, hər bir nazirlik öz sahələrinə aid olan işçilərin: kənd təsərrüfatı nazirliyi fermerlərin, nəqliyyat nazirliyi nəqliyyat işçilərinin və s. maraqlarının ifadəçisi kimi çıxış edir. Nazirlik məmurları eləcə də öz maraqlarına malikdirlər və həmkarlar təşkilatlarında təmsil olunurlar. Onlar korporativ mütəşəkkilliyə malik olmaqla, elitanı öz tələblərinə aid qərarlar qəbul etməyə vadar edə bilərlər.

Ordu təzyiq qruplarıda xüsusi əhəmiyətə malikdir. Vətəndaş cəmiyyətinənəzarətin olmadığı halda o, siyasi hakimiyyətə yiyələnərək hərbi rejim yarada bilər.Hərbi hakimiyyətin vətəndaş cəmiyyətinə tabe olduğu ölkələrdə hərbçilər təzyiq qrupları kimi çıxış edə bilər (xüsusi istehsalçılarla ittifaqda fəaliyyət göstərməklə).

Sosial münasibətlər müxtəlif sosial subyektlər və qruplar arasında təşəkkül tapır və hər şeydən əvvəl, onların tələbatının təmin edilməsi ilə bağlıdır. Sosial münasibətlər sosial qrupların ictimai həyatda vəziyyəti və roluna görə bərabərlik və qeyri-bərabərlik münasibətləridir. Sosial münasibətlər nəinki qruplar arasındakı qarşılıqlı münasibətlərdir, eləcə də dostcasına əməkdaşlıq və ya münaqişəli vəziyyətdir (özü də bu qrupların maraqlarının eyniliyinə və ya toqquşmasına əsaslanan). Sosial münasibətlər insanların həyati tələbatlarının təmin edilməsi ilə bağlı, onların qarşılıqlı fəaliyyəti nəticəsində təşəkkül tapır. Təsadüfi deyil ki, siyasi münaqişələrin mənbəyi məhz sırf sosial amillərlə şərtlənir. Bu obyektiv amillər sistemində sosial münasibətlərin müxtəlif formaları, siyasətin subyektinin məqsədləri və funksiyaları, maraq və tələbatı, müəyyən resursların çatışmazlığı başlıca yer tutur.

Təcrübə göstərir ki, ölkələrin, dünya sisteminin, xalqların, etnik qrupların və maraql qruplarının cəlb olunduğu böyük münaqişə onların arasında mövcud olan münasibətlərin tarixinə nisbətən daha tez həll edilir. Qarşılıqlı münasibət, həmçinin münaqişə iştirakçıları başa düşməlidirlər ki, opponentin dərk edilmiş tələbatı,tələbi marağı və hətta emosiyası əsaslandırılmış əhəmiyyət kəsb edir, mövcudluq hüququna malikdir və ümumi qəbul edilmiş norma və qaydalara zidd deyildir (6, s. 152).

ƏDƏBİYYAT:

1. *Соловьев А.И. Политология. М: 2006, 539с*
2. *Мухаев Р.Т. Теория политики. М: 2005, 623с*
3. *Здравомыслов А.Т. Потребности, интересы, ценности. М: 1986, 223с*
4. *Юри У. Путь к согласию или переговоры без поражения. М: 1992, 479с*
5. *Мухаев Р.Т. Политология. М: 2010, 640с*
6. *Лебедева М.М. Политическое урегулирование конфликтов: подходи, решения, технология. М: 1997, 271с*

Açar sözlər: *maraq qrupları, funksiya, təsnifat, təzyiq qrupları, siyasi təşkilatlar, assosiasiya.*

Ключевые слова: *группы интересов, функция, типология, группы давления, политические организации, ассоциация.*

Keywords: *interest groups, functions, typology, pressure groups, political organizations, association.*

Группы интересов и их функциональный характер

РЕЗЮМЕ

В статье определена классификация групп интересов и попытки провести сравнительный анализ их ключевых функций. В контексте классификации групп интересов анализируются характер, масштабы и взаимодействие их функций. В нем также выражается отношение к наиболее важным исследованиям, связанным с этой проблемой. Особое внимание уделено функциональному характеру групп давления в системе групп интересов.

Interest groups and their functional nature

SUMMARY

The article identifies the classification of interest groups and attempts to make a comparative analysis of their key functions. In the context of classification of interest groups, the nature, scope and interaction of their functions are analyzed. It also expresses the attitude towards the most important research related to this problem. The particular attention is paid to the functional nature of pressure groups in the system of interest groups.

Region

CƏNUBİ QAFQAZ ÖLKƏLƏRİNDƏ SU EHTİYATLARININ İNTEQRASİYALI İDARƏ EDİLMƏSİ PROBLEMLƏRİ

YEGANƏ BAXŞIYEVA
AMEA Hüquq və İnsan Haqları İnstitutu

Təbii ehtiyatlar içərisində yeraltı və yerüstü sular insan cəmiyyətinin inkişafında əsas rol oynayır. Ona görə də su ehtiyatlarından kompleks və daha səmərəli istifadə olunması zərurəti yaranır. Su ehtiyatlarından kompleks və səmərəli istifadə onların tükənməsinə qarşı tədbirlərin görülməsi, çirklənmədən mühafizə edilməsi məsələləri ilə üzvi bağlıdır. Su ehtiyatlarının idarə edilməsinin bütün su komponentləri bir-biri ilə sıx və qarşılıqlı əlaqəlidir. Hidrologiya, ekologiya və su ehtiyatlarının idarə olunmasının harada dəqiq sona çatdığını və iqtisadi modelləşdirilmənin haradan başlandığını demək çətindir. İqtisadi modelləşdirilmə qıt olan su ehtiyatlarının istifadəsi, ictimai və fərdi bölmələrdə sərmayələr və cari xərclər arasında əlaqə yaradır və həmçinin su təsərrüfatının inkişafı və idarə edilmə siyasətinin müxtəlif metodlarının müqayisə meyarlarını verir.

Bu gün Cənubi Qafqazda transsərhəd şirin su axarlarının, yerüstü və yeraltı ehtiyatların bölüşdürülməsi, qorunması və istifadəsi getdikcə ölkədaxili, dövlətlərarası iqtisadi-sosial münasibətlər müstəvisindən çıxaraq geosiyasi və geoiqtisadi xarakter almışdır. Belə ki, region dövlətlərinin yerüstü və yeraltı su ehtiyatları, ərazilərindən keçən transsərhəd su axarları bu ölkələrdəki iqtisadi, siyasi və sosial sabitliyin, ərzaq təhlükəsizliyinin, enerji siyasətinin təminatçısı olmaqla, konkret dövlətlərin, regionun deyil, bütövlükdə qlobal təhlükəsizlik mənafelərinin reallaşmasında müstəsna əhəmiyyət kəsb edir. Şirin suya olan tələbatın həndəsi silsilə üzrə artması nəticə etibarı ilə transsərhəd çaylara, qonşu dövlətlərin su mənbələrinin yerləşdiyi ərazilərə iddiaların baş qaldırmasına səbəb olmuşdur. Hazırda davam edən və ya proqnozlaşdırılan istənilən regional hərbi münaqişəyə, o cümlədən Ermənistanın Azərbaycana, Türkiyəyə və Gürcüstana qarşı irəli sürdüyü ərazi iddialarına hidropolitoloji təhlil müstəvisindən yanaşıldıqda, bu fəaliyyətin arxasında su ehtiyatlarına nəzarət planlarının dayanmasını, su amilindən qonşu dövlətlərə siyasi-iqtisadi təzyiq vasitəsi kimi istifadə edilməsini müşahidə etmək mümkündür(3).

Cənubi Qafqaz regionunun 2/5 hissəsi transsərhəd çay hövzələri ətrafında yerləşir. Coğrafi cəhətdən region dövlətləri arasında su ehtiyatları qeyri-bərabər paylanmışdır. Azərbaycan Respublikasının transsərhəd sulardan asılılığı ümumi su istifadəsinin 74%-ni təşkil edir. Bu göstərici ilə su qıtlığına görə Azərbaycan Respublikası post-sovet məkanında Türkmənistan,

Moldova, Özbəkistandan sonra 4-cü yerdədir(2,s.30).

Azərbaycan Respublikasının daxili su ehtiyatlarının yalnız 30%-i ölkənin şirin suya olan tələbatını ödəmək iqtidarındadır. Digər qalan şirin su ehtiyatlarının 70%-i isə qonşu ölkələrdə formalaşır. Bunun da əsas hissəsini Kür və Araz çaylarının suları təşkil edir. Cənubi Qafqazın ümumi şirin su ehtiyatlarının 62%-i Gürcüstanın, 28 %-i Ermənistanın və yalnız 10 %-i Azərbaycan Respublikasının payına düşür. Ona görə də, Cənubi Qafqaz regionunda Azərbaycan Respublikasının hidrotəhlükəsizlik problemini bu reallıqlar fonunda təhlil etmək gərəkdir.

Transsərhəd su hövzələrinin idarə edilməsi tarixən qədim metodlardan biri hesab edilir. Bizim eradan öncə 2500-cü ildə Yaxın Şərqdə Laqaş və Umma dövlətləri arasında Mesopotamiya ovalığında Dəclə çayının birgə istifadəsinə dair imzalanan razılaşmada iki dövlət arasında mübahisəli su hövzəsinin dinc yolla istifadə üsulları göstərilirdi(13,s.79). Müasir dövrdə isə 1929-cu il Nil hövzəsi müqaviləsi, 1959-cu il Nil çayına dair razılaşma, 1960-cı il Hind çayına dair Hindistan və Pakistan arasında imzalanan müqavilələr müasir transsərhəd suların birgə istifadəsi mexanizm və prinsiplərini özündə əks etdirirdi(3).

Transsərhəd Araz və Kür çaylarının su ehtiyatının beş həmsərhəd dövlət (Türkiyə, Azərbaycan, İran, Gürcüstan, Ermənistan) arasında bölünməsi məsələsinin hüquqi baxımdan indiyədək tənzimlənməmiş qalması SSRİ, İran və Türkiyə arasında formalaşmış prinsip və hüquqi əhəmiyyətini itirmiş ikitərəfli müqavilələrin qüvvədə saxlanılması ilə əlaqəlidir. Belə ki, həmin müqavilələrdə - "Sərhəd çaylarından və bulaqlarından istifadə haqqında" konvensiyada (SSRİ-Türkiyə, 8 yanvar 1927-ci il), "Axuryan sərhəd çayı üzərində bəndin və su anbarının tikintisinə dair" Sazişdə (SSRİ-Türkiyə, 26 oktyabr 1973-ci il), "Sərhəd münaqişələrinin tənzimlənməsi haqqında" Müqavilədə (SSRİ-İran, 14 may 1957-ci il), "Suvarma və elektrik enerjisi istehsalı məqsədilə Araz və Atrek çaylarından bərabərhüquqlu və birgə istifadə üzrə ilkin layihələrin hazırlanmasına dair" Sazişdə (SSRİ-İran, 11 avqust 1957-ci il) nə Azərbaycan SSR, nə Gürcüstan SSR, nə də Ermənistan SSR-in hər biri üçün ayrı-ayrılıqda su limiti nəzərdə tutulmamışdır. Belə olan təqdirdə, Araz çayının keçdiyi ərazilərdə Türkiyə, İran, xüsusilə də Ermənistanın yaranmış hüquqi boşluqdan bəhrələnərək birtərəfli qaydada su istehlakı limitini artırması, çayın üzərində yeni bənd, hidrostansiya və su anbarları inşa etdirməsi Azərbaycan Respublikasında şirin su çatışmazlığı probleminin daha da kəskinləşməsinə səbəb olacaqdır. Araz çayı üzərində su elektrik stansiyası ilə bağlı İran və Ermənistanın birgə planlaşdırdıqları iki ortaq layihə Azərbaycan Respublikasının milli maraqlarına qarşı birbaşa təhdid, dövlətin siyasi iradəsinə təzyiq xarakteri daşımaqla, ölkədə sosial-iqtisadi və ekoloji böhranın yaranmasına istiqamətləndirilmişdir(2,s.19-25).

Müasir dövrdə dünyanın bütün inkişaf etmiş ölkələrində ekoloji təhlükəsizlik sahəsində milli proqramlar hazırlanıb həyata keçirilir. Əvvəllər bu proqramın reallaşdırılması yığılıb qalmış tullantıların məhv edilməsinə yönəldilmişdi. İstehsalat fəaliyyətinin neqativ nəticələri aradan qaldırılsa da, ətraf mühitin korlanması nəzərə alınmırdı. Lakin zaman keçdikcə pozulmuş ekosistemin xilas edilməsi zərurəti meydana gəldi. Ehtiyatların etibarlı qiymətləndirilməsi müxtəlif metodların təhlilindən sonra su hövzələrinin özünəməxsus xüsusiyyətlərini nəzərə almağa imkan verən daha optimal metodun seçilməsini zəruri etdi(1,s.12).

Kür və Araz çaylarının beynəlxalq hüquqi statusunun

formalaşması prosesinin araşdırılması və Kür-Araz çayları hövzəsinin ekoloji vəziyyətinin müasir beynəlxalq, hüquq normaları kontekstində tədqiqi olduqca əhəmiyyətli məsələlərdəndir. Eləcə də Kür və Araz çaylarının ekoloji təhlükəsizliyi, Kür və Araz çayları hövzəsinin ekoloji təhlükəsizliyi ilə bağlı problemlərin müəyyən edilməsi və onların həlli yollarının təklif edilməsi, Kür və Araz çaylarından qeyri-gəmiçilik məqsədləri ilə istifadənin istiqamətlərinin və bunların ekoloji təhlükəsizliyə təsirinin öyrənilməsi, bu sahədə bağlanmış müqavilə və sazişlərin təhlili, hövzə dövlətləri tərəfindən Kür və Araz çaylarının canlı ehtiyatlarından istifadənin doğurduğu problemlərin tədqiqi, hövzənin canlı ehtiyatlarının qorunması ilə bağlı beynəlxalq-hüquqi təcrübənin təhlil edilməsi məqsədəuyğundur(4). Aparılan tədqiqatlar göstərir ki, Ermənistan Kür və Araz çayları hövzəsinin ekoloji təhlükəsizliyinə daha çox ziyan vurmuşdur. Bununla bağlı işğalçı dövlətin beynəlxalq-hüquqi məsuliyyətinin müxtəlif aspektlərdən araşdırılması vacibdir(6).

Cənubi Qafqaz regionunun transsərhəd sularının ekoloji təhlükəsizliyinə yardım məqsədi ilə beynəlxalq təşkilatlar bir sıra layihələr həyata keçirmişdilər. Bunlardan biri 2011-2013-cü illərdə UNDP-nin GEF (Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı) Kürün Qlobal Ətraf mühit Ehtiyatları Layihəsi oldu. Layihə Gürcüstan və Azərbaycan ərazisindən keçən çay sisteminə aid edilirdi. Layihənin fəaliyyətdə olduğu müddətdə 50 milli və 5 beynəlxalq ekspert bu prosesə cəlb edilmişdi(10). Kür hövzəsinin "Diagnostik Analiz"i zamanı 4 mühüm məsələ planda əks olunmuşdu: hidroloji su axınında azalma və dəyişiklik, suyun keyfiyyətinin korlanması, ekosistemin deqradasiyası, daşqınlar və iqlim dəyişikliyi. "Diaqnostik Analiz"in nəticəsinə əsasən aşkar olundu ki, Kür çayında hidroloji axında baş verən azalma Azərbaycan və Gürcüstan üçün çox riskli məsələnin yaranması deməkdir(8). Məlum oldu ki, Azərbaycan Respublikasında ildə 4-5 km2 su qıtlığı (tükənməsi) ilə qarşılaşır. Bu vəziyyət hər iki sahilyanı dövlətdə irriqasiya imkanlarını məhdudlaşdırır, kənd təsərrüfatında, məişətdə bir sıra problemlər yaradır. Analizin nəticələrində o da qeyd olunur ki, su qıtlığı çirklənmənin səviyyəsini yüksəldir. Layihə Kür hövzəsində baş verən bu cür neqativ halların Azərbaycan Respublikası üçün daha riskli olduğunu nəzərə alaraq aşağıdakı həll yollarını təklif etdi(2).

• su ehtiyatlarından məqsədyönlü istifadə imkanlarını inkişaf etdirmək;

• sudan məqsədyönlü istifadə üçün infrastruktur imkanları təkmilləşdirmək;
• su hövzəsinin müdafiəsi üçün iqlim dəyişikliyinə uyğunlaşmaq;
• su ekosisteminin qorunması;
• suyun keyfiyyətini inkişaf etdirmək(7).

Həyata keçirilən beynəlxalq layihələrin nəticələrinə əsasən demək olar ki, su ehtiyatlarının idarə olunması üzrə islahatlar hövzə prinsipinin tətbiqi istiqamətində aparılmalıdır. Belə ki, su ehtiyatlarının idarə olunması üzrə Qərb ölkələrinin təcrübəsi göstərir ki, su sahəsinin idarə olunması üzrə fəaliyyətlərin əlaqələndirilməsi ancaq hövzə səviyyəsində əldə edilə bilər.

Su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi sxemi müvafiq məsələlər üzrə Xəzər dənizinin şelfi də daxil olaraq Cənubi Qafqazın transsərhəd çay hövzələrini və Azərbaycan Respublikasının bütün ərazisini əhatə etməklə hazırlanmalıdır. Su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi sxeminin tətbiq ediləcəyi proqnoz hədəfləri: Su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi sxeminin qısa müddətli (10 il) və uzun müddətli (20 və 35 il) hədəflər üçün hazırlanması məqsədəuyğun hesab edilir. Proqnoz hədəflər kimi başqa müddətlər də qəbul edilə bilər. Nəticə etibarı ilə inteqrasiyalı idarəetmənin təmin edəcəyi üstünlüklər aşağıdakılardır:

• İnteqrasiyalı idarəetmə çay hövzəsi hüdudlarında aparılır. Bu, tələbatçının harada yerləşməsindən asılı olmayaraq stabil və bərabərhüquqlu su təchizatına təminat verir;
• Çay hövzələri hüdudunda yerüstü və yeraltı su obyektlərinin mövcud və potensial istismar ehtiyatları qiymətləndirilir;
• İstifadəçilərin suya tələbatı əsaslandırılmaqla sudan istifadə limitləri müəyyən edilir;
• Dövlətin müəyyənləşdirdiyi prioritetlər əsas götürülməklə koordinasiya və qarşılıqlı razılaşma əsasında sudan istifadə ierarxiyası müəyyən edilir;
• Yerüstü və yeraltı sulardan istifadə vahid planlaşdırılma əsasında həyata keçirilir;
• Yerüstü və yeraltı su obyektlərindən istifadə seçimi müqayisəli texniki-iqtisadi səmərəlilik əsasında aparılır;
• Su təsərrüfatçıları assosiasiyaları və şuraları vasitəsi ilə tələbatçılar arasında koordinasiya mexanizmi təmin olunur;
• İdarəetmənin bütün ierarxiyaları səviyyəsində fəaliyyətlərin dəqiq koordinasiyası nəticəsində suyun təşkilati səbəblərdən baş verən itkiləri minimallaşdırılır;
• Su sektorunda siyasət, qanunvericilik və idarəetmədə inteqrasiya yaradılır;
• Dinamik inkişaf edən şəraitə uyğun çevik qanunvericilik təmin edilir;
• Təşkilatlar özünümaliyyələşmə mexanizmi ilə fəaliyyət göstərir və dövlətin yardımı minimuma endirilir;
• ”Xidmət-ödəmə” prinsipi reallaşdırılır;
• Suya qənaət və səmərəli istifadə stimullarının tətbiqi ilə cəmiyyətin bütün üzvləri tərəfindən su ehtiyatlarının məhdudluğu daha çox dərk edilir;
• Verilən və kənarlaşdırılan suyun dəqiq uçotu aparılır;
• İdarəetmə bütün maraqlı tərəflərin iştirakı ilə həyata keçirilir, xidmətlər müqavilə əsasında təmin edilir;
• İctimaiyyətlə məsləhətləşmələr aparılır, maraqlı tərəflər qərarların qəbul edilməsinə cəlb edilir;
• Su istifadəçiləri assosiasiyaları hüquqi şəxs qismində su təsərrüfatı təşkilatları ilə münasibətlərdə dəqiq hüquq və öhdəliklərə malik olur;
• Ətraf mühitin mühafizəsi və ətraf mühitin qorunması üçün ekoloji su ayırmalarının toxunulmazlığı təmin edilir(10).

Su ehtiyatlarının idarə edilməsində dövlətlərin əsas vəzifəsi sudan səmərəli istifadənin təmin olunması, onların çirklənmə və miqdarca tükənmədən mühafizəsi, suların ziyanlı təsirlərinin qarşısının alınması və aradan qaldırılması, su obyektlərinin vəziyyətinin yaxşılaşdırılması və su istifadəçilərinin hüquqlarının qorunmasıdır.

Regional və beynəlxalq mexanizmlər qarşılıqlı asılılıqda və fəaliyyətdə, ətraf mühitin beynəlxalq hüquqi mühafizəsində beynəlxalq əməkdaşlığın əsas sistemini formalaşdırır. ATƏT-in Helsinki Yekun Aktında (1975) xüsusi olaraq qeyd edilmişdir ki, ətraf mühitin əksər problemləri ancaq sıx əməkdaşlıq yolu ilə həll edilə bilər(6). Bu mənada müasir dövrün əsas problemlərindən biri dövlətlərin çoxtərəfli əməkdaşlığının zəruriliyini dərk edib ona qayıtmasıdır. Bununla əlaqədar, 1992-ci il Ətraf mühit və inkişaf üzrə Rio-de-Janeyro Bəyannaməsinin 7-ci prinsipində deyilir: “Dövlətlər dünya ekosisteminin bütövlüyü, mühafizəsi, qorunması məqsədi ilə qlobal tərəfdaşlıq ruhunda əməkdaşlıq edirlər”. Bütövlükdə, ekoloji problemlərin qlobal xarakteri yeni fəlsəfi baxış və praktikaya əsaslanır, bu da son nəticədə region dövlətlərinin səylərini birləşdirməsini tələb edir.

Azərbaycan Respublikası Avropa İttifaqı ilə möhkəm əməkdaşlığın qurulmasına səy göstərir. Əməkdaşlıq üçün prioritet sahələr 2007-2013-cü illər üzrə ölkənin strategiya sənədində Avropa Qonşuluq və Əməkdaşlıq İnstrumenti əsasında Azərbaycan Hökuməti və Avropa Komissiyası tərəfindən təsdiq edilmişdir. Aİ və Azərbaycan Hökuməti arasında ikitərəfli razılaşdırılmış Fəaliyyət planı birgə qəbul edilmiş prioritetlərin icra edilməsi üçün beynəlxalq norma və prinsiplər ilə müqayisədə Azərbaycan Respublikasının öhdəliklərini özündə əks etdirir. Bu Fəaliyyət Planı suyun idarə edilməsi məsələləri də daxil olmaqla ətraf mühit üzrə əsas sektorlar üçün prioritet fəaliyyətləri təyin edir. Aİ-də su mühitinin qorunmasına dair qanunvericiliyin əsasını Su Çərçivə Direktivi (SÇD) təşkil edir. Bu direktiv Aİ üzrə su ehtiyatlarının idarə edilməsində əsas məqsədləri və icra planı ilə yanaşı əsas prinsipləri müəyyən edir. Azərbaycan Respublikası həmçinin Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya (ŞAQMA) ölkələri üzrə Milli Siyasi Dialoqlara (MSD) olan marağını da ifadə etmişdir. BMT-nin Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq üçün ŞAQMA ölkələrində Aİ-nin Su Təşəbbüsünün ŞAQMA komponenti çərçivəsində ən səmərəli alət kimi MSD-yə start verilmişdir. BMT-nin AİK katibliyi ŞAQMA ölkələrində SEİİE üzrə MSD-nin icrasında strateji tərəfdaş kimi çıxış edir. MSD-nin məqsədi ŞAQMA ölkələrində Su Ehtiyatlarının İnteqrasiyalı İdarə Edilməsi (SEİİE) ilə bağlı uyğunlaşdırılmış fəaliyyətlərin başlanılmasıdır. Milli Siyasi Dialoqların (MSD) əsas vəzifəsi SEİİE üzrə tənzimləyici və inzibati fəaliyyətlərin təkmilləşdirilməsi, dəstəyə ehtiyacı olan ölkələrdə suyun idarə edilməsi ilə bağlı çətinliklərə qarşı potensialın artırılması məqsədilə müvafiq layihələrin müəyyən edilməsidir(11).

Əvvəllər Azərbaycan və Gürcüstan arasında transsərhəd çayların su ehtiyatlarının istifadəsi bu məsələyə cavabdeh dövlət qurumları arasında aparılan ikitərəfli danışıqlar və müqavilələr əsasında tənzimlənirdi. Hazırda isə BMT-nin Avropa İqtisadi Komissiyası və ATƏT-in dəstəyi ilə Azərbaycan və Gürcüstan

hökumətləri arasında transsərhəd çayların su ehtiyatlarının istifadəsi və mühafizəsi üzrə müqavilə tamamlanmaq üzrədir. 2017-2021-ci illərdə Azərbaycan və Gürcüstanda həyata keçirilməsi nəzərdə tutulan BMT-nin İnkişaf Proqramı və Qlobal Ekoloji Fondun "Kür II" layihəsi bu müqaviləyə dəstək olacaqdır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, 2011-2014-cü illərdə bu layihənin I fazasında "Kür-Araz çayları hövzəsində transsərhəd deqradasiyanın azaldılması" Azərbaycanın Milli Su Ehtiyatlarının İnteqrasiyalı İdarə Edilməsi (SEİİ) üzrə Milli və Strateji Fəaliyyət Planları hazırlanmışdır.

Beynəlxalq təcrübədə su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi bir qayda olaraq çay hövzələri ilə uzlaşdırılaraq, çay hövzələri hüdudlarında aparılır. Çünki çay hövzələri hüdudunda su ehtiyatlarından içmək, suvarma, enerji alınması, sənaye məqsədi ilə istifadənin planlaşdırılaraq birlikdə idarə olunması inteqrasiyanın əsasını təşkil edir. Transsərhəd suların birgə istifadəsində həmçinin sosial, iqtisadi və ekoloji amillərin su ehtiyatlarından istifadədə planlaşdırılması və idarə edilməsi əhəmiyyətli inteqrasiyaya rəvac verir.

2012-ci ildə Azərbaycan Respublikasında hidrosiyasətin müəyyənləşdirilməsində əsas sənəd - Milli Su Strategiyası qəbul edildi. Bu sənədin hazırlanması prosesində Avropa İqtisadi Komissiyası və ATƏT-in iştirakı olmuşdur. Beynəlxalq hüquq aktlarına və Avropanın müvafiq konvensiyalarına söykənən ilk strategiyanın prioritet istiqaməti məhdud su ehtiyatlarına malik olan Azərbaycan Respublikasında yerüstü və yeraltı su ehtiyatlarının mərkəzləşdirilmiş qaydada idarə olunmasını, onların mühafizəsini, suya qənaət mexanizmlərini təmin etmək, ekoloji sistemi yaxşılaşdırmaq, transsərhəd su mənbələrinin ortaq istismarı istiqamətində dövlətlərarası əməkdaşlığı genişləndirməkdir. Beynəlxalq su qanunvericiliyinə və Avropa İttifaqının Su Çərçivə Direktivinə (SÇD) əsaslanan strategiyanın ümumi məqsədi Azərbaycanda mövcud su ehtiyatlarının səmərəli, bərabər və optimal istifadəsinə yönəldilmiş milli cəhdlərin möhkəmləndirilməsi və inkişafıdır(11).

Su ehtiyatlarının inteqrasiyalı idarəetmə sxeminin hazırlanması üçün başlıca şərtlərdən biri su sektoru üzrə qanunvericilik bazasının yaradılmasıdır. Azərbaycan Respublikasında su sektoru ilə əlaqədar normativ-hüquqi baza əsasən yaradılmışdır. Azərbaycan Respublikası, o cümlədən Kür hövzəsində su siyasəti ilk növbədə su qanunvericiliyi, xüsusilə də, Azərbaycan Respublikasının Su Kodeksi vasitəsilə həyata keçirilir. Su Kodeksi su sektoru sahəsində ölkənin əsas qanunverici aktıdır. Azərbaycan Respublikasının Su Kodeksi 1997-ci ilin dekabr ayında qəbul edilmiş və 1998-ci ilin 17 mart tarixindən qüvvəyə minmişdir. Cənubi Qafqazın digər ölkələrindən fərqli olaraq Azərbaycan Respublikası BMT-nin "Sərhəddən keçən su axınlarının və Beynəlxalq göllərin mühafizəsi və istifadəsi üzrə" Helsinki Konvesiyasını ratifikasiya etmişdir və Konvensiyanın tələblərinə ciddi riayət edir(3).

Heç də təsadüfi deyil ki, Azərbaycan Respublikasında 2010-cu il "Ekologiya ili" olmuş və Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) tərəfindən İtaliyanın Genuya, İsveçrənin Cenevrə şəhərləri ilə yanaşı Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəri də Dünya Ətraf Mühit Gününün Avropa regionunda qeyd edilməsi üçün əsas üç şəhərdən biri elan edilmişdi. BMT-nin Ətraf Mühit Proqramının Avropa Bürosunun direktoru Kristof Buvye Bakıya gələrək Ümumdünya Ətraf Mühit Günü münasibəti ilə "Çoxlu növlər, bir planet, bir gələcək" şüarı ilə Azərbaycan Respublikasının bütün şəhər və rayonlarında keçirilən tədbirlərdə,

xüsusilə də bilavasitə ağacəkmə kampaniyasında iştirak etmişdir(12).

Region dövlətlərinin transsərhəd su ehtiyatlarından birgə səmərəli istifadəsi məsələlərini və yaranan hüquqi, ekoloji problemlərin həllində beynəlxalq hüququn imkanlarını müəyyənləşdirmək üçün Avropa İttifaqının Su Çərçivə Sazişindən, BMT-nin Avropa İqtisadi Komissiyasının konvensiyalarından, İslam Əməkdaşlıq Təşkilatının dəstəyindən, regionun transsərhəd dövlətləri ilə uzunmüddətli sazişlərin bağlanmasından və digər beynəlxalq sənədlərdən irəli gələn vəzifələrə əsasən regionda dayanıqlı sosial-iqtisadi inkişafın əsas təminedici amillərindən olan su ehtiyatlarından səmərəli, ədalətli və optimal istifadənin təşkili üçün milli səylərin birləşdirilməsi olduqca vacib məsələdir. Bu məqsədlə Kür və Araz çayları hövzəsinin ekoloji mühafizəsinin beynəlxalq-hüquqi problemlərini kompleks təhlil etmək, bu sahə üzrə ekoloji təhlükəsizlik problemlərini müəyyənləşdirmək və onların həlli yollarını göstərmək gərəkdir.

Beynəlxalq çay və göllərin çirklənməsinə yol verilməməsi, mövcud çirklənmənin azaldılması üçün sahilyanı dövlətlər bütün zəruri tədbirləri görməlidirlər. Belə tədbirlərin həyata keçirilməsi ilə digər dövlətə və ya dövlətlərə, həmçinin, dünya okeanı sularına dəyə bilən zərərin qarşısını almağa nail olmaq olar.

ƏDƏBİYYAT:

1. UN Environmental Performance Reviews, The Azerbaijan Republic NationalWaterStrategy,2013.http://www.unece.org/environmentalpolicy/environmentalperformancereviews/enveprpublications/environmental-performancereviews/2011/2nd-environmental-performance-review-of-azerbaijan.html.

2. Humbatov M. Threat to the world: hydrological crime and ecological genocide.Vilnius, 2018 199 p.

3. Alakbarov A. Transboundary water issues in the Southern Caucasus in the context of international law / Global and regional hydropolitical problems in the context of international cooperation and security International Conference. Baku: 2014, p.58-68.

4. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları: Ali məktəblər üçün dərslik / Ələkbərov U.K. Bakı: Təhsil, 2013, 222 s.

5. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumat materialları əsasında erməni silahlı təcavüzü və işğal nəticəsində ətraf mühit və təbii sərvətlərə vurulmuş zərərlərin qiymətləndirilməsi (hesabat). Bakı: 2015, 252 s.

6. Təbiətdən istifadənin hüquqi əsasları. Dərslik / Dolxanov A.B. Bakı: 2008, 578 s.

7. Evrim Maden T. Azerbaycan'da su kitliği ve Ermenistan ile Sarsang rezervuari sorunu (water scarcity in Azerbaijan and Sarsang reservoir issue with Armenia) Ermeni Arastirmalari, nömre 52, 2015.

8. Matthews Mary M. Presentation Title: Building transboundary cooperation in the Kura River basin through shared water resources management / Global and regional hydropolitical problems in the context of international cooperation and security International Conference. Baku: 2014, p.36-41.

9. Ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu, №677 iQ, 1999-cu il əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında, №401 IIQ, 2002-ci il. http://www.e-qanun.az/framework/3852

10. Slobodan P. Simonovich. Managing Water Resources. UNESCO Publishing. London: 2009, 626 p.

11. Azərbaycan Respublikası Milli Su Strategiyası layihə. Bakı: 2016. http://blacksearivеrbasins.net/system/files_force/Milli%20Su%20Strategiyasi%201%20Sen%20%202016.pdf?download=1

12. Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi haqqında BMT-nin Konvensiyasına Azərbaycan Respublikasının qoşulması haqqındaqanunu.9.04.1999.http://eco.gov.az/az/684-azerbaycan-respublikasinin-etraf-muhit-ile-bagli-meselelerde-melumatin-elde-edilmesi-ictimaiyyetin-qerar-qebul-edilmesinde-istiraki-ve-edalet-mehkemesinin-aciqkecirilmesihaqqinda-bmt-nin-konvensiyasina-qosulmasi-barede-azerbaycan-respublikasinin-qanunu

13. Mustafazadə T. Ümumi tarix. 4 cilddə, I cild, Bakı: 2009

Açar sözlər: *Cənubi Qafqaz regionu, transsərhəd sular, çirklənmiş Kür-Araz çayları, inteqrasiyalı idarəetmə, beynəlxalq layihələr, Avropa İttifaqı.*

Ключевые слова: *Южно-Кавказский регион, трансграничные воды, загрязненные реки Кура-Араз, интегрированное управление, международные проекты, Европейский Союз.*

Key words: *South Caucasus region, transboundary waters, polluted Kur-Araz rivers, integrated management, international projects, European Union.*

SUMMARY

The article explores the problems of integrating transboundary water resources in the South Caucasus countries. The investigator notes that the transboundary Kur and Araz rivers basically have been polluted. This factor indicates great dangers in the ecology of the South Caucasus region. The dependence of the Republic of Azerbaijan on transboundary waters in the region is greater than in the neighboring states. In this sense, the effective integration of the regional states from the transboundary rivers is crucial. At the same time, the article notes that so much pollution of transboundary rivers by coastal states has resulted in international organizations interested in the region with a number of projects on this issue.

РЕЗЮМЕ

В статье рассматриваются проблемы интеграции трансграничных водных ресурсов в страны Южного Кавказа. Следователь отмечает, что трансграничные реки Кура и Араз в основном загрязнены. Этот фактор указывает на большую опасность для экологии региона Южного Кавказа. Зависимость Азербайджанской Республики от трансграничных вод в регионе больше, чем в соседних государствах. В этом смысле эффективная интеграция региональных государств от трансграничных рек имеет решающее значение. В то же время в статье отмечается, что такое сильное загрязнение трансграничных рек прибрежными государствами привело к тому, что международные организации, заинтересованные в регионе, осуществили ряд проектов по этому вопросу.

Общество

РЕЛИГИОЗНЫЕ И ПОЛИТИЧЕСКИЕ ВЗГЛЯДЫ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

ХАТИРА ИБРАГИМОВА
Бакинский Славянский Университет

Известно, что во все времена у различных народов религия и религиозные организации имеют очень важное значение в обществе. Значительные перемены в жизни людей, в их способности к проявлению активности зачастую опосредованно связано с деятельностью религиозных организаций и объединений. Причём деятельность этих специфических субъектов общественной жизни носит диалектический характер: т.е. люди в определённой степени чувствуют моральную поддержку в своих начинаниях, но наряду с этим здесь имеют место также некоторые проблемы и нерешенные вопросы. В постоянном и поступательном ходе развития дальнейших отношений между обществом и религиозными организациями, устранении вопросов и проблем в данной области исключительную роль играет государство.

Философские законы или категории, как правило, имеют многовековую историю. Не становится исключением также взаимоотношение религии и политики. Как и многие другие сферы социальной жизни общества, эти области в различные исторические эпохи находили отражение в своеобразных взаимосвязях. Вполне естественно предположить, что и в Азербайджане на рубеже XX-XXI веков они выступают в специфических формах.

Однако очевидно, что форма обессмысливается без глубокого внутреннего содержания, коренящегося в реальной основе того или иного социального явления. То есть, как мы понимаем, форма данных понятий словно сокрыта в потенциальных психологических устремлениях народа, видящих в религии в первую очередь воплощение своих желаний и чаяний. А это, в свою очередь в масштабах глобализации находится в определённой взаимосвязи с политикой. Ведь форма не есть некая оболочка, абстрактная субстанция; она несёт на себе функции содержания интересующих нас фактов и явлений, одновременно с тем являясь его объективным бытием.

По словам А.Ахмедова: «В этом смысле, если мы постараемся определить самую фундаментальную основу религии и политики, характеризующую её как социальное явление, придётся выдвинуть на передний план желания и возможности каждой из них управлять людьми и обществом или соответствующе влиять на эти две системы. Независимо от деятельности конкретных методов и рычагов воздействия, на наш взгляд, именно это общее свойство составляет содержание и определённость значения каждой из них» [2,103].

С другой стороны, продолжая высказанную мысль, любым методам и, как он выразился, «всевозможным рычагам воздействия», необходимо придать соответствующее направление, которое точно и верно охарактеризовало бы не только реальность видения проблемы, но и некоторым образом определяла её перспективы на будущее. И далеко идущие в нашей республике прогнозы в этом отношении были сделаны общенациональным лидером азербайджанского народа Гейдаром Алиевым. А возможными такие оценки становятся оттого, что, по всеобщему признанию, гений, стоящий над временем, умел прозорливо видеть на многие годы вперёд.

На международной конференции «Гейдар Алиев и религиозная политика в Азербайджане: реалии и перспективы», состоявшейся 13 апреля 2007 года, многочисленные участники особо подчёркивали, что наш традиционный опыт азербайджанцев в многоконфессиональности может служить примером для целого ряда других стран. Как отмечали многие выступавшие, он нуждается в тщательном изучении и распространении. На конференции было затронуты проблемы, волнующие общественность разных стран.

Ещё один показательный пример: Президент Азербайджана Ильхам Алиев поздравил православную республиканскую христианскую общину. Вот что, в частности, прозвучало в обращении: «Между различными народами, которые столетиями проживают в Азербайджане, всегда существовали традиционные отношения дружбы, взаимовыручки и братства. Отдельные религии и верования осуществляли при этом деятельность непременно в условиях взаимного доверия и уважения. С гордостью могу сообщить, что сегодня Азербайджан известен в мире, прежде всего как край образцовой толерантности и мультикультурализма.

Мы расцениваем этот факт как огромный успех в политике национальной государственности, считаем также успешным сохранение богатого историко-духовного наследия и этно-культурного разнообразия, поощрение и активную пропаганду общественных отношений. Они в первую очередь опираются на мультикультурные традиции, как одного из важнейших направлений нашей деятельности»[4, 2].

Речь шла в основном о тех факторах, которые мешают ведению толерантного, компромиссного межконфессионального диалога, о попытках использовать веру явно в нечистоплотных политических целях, далёких от подлинно духовных задач, а также о распространении неформальных религиозных организаций и объединений, точнее сказать, различных сект. И, конечно, немалое внимание уделялось ситуации в регионе, обострённой агрессивным сепаратизмом.

В период постепенного укрепления политических связей Азербайджана с Россией отрадно отметить, что со стороны последней присутствовала высокая, представительная делегация. Так, на указанной конференции прозвучало поздравление патриарха всея Руси Алексия II. В свою очередь и грузинский католикос Илия II тоже прислал поздравительный адрес. Кроме того, были на собрании религиозные, общественные деятели из ряда европейских и азиатских стран: Польши, Германии,

Румынии, Саудовской Аравии, Турции, Израиля, Пакистана, Ватикана (свыше двадцати 20 государств).

Работу конференции возглавлял генеральный секретарь Организации Исламской конференции (ОИК) Экмеледдин Ихсаноглу. Примечательно, что на ней выступили главы христианской и иудейской общин Азербайджана, а также представители албанской церкви (кришнаиты). Как отметил Президент Азербайджанской Республики Ильхам Алиев, «неопровержима бесценная историческая роль азербайджанского народа и ислама в том, что этносы, имеющие различные убеждения и верования, веками жили в условиях мира и спокойствия, в сохранении до наших дней культурно-этнического разнообразия» [7]. В нынешнюю эпоху глобализации тем более ясно: нет необходимости терять это замечательное качество, которое свойственно азербайджанскому народу.

В 1970-1980-х годах защищать и отстаивать религиозные ценности было невозможно. Представители мусульманского духовенства, религия в целом, в Советском Азербайджане в те годы подвергались обструкции. Тем более представлялось крайне затруднительным выступать в печати (или с речами публично) с мнением о связи политики с религией, либо о параллельном и равноправном их существовании. Последнее также подразумевало влияние силовых политических структур на религиозные воззрения местного населения. Поэтому можно констатировать удивительную для того времени смелость Г.А.Алиева в отстаивании вопросов тесной связи религии с политикой.

Известный современный турецкий писатель-публицист Ирфан Юлкю в своём произведении «От красной звезды к полумесяцу: бурная жизнь Гейдара Алиева» красноречиво и вместе с тем правдиво пишет: «Нелегко говорить о великих лидерах, выдвинутых историей и судьбой и надевших не сгорая, рубашку, приготовленную из пламени, без боязни берущихся за ответственную работу, выходить на дорогу для встречи с историей. Президент Азербайджана - одна из редких исторических личностей, с ответственностью боровшийся за великую историческую миссию. Его борьба как лидера привела к значительному изменению в истории страны» [1, 78]. Сюда объективно следует, на наш взгляд, добавить поразительную прозорливость и дальновидность общенационального лидера азербайджанского народа в той сфере, которая непосредственно связана с исламской религией.

Необходимо признать, что гражданская позиция Гейдара Алиева и в советскую эпоху оставалась твёрдой и непреклонной. Общенациональный лидер Азербайджана, полностью солидаризуясь с духом и буквой закона об отделении религии от политики современного государства, мудро и дальновидно трансформировал проблему взаимоотношения этих понятий в аспект традиционных для азербайджанского народа эстетических национально-духовных ценностей.

Учитывая непреложный факт в истории всех союзных республик о грубом и насильственном насаждении атеистических идей, абсолютного выхолащивания из политического строя любого рода божественных представлений, Г.А.Алиев осознавал, что высокие государственные чины, превратились в жертву ими же проповедуемых идеологических воззрений.

С начала 1990-х годов политическая платформа государственных чиновников высшего эшелона по сравнению с двумя предшествующими десятилетиями серьёзно пошатнулась. И в самый кризисный для Азербайджана момент Г.А.Алиев понял, что национальная политика неотделима от религиозной политики. А отрицание основ религии есть, в сущности, принижение, нивелирование или даже полное уничтожение многовековых нравственно-духовных ценностей, отрыв от народных корней. Он утверждал: «Мы, азербайджанцы, никогда не оставим нашу веру, нашу религию и, используя эти нравственные источники, построим наше будущее» [5].

Кроме того, Г.А.Алиев понимал, что заповеди, закреплённые в Книге Откровений, – это не догма, а конкретная форма для ведения проповедей с комментариями для верующего населения. И в то же самое время Коран - это инструмент для политиков в области проведения в жизнь той или иной идеологии. Поэтому он словно предрекал для потомков: «Мы ни в коем случае не будем держать Ислам в замороженном состоянии. Наш мир и наше общество развиваются. Если так, то Ислам не может находиться в изначальном состоянии. Однако это не означает противостоять основам и положенному в нем пути. Напротив, каждое поколение, приходящее в мир, должно укреплять свои корни. Должно делать так, чтобы эти корни питались вечно, развивались, не оставались в замерзшем состоянии и не прогнивали» [5].

Выдвижение такого постулата в качестве бесспорного признания кредо предводителя государства было не только дальновидным политическим шагом в республике, но к тому же явилось и его творческим даром, озарением. Между поиском научно выверенных фактов и обоснованных теоретических положений о видах и формах взаимосвязи политики и религии буфером встала, с одной стороны, острая и актуальная проблема сохранения и приумножения всего духовного потенциала нашего многонационального народа.

С другой стороны, в указанные годы появилась насущная, практикой жизни выдвигаемая на передний план необходимость защиты традиций восточной религиозной толерантности, то есть той духовной инстанции, которой издревле славился азербайджанский народ. В свою очередь духовные лица по возможности её сохраняли и манифестировали.

Г.А.Алиев своими идейными помыслами и последовательно проводимой в правительстве политической линией, был тем великим политическим лидером, который высоко оценивал духовно-нравственные и национально-эстетические ценности родного народа как важную часть национальной политики. И потому его центральная политическая линия, направленная на сохранение идеологии с ярко выраженным нравственным подтекстом в нашем обществе, четко акцентировала особое внимание к религии в Азербайджане, как стальной крепи государства.

Мы убеждены в том, что Г.А.Алиев мог, конечно, допускать будущее Азербайджанской Республики, в известной степени зависящее от частичного возврата к великим духовным ценностям, выработанным на всём мусульманском Востоке. В принципе тому есть и веские основания. Так, на рубеже веков были и такие политики, которые самый процесс возвращения к религиозным корням понимали столь буквально, а потому, разумеется, и превратно, что относили его к области военной стратегии и общественных устоев отдалённого от нас VII столетия.

Г.А.Алиев, будучи блестящим историком, вполне адекватно воспринимал массовый возврат к религиозным истокам. В то же самое время он не был воодушевлён анархическими идеями, воплощёнными в этом политическом процессе, так как прекрасно осознавал, что это отдаёт откровенным ретроградством. Общенациональный лидер Азербайджана Г.А.Алиев был против насильственной политизации религии в нашей стране, он активно выступал против превращения ислама как религии,

целиком опирающейся на высоконравственные принципы, в так называемый «исламский фактор», дутый и оторванный от основ реальной жизни.

История доказала правоту гениальных прозрений мудрого политика Г.А.Алиева. Под ислам, выражающий коренные интересы многочисленной армии мусульманского народа, некоторые деструктивные международные силы стали подводить порочную линию религиозного восприятия, выраженного вышеуказанной формулой.

Как отмечает М.Алиев: «… исламский фактор стал притчей не только в современной России, но и вообще на всём постсоветском пространстве. Он неуклонно возрастает, и такое положение дел служит веским аргументом в пользу необходимости серьёзного и разностороннего рассмотрения роли и места мусульманской культуры в современном мире и в особенности – перспектив её развития в России в третьем тысячелетии» [6]. Г.А.Алиев органично расценивал это негативное поветрие как преграду в перспективах взаимоотношения политики и религии, прежде всего в Азербайджане.

Вместе с тем, утверждая, что с обретением свободы, независимости и суверенитета в нашем государстве, названные ценности обретут своё второе рождение, он фактически ясно давал установку на ближайшие цели и задачи, которые должны быть поставлены в настоящей области. Причём, эти задачи он понимал и внедрял в политику государства именно в масштабах современной глобализации, ведь они распространялись на различные сферы человеческого общежития, включая культуру, науку, искусство и т.д. Поэтому их абсолютная ценность, по нашему мнению, заключалась не только в первичных шагах, но в установлении контуров более отдалённых перспектив.

Одну из оперативных задач в области взаимоотношения религии и политики Г.А.Алиев раскрывал так: «В Азербайджане, опираясь на свои национально-духовные ценности, мы придаём особое значение развитию науки и культуры нашего народа, обогащению и единению национально-духовных основ с общечеловеческими ценностями» [3,162]. Часть из поставленных задач, прежде всего, была связана с поиском адекватной реакции политиков на утверждение интернациональных основ нашего государства.

В целом и общем взаимоотношения между религией и политикой на современном витке истории Азербайджана формируются и базируются на центральном принципе светской цивилизованной государственности. Это основа основ, и приведённое нами положение согласуется с соответствующей статьёй за номером 57 Конституции Азербайджанской Республики от 1995 года об утверждении светского, демократического, правового и социального государства. В силу того, что религия в нашей республике отделена от государства, искомые понятия сосуществуют как самостоятельно и динамично развивающиеся.Сентенции такого рода понятны и не нуждаются в дополнительных комментариях. Но вот к чему Г.А. Алиев подходил с новаторских позиций. Люди могут ошибаться, а отлаженная система не подводит никогда.

Тем самым мы хотим подвести к мысли о том, что общенациональный лидер азербайджанского народа фактически приравнивал политическую линию, так или иначе выражавшую духовные запросы личности, к светским элементам системы государственного устройства. В современном истолковании эти нравственно-религиозные элементы закреплены не только в Конституции, но также на уровне общественных воззрений. Г.А. Алиев считал, что общественное мнение родного народа, сформированное в русле усвоения таких в первую очередь признаков характера людей, как толерантность в конфессиональном диалоге, веротерпимость по отношению к представителям других наций, а также все те качества, которые прямо и непосредственно связаны с религиозной толерантностью. Это: гуманизм, выдержка, доброта, честность, открытость души, порядочность, уважение к теоретическим воззрениям оппонентов, дружба и т.п.

